# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 247 (8563) CÜMƏ AXŞAMI, 26 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# İlham ƏLİYEV: "Kəlbəcər bizimdir!"



## Prezident İlham Əliyevin xalqa müraciəti

- Əziz həmvətənlər. Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur.

Kəlbəcər rayonunun işğal altına düşməsi böyük faciə idi. Hər bir rayonun işğal altına düşməsi böyük faciə idi. 1992-ci ilin may ayında Şuşa və Laçın rayonlarının işğal altına düşməsindən sonra Kəlbəcərin də işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı. Hər kəs yaxşı bilir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan Respublikası ilə sərhədi yox idi. Ermənistanı Dağlıq Qarabağdan Laçın rayonu ayırırdı, Laçın dəhlizi ayırırdı. Laçın, Şuşa və ondan sonra Kəlbəcər rayonlarının işğal altına düşməsi böyük ərazidə Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratdı və düşmənin məqsədi məhz bundan ibarət idi. Kəlbəcərin işğal altına düşməsindən sonra demək olar ki, Ermənistanla Dağlıq Qarabağ arasında bir çox yollar vasitəsilə əlaqə yaradıldı və ilk növbədə, silahlar, texnikalar, canlı qüvvə göndərilmişdir. Eyni zamanda Ermənistanın sonrakı işğalçılıq siyasətinə də bu, böyük üstünlüklər təmin etmişdir.

Kəlbəcər rayonunun işğal altına düşməsi o vaxt hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinin birbaşa məsuliyyətidir. Bütövlükdə torpaqlarımızın işğal altına düşməsində əsas günahkar Azərbaycan Xalq Cəbhəsidir. Çünki əgər 1992-ci ildə onlar qanunsuz yollarla hakimiyyətə gəlməsəydilər, əgər dövlət çevrilişi etməsəydilər, bəlkə də, torpaqlarımız işğal altına düşməyə bilərdi. Əlbəttə ki, tarixə qayıdıb nə ola bilərdi, nə olmaya bilərdi demək çox çətindir. Ancaq hər halda, torpaqlarımızın işğal altına düşməsində onların birbaşa iştirakı, əli var və bu məsuliyyəti onlar daşıyır. Çünki 1992-ci ilin yaz aylarında hakimiyyət uğrunda mübarizə pik həddə çatmışdı. Azərbaycanda daxili çəkişmələr baş alıb gedirdi, xaos, böhran yaranmışdı, siyasi böhran yaranmışdı və hakimiyyət uğrunda mübarizə çox ciddi fəsadlara gətirib çıxarmışdı. Ermənistan isə bundan istifadə edərək torpaqlarımızı zəbt etməyə davam edirdi. Şuşa və Laçının işğal altına düşməsindən sonra vəziyyət kritik həddə çatdı. Bundan istifadə edən Azərbaycan Xalq Cəbhəsi dövlət çevrilişi edərək hakimiyyətə gəldi. Ancaq ondan sonra nə oldu? Ondan sonra bütün səylərini öz laxlamış hakimiyyətini möhkəmləndirmək, ölkəmizdə repressiyalar təşkil etmək, senzuranı tətbiq etmək və digər antidemokratik addımlar atmağa yönəltdi. Torpaqlarımız işğala məruz qalırdı, mülki əhalimiz öz dədə-baba torpaqlarından didərgin salınırdı, Azərbaycan Xalq Cəbhəsi, onun rəhbərliyi ancaq bir məqsədi güdürdülər ki, öz ciblərini doldursunlar, öz yaxın adamlarını vəzifələrə təyin etsinlər və öz hakimiyyətinin ömrünü uzatsınlar. Kəlbəcərin işğal altına düşməsi bax, bu çirkin addımların nəticəsi idi. Başqa cür ola da bilməzdi. İndi gənc nəsil xatırlamır, ancaq bilməlidirlər ki, o vaxt Azərbaycana kimlər rəhbərlik edirdi, hansı bilik sahibləri, hansı səriştə sahibləri. O adamların heç bir təcrübəsi yox idi. O adamlar - o vaxt rəhbərlikdə təmsil olunmuş adamlar, yüksək postlar tutmuş adamlar bir gün belə heç bir idarəyə, heç bir kiçik bir müəssisəyə rəhbərlik etməmişdilər. Onlar ölkəni, xüsusilə böhranlı vəziyyətdə olan ölkəni necə idarə edə bilərdilər? Amma onların vəzifə hərisliyi, tamahı, iştahası, görməmişliyi Azərbaycanı bax, bu vəziyyətə gətirib çıxardı. Baxın, görün, Azərbaycanı o vaxt kimlər idarə edirdi?! Parlamentin sədri kiçik elmi işçi idi, özü də uğursuz bir elmi işçi idi. Dövlət katibi - komsomoldan çıxmış karyerist, özü də sonrakı mərhələdə öz liderinə xəyanət etmiş, onun kürsüsünə, kreslosuna göz dikmiş, onun ölümünə hamıdan çox sevinmiş və ondan sonrakı həyatını, sadəcə olaraq, xarici dairələrin idarəsi altında keçirən bir adam.

Onlardan hansı idarəçilik gözləmək olardı? Onlardan hansı vətənpərvərlik gözləmək olardı? Hansı peşəkarlıq gözləmək olardı? Xarici işlər naziri. Heç bir dildə danışa bilməyən təsadüfi bir adam, fizika müəllimi. Hansı ki, ümumiyyətlə, başa düşmürdü xarici münasibətlər nədir, beynəlxalq norma, prinsiplər nədir? Sadəcə olaraq, turist kimi ora-bura gedirdi və ağzına gələni danışırdı. Müdafiə naziri, riyaziyyat müəllimi. Riyaziyyat müəllimi müdafiə naziri ola bilərmi? Məhz bu riyaziyyat müəllimi Şuşanı düşmənə təhvil verdi. Deyirdi ki, Şuşa əldən gedərsə, başıma güllə vuracağam. Bu günə qədər orada-burada sülənir. Şuşanı biz qaytarmışıq, biz. Siz satmısınız onu, xalq xainləri. Daxili işlər naziri. Quldurluq baş alıb gedirdi, jurnalistlər həbs olunurdu, döyülürdü, canlı efirdə maşınların yük yerinə atılırdı. Bu idi Azərbaycan Xalq Cəbhəsinin rəhbərləri. Baş nazir elmi kommunizm üzrə kiçik elmi işçi idi. Baxın, bu təzadlara baxın. Ölkə iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qabağa aparmağa məsul olan adam elmi kommunizm üzrə kiçik elmi işçi idi.

*Ardı 2-ci səh.*

## Azərbaycan Respublikasının Xocavənd rayonunun Tsakuri kəndinin Hünərli kəndi adlandırılması haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndinə əsasən **qərara alır:**

Azərbaycan Respublikasının Xocavənd rayonunun Çiraquz kənd inzibati ərazi dairəsi tərkibindəki Tsakuri kəndi Hünərli kəndi adlandırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2020-ci il*

## Azərbaycan Respublikasının Xocalı rayonunun Quşçubaba kəndinin Baharlı kəndi adlandırılması haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndinə əsasən **qərara alır:**

Azərbaycan Respublikasının Xocalı rayonunun Qarabulaq kənd inzibati ərazi dairəsi tərkibindəki Quşçubaba kəndi Baharlı kəndi adlandırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2020-ci il*



## Birinci vitse-prezident Mehriban Əliyeva Kəlbəcərin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Hörmətli həmvətənlər!

Sizi əlamətdar hadisə - Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy Şanlı Qələbəmiz hər evə, hər ailəyə bol sevinc, təbəssüm, səadət, ölkəmizə sülh və əmin-amanlıq gətirsin! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

## Ağdamın xilaskarı

### İLHAM ƏLİYEVin qalib kimi gəldiyi Ağdamda ucaltdığı bayrağın kölgəsi indi Xankəndiyə və Xocalıya da düşür

Prezidentin Ağdama azadlığa qovuşandan cəmi 3 gün sonra etdiyi səfər və burada verdiyi bəyanat yalnız müasir dövrün mühüm ictimai-siyasi-hərbi olayı deyildi, həm də tariximizin ən şərəfli salnamələrindən birinə çevriləcək hadisə idi.



Vaxtilə Qafqazın ən varlı, ən abad, ən gözəl şəhərlərindən biri olan Ağdamın bu gün xarabalıqlara çevrilən ərazisini Mehriban xanım Əliyeva ilə birgə qəzəblə, eyni zamanda, böyük inamla müşahidə edən Sərkərdə Vətən Savaşının indiyədək məlum olmayan məqamlarını və illər boyu Ağdamla bağlı keçirdiyi ən duyğusal hisslərini ifadə etdi.

### İLHAM ƏLİYEV 9982 günlük həsrətə son qoydu

Ağdam Qarabağ münaqişəsinin böyük çətinliklərini, ağır itkilərini, qanlı faciələrini görüb. 6 mindən artıq şəhidi ilə Azərbaycanın qəhrəmanlıq tarixinin şanlı səhifələrini yazan ağdamlılar ovaxtkı siyasi rəhbərliklərin onları şərin qarşısında tənha qoymasına, himayədən məhrum etməsinə baxmayaraq, 1993-cü ilin iyulunadək öz gücünə arxalanaraq tək özünü qorumadı, həm də digər rayonlara arxa, dayaq oldu. Ancaq güc də bir yerə qədərmiş... Fövqəldövlətlərin o dövrün ən müasir silahları, muzdlu döyüşçüləri ilə təmin etdiyi işğalçı ilə amansız mübarizədə ağdamlılar və onların hayına səs verib məmləkətin dörd bir yanında köməyə gələn könüllülər geri çəkilməyə məcbur oldular.

Və 27 il, 3 ay, 28 gün - 9982 gün sonra qələbə sevincini yaşamaqla bərabər, o faciələrə də nəzər salır, məğlubiyyətimizə rəvac verən məlum siyasi qüvvələri daha çox lənətləyir və onların məkrini əsla unutmayacağımızı anlayırıq...

Ağdamlılar bu onilliklərdə çox məşəqqətlərə düçar oldular, həyatlarını sıfırdan qurmağa məcbur qaldılar, respublikanın 62 şəhər və rayonunda yataqxanalarda, yarımçıq tikililərdə məskunlaşdılar. Amma doğma torpaqlarına qayıdacaqlarına ümidlərini heç vaxt itirmədilər. Dövlətin dəstəyi, şəxsən Prezidentin himayəsi ilə yeni tikilmiş şəhərciklərdə evlərlə təmin edildilər. Elə Ağdamın dörddəbirində qalmış ərazini də İlham Əliyev abadlaşdırdı, yenidən qurdu, həm də 18 yeni qəsəbə saldı. Digər rayonlarda məskunlaşmış ağdamlıların 40 faizdən artığı bu qəsəbələrə qayıdaraq, öz dədə-baba yurdlarına daha da yaxınlaşdılar.

Düşmənin qarşısında həmişə mətin və dönməz dayanan Ağdam dörd il öncə cəbhə xəttində düşmən yeni avantüralara başlayanda da müvazinətini itirmədi, itkilərə baxmayaraq, bir addım da geri çəkilmədi, bir ağdamlı da öz kəndini tərk etmədi.

Bəli, artıq 1993-cü il deyildi!

Ağdam himayəsiz qalmamışdı!

Ağdamlılar tənha deyildilər!

Ağdamın, ağdamlıların arxasında dayanan, daha doğrusu, önündə addımlayan qüdrətli dövlət, güclü Prezident vardı!

Mehriban xanım Əliyeva ilə bərabər həmin hadisələr vaxtı iki dəfə ard-arda ağdamlılarla görüşə gələn Prezident "sizlərin Ağdama qayıdacağınız gün uzaqda deyil", - söylədi...

Bu, əlbəttə ki, təsəlli deyildi!

Bu, Prezidentin 2003-cü ildən etibarən hazırlığına başladığı Vətən Savaşı konsepsiyasının gerçəkləşmə anının sona yaxınlaşdığının göstəricisi idi!

*Ardı 6-cı səh.*

# İlham ƏLİYEV: “Kəlbəcər bizimdir!”



Əvvəli 1-ci səh.

Hansı idarəçilik, hansı islahatlar, hansı müdafiə qabiliyyəti təmin oluna bilərdi? Bizim dərdimiz və faciəmiz budur ki, təsadüfi adamlar hakimiyyətə gəldilər, hakimiyyəti qanunsuz yollarla qəsb etdilər və ölkəmizi uçuruma apardılar.

Əgər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə gəlməsəydi, Azərbaycan nəinki öz qalan torpaqlarını itirəcəkdi, ümumiyyətlə, dövlətçilik əldən gedəcəkdi. Öz laxlamış hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsi başlamışdılar. Öz əsgərlərini əsir götürmüşdülər. Gəncəni bombalamışdılar. Bunu heç kim unutmasın! Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır? Ovaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti. Əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır - savadsız, biliksiz, iradəsiz, qorxaq, fərari, idarəetmədə heç bir təcrübəsi olmayan, xarici dairələrin təsiri altında olan, onların əli ilə idarə olunan və öz ölkəsini məhv edən. Bax, kollektiv Paşinyandır onlar. Onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar. Onun addımlarına baxsınlar və onun simasında ovaxtkı Azərbaycan Xalq Cəbhəsinin və ölkə rəhbərliyinin simasını görəcəklər.

Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni “tarixçiləri” və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər. Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir. Biz bu kilsələri qoruyuruq. Mən bu kilsələrdə dəfələrlə olmuşam, Şəki şəhərində, Qəbələ rayonunda, Udi kilsəsində. Bildiyiniz kimi, müharibə dövründə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nic qəsəbəsində qədim Udi Qafqaz Albaniyası kilsəsinin təmir işləri yekunlaşdı və bu kilsənin açılışı oldu. Biz bu kilsələri mədəni sərvətimiz kimi qoruyuruq. Ona görə, heç kim narahat olmasın. Bu kilsələr bundan sonra da dövlət tərəfindən qorunacaq. Azərbaycanın multikulturalizmlə, dinlərarası münasibətlə bağlı apardığı siyasət bütün dünya tərəfindən, dünya liderləri tərəfindən təqdirlə qarşılanır. Narahatlıq ifadə etmək istəyən bəzi Qərb dairələri bizim dağılmış məscidlərə baxsınlar, Ağdam, Şuşa, Zəngilan, Cəbrayıl, Füzuli məscidlərinə və digər məscidlərə. O məscidlər ya dağıdılıb, ya da ki, təhqir edilib, donuzlar saxlanılıb. Niyə bu, narahatlıq doğurmurdu? Otuz il bu barədə niyə heç kim məsələ qaldırmırdı, bizdən başqa? Mən bu məsələni dəfələrlə beynəlxalq tribunalardan, beynəlxalq kürsülərdən, xarici həmkarlarımla təmaslar əsnasında qaldırmışdım. Nə üçün buna heç kim narahatlıq ifadə etmirdi? Nə üçün bu məsələ ilə bağlı heç kim beynəlxalq heyət göndərmək istəmirdi? Bu suallara cavab istəyir Azərbaycan xalqı. Biz bu cavabı bilirik. Ona görə bir daha demək istəyirəm, bizim işimizə qarışmaq istəyən, yaxud da ki, nədəsə ittiham etmək istəyən getsin, ilk növbədə, güzgüyə baxsın.

Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malikdir. Bizim bir neçə böyük çayımızın mənbəyi Kəlbəcər rayonundadır. Onların arasında ən böyüyü Tərtər çayıdır, uzunluğu 200 kilometrdir. Bazarçay, Xaçınçay. Onların uzunluğu təqribən 200 kilometrə yaxındır. Bu çaylar böyük ərazini qidalandırır. Ancaq mənfur düşmən bizi bu imkanlardan məhrum etdi. Çünki Tərtər çayı 1970-ci illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Sərsəng su anbarına axıdılır. Sərsəng su anbarı o vaxt o məqsədlə tikilmişdi ki, Qarabağın Aran zonasında yerləşən 6-7 rayonda suvarma işləri təmin edilsin. O vaxt Sərsəng su anbarı inşa ediləndən sonra heç vaxt suvarılmayan 100 min hektar ərazi artıq suvarılmağa başlamışdır. Ağdam, Goranboy, Yevlax, Bərdə, Tərtər və digər rayonlar oradan qaynaqlanırdı. Mənfur düşmən suyumuzu kəsdi. Yayda suyu kəsirdi, qışda buraxırdı və su basırdı bütün torpaqları. Bax, bizə qarşı ekoloji terror təşkil edilirdi. Ermənistan terror dövlətidir, bu terrorun bir çox əlamətləri var. Tarixi abidələrimizin dağıdılması, mülki əhaliyə qarşı törədilən soyqırımı, meşələrimizin qırılması, çaylarımızın məcrasının dəyişdirilməsi və digər əlamətlər var. Baxın, Kəlbəcərdən başlayan Tərtər çayının suyu Sərsəng su anbarında və ondan sonra Suqovuşan su anbarında yığılırdı, işğalçının maraqlarını təmin edirdi, bizə isə su gəlmirdi. Biz Suqovuşan qəsəbəsini alandan sonra indi artıq suyun verilməsi başlamışdır və 100 min hektara suyun verilməsi nəzərdə tutulur.

Kəlbəcər rayonunda böyük meşə əraziləri vardır. Kəlbəcər rayonunda 24 min hektar meşə ərazisi var. Bu, böyük sərvətimizdir. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb. Görün, son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldur, meşələri yandırırlar ki, ekoloji faciə, fəlakət yaratsınlar. Bu oğrular meşələri qırırlar, aparırlar ki, Ermənistanda satsınlar. Evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik! Mən bir daha deyirəm və hər dəfə də deyəcəyəm, bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik.

Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə və həyat qayıdacaqdır.

Kəlbəcərdə mənfur düşmən digər cinayət də törədib, qanunsuz məskunlaşma aparıb. Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. Bu isə hərbi cinayətdir və Cenevrə Konvensiyasına görə hərbi cinayət sayılır. Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də həmçinin, Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan.

Biz isə qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var. Artıq bu planlar reallaşır, infrastruktur layihələri icra edilməyə başlayır. Şuşaya yeni yolun çəkilişi artıq başlanmışdır. Sovet vaxtında Şuşaya getmək üçün bir yol var idi - Ağdamdan Xankəndiyə, oradan da Şuşaya. İndi biz Füzuli rayonundan yeni yol çəkirik. Bu yol Xocavənd rayonunun bir hissəsindən keçəcək. Göstəriş vermişəm ki, bu, tezliklə təmin edilsin. Halbuki bu, böyük işdir, orada yol olmayıb və meşələrin içi ilə yol salınır, dərələr, təpələr, çox ağır relyef var orada. Amma biz bunu edəcəyik. Dəmir yollarını bərpa edəcəyik. O cümlədən, Naxçıvan Muxtar Respublikasına gedən dəmir yolunun bərpası ilə əlaqədar artıq ilkin göstərişlər verilmişdir. Bərdə-Ağdam dəmir yolunun bərpası ilə əlaqədar artıq praktiki addımlar atılmışdır. Ağdam rayonunun bərpası və gələcəkdə orada yaşayacaq insanların rahatlığı üçün bu yol mütləq olmalıdır. Yəni bütün bu işlər planlı şəkildə aparılacaq və Azərbaycan vətəndaşları görüləcək işlərlə bağlı müntəzəm olaraq məlumatlandırılacaqdır. Bütün işləri biz planlı şəkildə etməliyik. Bir daha demək istəyirəm, ilk növbədə, dəymiş bütün ziyan beynəlxalq ekspertlərin iştirakı ilə hesablanacaq. Ondan sonra məhkəmə iddiaları. Ondan sonra şəhərlərimizin, kəndlərimizin baş plan əsasında yenidən qurulması, kənd təsərrüfatı, digər infrastruktur layihələri, su, işıq ilə əlaqədar lazımi tədbirlər. Ondan sonra yollar. Biz düşməni Şuşadan qovanda oraya gedən su xəttini sıradan çıxarıb. İndi Şuşada su yoxdur. Bax, budur bu düşmən.

Bizim əsgərlərimiz görəndə ki, Ağdam rayonunun bir kəndində erməni əhalisi vaxtında çıxa bilməyib, onlara çıxmaq üçün şərait yaradıblar. Onlara söz deyən olmayıb. Amma mənfur düşmən bizim meşələrimizi yandırır, evlərimizi yandırır, su xəttini sıradan çıxarıb. Hesab edir ki, bu, bizi dayandıracaq? Biz istənilən yerə su xətti çəkmişik - ucqar dağlara çəkmişik, dağ kəndlərinə çəkmişik. Hamısını bərpa edəcəyik, hamısını. Artıq müvafiq göstərişlər verilibdir və əminəm ki, biz bu işləri vaxtında görəcəyik.

Düşmən Kəlbəcərə yeni eybəcər bir ad verib. Onlar “Dağlıq Qarabağ respublikası”nın xəritələrini düzəltmişdilər. Hanı o xəritələr? Hamısı məhv oldu. O xəritələr, sadəcə olaraq, kağız parçasıdır. Həm Dağlıq Qarabağ Muxtar Vilayətinin bütün ərazisini, Şuşanı, eyni zamanda, ətrafda yerləşən bütün 7 rayonu da aid etmişlər “Dağlıq Qarabağ respublikası”na. Bu xəritələri dərc edirdilər, dərsliklərə salmışdılar, sərgilərdə nümayiş etdirirdilər. Bu xəritələri onlar elə təqdim edirdilər ki, budur “Dağlıq Qarabağ respublikası”. İndi nə qalıb o xəritələrdə? Heç nə. Azərbaycan öz ərazi bütövlüyünün bərpası istiqamətində lazımi addımlar atıbdır.

Mən bir daha danışıqlar dövrünə qayıtmaq istəyirəm. O vaxt dəfələrlə mənə deyilirdi ki, münaqişə yalnız sülh yolu ilə həll olunmalıdır. Deyə bilərəm ki, bütün beynəlxalq təşkilatlar, təmasda olduğum bütün böyük dövlətlərin liderləri dəfələrlə deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Bu, ifadələr açıq mətbuatda da var. Mən nə deyirdim? Deyirdim ki, var! Deyirdim ki, lazım olsa torpaqlarımızı hərbi yolla azad edəcəyik. Deyirdim ki, müharibə heç zaman istisna olunmur. Danışıqlar dövründə müxtəlif mərhələlərdə dəfələrlə təklif irəli sürülürdü ki, Azərbaycan tərəfi müharibə yolundan imtina etsin. Mən heç vaxt buna razılıq vermirdim. Ondan sonra məni ittiham etməyə başlayırdılar ki, İlham Əliyev müharibəyə başlamaq istəyir. Mən deyirdim ki, məsələni sülh yolu ilə həll etmək istəyirəm. Amma həll etmək istəyirəm. Ermənistan nə istəyirdi? Status-kvonu saxlamaq, əbədi etmək. Hesab edirdi ki, əgər 26-27 il ərzində buna nail olubsa, deməli, bundan sonra da nail olacaq. Hesab edirdilər ki, onların havadarları daim onları müdafiə edəcəklər, onların arxasında duracaqlar, onların əvəzinə müharibə aparacaqlar. Onlar, ümumiyyətlə, hesab edirlər ki, bütün dünya bunlara borcludur. Onlar bu ziyanlı və xəstə təfəkkürlə öz ölkəsini idarə etmək istəyirlər ki, kimsə gəlməlidir, bunlara mütləq kömək göstərməlidir. Bəs, siz özünüz nəyə qadirsiniz? Əgər hər zaman kiminsə ətəyindən yapışıb hansısa imtiyaz umursunuzsa, bəs, özünüz nəyə qadirsiniz? Bax, bu təfəkkür onların cəmiyyətini də demək olar ki, yanlış istiqamətə aparıb. Bu gün də hamıdan narazıdırlar. Bu gün də hamıya qarşı iddialar irəli sürürlər ki, nə üçün bizi heç kim müdafiə etmir. Sizi kim müdafiə etməlidir? Siz müstəqil ölkəsiniz, - əgər belə demək mümkündürsə, - müstəqil ölkə kimi də yaşayın, bu, birincisi. İkincisi, siz başqasının torpağını zəbt etmisiniz. Bir milyon insanı evsiz-eşiksiz qoymusunuz. Bütün binaları, evləri, şəhərləri dağıtmısınız. Siz özünüzü vəhşilər kimi aparmısınız. Haqq-ədalət sizin tərəfinizdə deyil, beynəlxalq hüquq sizin tərəfinizdə deyil, tarixi həqiqət sizin tərəfinizdə deyil. Amma hesab edirdilər ki, bu torpaqları əbədi saxlayacaqlar. Hesab edirdilər ki, vaxt keçəcək, nəsillər dəyişəcək. Azərbaycan xalqı bunu unudacaq, bu vəziyyətlə barışacaq. Səhv etdilər. Heç vaxt biz bu vəziyyətlə barışmaq fikrində deyildik. Mən Prezident kimi bu illər ərzində əlimdən gələni edirdim ki, Dağlıq Qarabağ məsələsi daim gündəlikdə olsun, özü də daim gündəliyin mərkəzində olsun. Həm ölkə daxilində vətənpərvərlik, milli qürur, həmrəylik hissləri daha da yüksək səviyyəyə qalxsın. Həm beynəlxalq müstəvidə daim bu məsələ gündəlikdə olsun. Hər kəs bilsin, həqiqət nədən ibarətdir, hər kəs bilsin, təcavüzkar kimdir, zərərçəkmiş tərəf kimdir və biz buna nail olduq. İndi dünyada hər kəs bunu bilir. Əgər Vətən müharibəsi dövründə xarici mətbuata diqqət yetirsək, görərik ki, əlbəttə, qərəzli, islamofob, anti-Azərbaycan, ermənipərəst məqalələr və reportajlar üstünlük təşkil edir. Ancaq, eyni zamanda, əvvəlki dövrdən fərqli olaraq bir çox obyektiv, həqiqəti əks etdirən reportajlar, məqalələr də dərc edildi. Deyə bilərəm ki, biz informasiya müharibəsində qələbə qazandıq. Biz döyüş meydanında qələbə qazandıq, informasiya məkanında qələbə qazandıq, siyasi müstəvidə qələbə qazandıq. Müharibənin nəticələri mən deyən kimi oldu. Mən ilk günlərdən deyirdim ki, bu məsələ öz həllini hərbi, siyasi yollarla tapmalıdır. Deyirdim ki, biz məsələnin hərbi yollarla həllini hər an dayandıra bilərik və buna hazırıq. Bir şərtlə, Paşinyan şəxsən özü deməlidir ki, nə vaxt o, bizim torpaqlarımızdan çıxır. Öhdəlik götürməlidir, tarix verməlidir. Deməlidir ki, nə vaxt bizim torpaqlarımızdan çıxır. Bu olan kimi, mən bizim hücum əməliyyatlarımızı dayandırıram. O, artıq cəzasını alıb. Halbuki o vaxt o, 7 şərti bizə irəli sürəndə demişəm: Mənim bir şərtim var, - sənin yeddi şərtini zibil yeşiyinə atıram, - rədd ol, çıx get torpağımızdan. Öz xoşunla çıx get. Əgər qulaq assaydı, bu rəzil vəziyyətə düşməzdi. Müharibənin nəticələri də mən deyən kimi oldu. Biz Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Murovdağı, Suqovuşanı, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı hərbi yollarla azad etdik. Döyüş meydanında düşmənin belini qırdıq. Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü, kapitulyasiya aktına imza atdı. Hələ ki, bilmirəm harada. Bunu gizlədirlər. Yəqin ki, nə vaxtsa bizə deyəcəklər. Paşinyan, harada imzalamısan sən bu kapitulyasiya aktını? Ancaq məcbur olub bizim şərtlərimizi qəbul edib.

Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir. Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!

***AZƏRTAC***

# “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881; 2020, № 5, maddə 508, № 6, maddələr 662, 669, № 7, maddələr 824, 830) 14.8-1-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar övladlığa götürüldükdə də bu hüququ saxlayırlar.”

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 3, maddə 172; 2012, № 2, maddə 68, № 5, maddə 426, № 9, maddə 851, № 12, maddə 1248; 2013, № 9, maddə 1063; 2014, № 9, maddə 1033; 2016, № 2 (II kitab), maddə 236; 2017, № 3, maddə 383, № 10, maddə 1782, № 11, maddə 2022; 2018, № 5, maddə 971; 2019, № 3, maddə 395; 2020, № 1, maddə 12; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1168 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı”nın 2.3-cü bəndindən “, Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın Katibliyinin” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident!

Sülh və birgəyaşayış dəyərlərini yüksək qiymətləndirən, eləcə də Sizə dost ölkə olan Şri-Lanka Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinə qarşı barbar hücumları, həmçinin mülki şəxslərin vəhşicəsinə qətlə yetirilməsini pisləyir. Bu, insanlıq əleyhinə cinayətdir. Ermənistanın məsuliyyətsiz və amansız raket hücumları nəinki insan tələfatına səbəb olub, hətta infrastruktura böyük ziyan vurub. Şri-Lanka Ermənistanın terrorist qruplaşmaları tərəfindən Azərbaycanın Gəncə və Bərdə şəhərlərinin mülki sakinlərinə qarşı həyata keçirilmiş ballistik raket hücumlarını qətiyyətlə pisləyir və bu hücumları həm insan hüquqlarının, həm də beynəlxalq humanitar hüququn pozulması kimi qiymətləndirir.

Son onilliyin qlobal siyasi və müharibə trendlərini təhlil edərkən belə görünür ki, özlərini “dünya liderləri” adlandıran dövlətlər həmişə müsəlman ölkələrini “mədəniyyətsiz” və “barbar” kimi qələmə verərək onlara qarşı təzyiqlər göstərməyə çalışıblar, amma özlərinin insan hüquqlarını pozmaları faktlarına göz yumublar. Belə maneələrin qarşısını alaraq Sizin nümayiş etdirdiyiniz səyləri və dözümlülüyü yüksək qiymətləndirirəm.

Cənab Prezident, eyni zamanda Siz 30 ilə yaxındır davam edən qanlı müharibəyə son qoyulması ilə bağlı Azərbaycan vətəndaşlarının zati-alinizə göstərdiyi etimadı doğrultdunuz. Qazandığınız bu inamlı Qələbə Sizin müdrikliyiniz, qətiyyətiniz və güclü liderliyiniz sayəsində mümkün oldu. Bununla da Siz Azərbaycan xalqının qəlbini fəth etmiş əsl milli qəhrəmana çevrildiniz.

Mən həmçinin bu çətin günlərdə Sizin arxanızda dayanan hərbçilərə, siyasi liderlərə, polis əməkdaşlarına və jurnalistlərə dərin minnətdarlığımı bildirir və təbriklərimi çatdırıram. Bu çətin anlarda Azərbaycan vətəndaşlarının göstərdiyi təmkin və dözümlülüyü yüksək qiymətləndirirəm.

Bundan başqa, ölkənizin yüksək səviyyədə diplomatik münasibətlər qurmaq bacarığını da yüksək dəyərləndirirəm. Türkiyə, Pakistan, Əfqanıstan, İsrail və digər dost ölkələrin dövlətinizə olan davamlı siyasi dəstəyi bunu bir daha təsdiqləyir. Dost və qonşu ölkələrin Azərbaycana verdiyi bu dəstək yüksək liderlik keyfiyyətlərinizin təzahürüdür.

Sonda biz Azərbaycanda fəaliyyət göstərən şri-lankalı iş adamları olaraq Qarabağın inkişafı istiqamətində Azərbaycan vətəndaşları üçün səmərəli və faydalı fəaliyyətinizdə Sizə dəstəyimizi ifadə edirik.

*Hörmətlə,*

***Azərbaycanda fəaliyyət göstərən şri-lankalı iş adamları adından***
***Akalanka Nişanta Bandara JAYATİLAKE***

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin məzunu olmuş livanlı həkimlər və mühəndislər adından Sizi və Sizin şəxsinizdə bütün Azərbaycan xalqını torpaqlarınızın Ermənistan işğalından azad edilməsi ilə nəticələnən bu tarixi və böyük Qələbə münasibətilə təbrik edirəm.

Sizin qətiyyətiniz və əzmkarlığınız, rəşadətli ordunuzun qəhrəmanlıqları və Azərbaycan xalqının Qarabağın azad edilməsi istiqamətində səylərinizi yekdilliklə dəstəkləməsi bu böyük Qələbəyə yol açdı.

Biz - Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin livanlı məzunları bu böyük nailiyyət münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, Allahdan zati-alinizə və böyük Azərbaycan xalqına davamlı tərəqqi və nailiyyətlər diləyirik.

*Hörmətlə,*

***Azərbaycan universitetlərinin livanlı məzunları adından***
***Professor Akram TARHİNİ***

# Azərbaycan Baş Prokurorluğunun Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlığı uğurla davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq, Azərbaycanın prokurorluq orqanları xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 170-dən çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığını davam etdirir.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 23-24-də BPA İcraiyyə Komitəsinin videoformat rejimində 50-ci iclası və 25-ci illik ümumi yığıncağı keçirilib.

Tədbirdə Baş prokurorlar daxil olmaqla, prokurorluq orqanlarının rəhbər şəxsləri, nüfuzlu beynəlxalq təşkilatların yüksəkvəzifəli nümayəndələri iştirak ediblər.

Hər iki iclasda ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru, Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü və vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

İcraiyyə Komitəsinin iclasında Assosiasiyanın müvafiq komitələrinə yeni üzvlərin qəbulu həyata keçirilib, dünya prokurorlarının fəaliyyətini təkmilləşdirmək məqsədi daşıyan bir sıra təşkilati məsələlər, həmçinin qurumun fəaliyyətinin təşkili üçün zəruri olan hesabat və sənədlər müzakirə olunub.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinə uyğun olaraq, prokurorluq orqanlarında genişmiqyaslı islahatlar aparılıb, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkarların formalaşdırılması məqsədilə Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən qurulub, yeni idarələr yaradılmaqla, ümumilikdə, idarə və şöbələrin sayı 18-ə çatdırılıb.

Baş prokuror otuz ilə yaxın dövrdə Azərbaycanın Ermənistan tərəfindən işğal altında saxlanılan beynəlxalq səviyyədə tanınmış ərazilərinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında azad edildiyi, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etdiyi barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Tədbirin sonunda Assosiasiya ilə ölkəmizin prokurorluq orqanları arasında gələcək əməkdaşlıq perspektivləri müzakirə edilərək ətraflı fikir mübadiləsi aparılıb.

# ICAPP-ın Daimi Komitəsinin iclasında Azərbaycanın beynəlxalq hüquqa əsasən ərazi bütövlüyünün bərpasından bəhs edilib

Noyabrın 25-də Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (ICAPP) Daimi Komitəsinin videokonfrans formatında 34-cü iclası keçirilib.







Yeni Azərbaycan Partiyasının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasın açılışında çıxış edən ICAPP-ın həmsədri Xose de Venesia bu il təşkilatın yaranmasının 20 ilinin tamam olduğunu bildirib. O qeyd edib ki, 20 il əvvəl 40 siyasi partiyanın iştirakı ilə yaranan təşkilatda bu gün 50-dən çox ölkədən 300-dən artıq siyasi partiya birləşib. “Biz müxtəlif ideologiyaları özündə ehtiva edən iqtidar və müxalifət partiyalarını bu təşkilatda birləşdirməyə nail olmuşuq. Təşkilatımızın amalı regionumuzda, o cümlədən dünyada sülh, sabitlik və təhlükəsizliyin təmin olunmasına xidmət etməkdir”, - deyə ICAPP-ın həmsədri vurğulayıb.

Müzakirələrdə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini - icra katibi Əli Əhmədov qeyd edib ki, 30 ilə yaxın Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdu: “Biz 30 il münaqişənin dinc yolla həlli olunması üçün beynəlxalq hüququn təsirli olacağına inandıq və buna görə də gözlədik. Amma bu baş vermədi. İşğala əsaslanan status-kvonun saxlanması üçün Ermənistanın dəfələrlə törətdiyi təxribatlardan sonra Azərbaycan beynəlxalq hüquqa əsasən öz ərazi bütövlüyünü bərpa etmək üçün hərbi əməliyyatlara başladı. Bunun nəticəsində 44 gün ərzində torpaqlarımız işğaldan azad edildi. Bu, ədalətin bərpası deməkdir. Hesab edirəm ki, ICAPP beynəlxalq hüququn prinsiplərinin daha ciddi və sistemli şəkildə tətbiq olunmasının vacibliyi ilə bağlı təşəbbüsü dəstəkləmək istiqamətində addımlar ata bilər”.

# Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Fransa Senatında Dağlıq Qarabağdakı qondarma qurumun tanınması məsələsinə baxılması ilə bağlı bəyanat yayıblar

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Fransa Senatında Dağlıq Qarabağdakı qondarma qurumun tanınması məsələsinə baxılması ilə bağlı bəyanat yayıblar.

AZƏRTAC bəyanatı təqdim edir.

## Azərbaycan Respublikasında fəaliyyət göstərən siyasi partiyaların BƏYANATI

Məlum olduğu kimi, Fransa Senatı bu gün - noyabrın 25-də Dağlıq Qarabağdakı qondarma qurumu tanımağı tövsiyə edən qətnaməni müzakirəyə çıxarmağa hazırlaşır. Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar olaraq təəssüflə bəyan edirik ki, Fransa Senatının bu hərəkəti bizim üçün gözlənilməz deyildi, belə bir addım atılacağını gözləyirdik.

Ermənistan-Azərbaycan münaqişəsinin ilk günlərindən başlamış qərəzli mövqe Tovuz rayonunda Azərbaycan sərhədlərinin pozulması zamanı, xüsusən də İkinci Qarabağ müharibəsinin gedişində və müharibədən sonra özünü daha qabarıq büruzə verdi.

Biz, Azərbaycan ictimaiyyətinin avanqardı olan, əksər hallarda siyasətə məhz ərazi bütövlüyümüzə qəsdin aradan qaldırılması üçün qatılmış siyasi xadimlər unutmamışıq ki, Dağlıq Qarabağ münaqişəsinin başlamasına səbəb ilk dəfə Mixail Qorbaçovun müşaviri Abel Aqanbeqyanın 1987-ci ildə məhz Parisdə keçirdiyi görüşlərdə Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsi haqqında Fransadakı erməni diasporuna söz verməsi olmuşdur.

Birinci Qarabağ müharibəsinin gedişində Fransada həbsdən azad edilən ASALA terrorçuları Dağlıq Qarabağda azərbaycanlılara qarşı misilsiz vəhşilikləri ilə ad çıxarmışdılar. Terror fəaliyyəti heç kimdə şübhə doğurmayan şəxslərin kütləvi şəkildə azərbaycanlılara qarşı döyüşmək üçün Ermənistana, oradan da Dağlıq Qarabağa göndərilməsi bizim unutmayacağımız faktlardır.

Məhz Fransanın himayəsi ilə Yaxın Şərqdəki, xüsusən Livandakı erməni icması xüsusi imtiyazlar əldə etmiş, Livanda dövlət içərisində dövlətə çevrilmişdir. Fransanın himayəsi ilə Livandakı ermənilərdən formalaşdırılmış ASALA Yaxın Şərqdən terrorçular cəlb edərək azərbaycanlılara qarşı amansızlıqları ilə seçilən dəstələr təşkil etmişdir.

Azərbaycan və Fransa arasında ən yüksək səviyyədə dövlət səfərləri təşkil edilmiş, bizim ölkəmiz Fransaya böyük ümidlər bəsləyərək 1997-ci ildən ATƏT-in Minsk qrupuna həmsədr seçilməsinə razılıq vermişdir.

Azərbaycanda Fransanın iqtisadi maraqları maksimum təmin edilmişdir. Azərbaycanda 50-dən çox fransız şirkəti uğurla fəaliyyət göstərir və Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların həcmi 2 milyard dollardan çoxdur. 2018-ci ilin iyununda Parisə səfəri zamanı Prezident İlham Əliyev iqtisadi əlaqələrin inkişafına xüsusi diqqət yetirmiş, aparıcı fransız şirkətləri və qruplarının rəhbərləri ilə görüşlər keçirmiş, 2,2 milyard dollarlıq anlaşmalar imzalanmışdı.

Azərbaycan dövləti və Heydər Əliyev Fondu Fransada çoxsaylı mədəni layihələr icra etmiş, Parisdə Versal Sarayı parkındakı ümumbəşəri abidələr, Luvr Muzeyi bərpa olunmuş, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi, Luvr Muzeyində İslam incəsənəti bölməsi yaradılmışdır.

Lakin bütün bu addımlara baxmayaraq, Fransa qərəzli ermənipərəst mövqeyindən imtina etmədi, bəzi fransız şirkətləri İkinci Qarabağ müharibəsinin son anlarınadək Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət göstərməkdə davam etdi.

2018-ci ildə bir çox Fransa bələdiyyələri qondarma rejimdəki bələdiyyələrlə dostluq xartiyaları imzalamışlar. Azərbaycan tərəfi Fransa məhkəmələri vasitəsilə bu xartiyaları ləğv etdirsə də, bu il Paris meriyası “Dağlıq Qarabağ respublikası”nı tanımaq təşəbbüsü qaldırmışdır.

Fransa Prezidenti Emmanuel Makron sentyabrın 30-da Latviyanın paytaxtı Riqada Ermənistan-Azərbaycan münaqişəsi və cəbhədə baş verənlərə toxunaraq həqiqətə uyğun olmayan qeyri-ciddi açıqlamalar vermiş, daha sonra saxta məlumatlar və şayiələr əsasında, heç bir dəlil-sübutsuz ölkəmizə qarşı böhtan atmışdır.

Noyabrın əvvəlində Fransanın 42 tanınmış xadimi - yazıçılar, jurnalistlər və s. prezident Makrona birgə məktub yazaraq “Qarabağ ermənilərini müdafiə etməyə” çağırmışlar.

Fransanın xarici işlər naziri Jan-İv Le Drian bildirib ki, ATƏT-in Minsk qrupunun həmsədri olmasına baxmayaraq, rəsmi Paris Ermənistanı birtərəfli müdafiə etməkdə davam edəcək.

Dağlıq Qarabağ münaqişəsinin ilk çağlarından bu günədək davam edən qərəzli addımlar göstərir ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi tərəfsizliyini qoruya bilmir. Fransa təcavüzkar Ermənistan ilə işğala məruz qalmış Azərbaycan arasında fərq qoymur və qərəzli surətdə işğalçı Ermənistanı müdafiə edir, obyektiv deyil, işğalçının yanındadır və vasitəçilik missiyasını yerinə yetirmir. Son hadisələr onu göstərdi ki, münaqişənin real həllində yalnız ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Rusiya və Minsk qrupunun üzvü olan Türkiyə maraqlıdır. Bu cür yanaşmaya, o cümlədən hər üç ölkə rəhbəri arasında dostluq və sıx əməkdaşlıq münasibətləri səbəb olmuşdur.

Dünyada ikili standartlarla, eyni hadisəyə fərqli yanaşma ilə ədalət təmin edilə bilməz. Hesab edirik ki, fransız siyasi elitası heç zaman Böyük Fransız İnqilabının ideallarına riayət etməmiş, bir tərəfdən qardaşlıq, azadlıq, bərabərlik, dinin dövlətdən ayrı olması idealları bəyan edilsə də, reallıqda müstəmləkəçilik, islamofobiya, antisemitizm, irqçilik, xristian təəssübkeşliyi bu ölkənin xarici siyasətində həmişə mühüm yer tutmuşdur. Məhz Fransanın yanlış yanaşmalarının nəticəsi olaraq Avropa İttifaqı bu gün bir xristian klubu kimi qəbul olunmaqdadır.

Fransa Əlcəzair, Tunis, Mərakeş, Çad, Qabon, Kamerun, Ruanda, Cibuti, Kamboca və Vyetnamda soyqırımları törətmiş bir ölkədir.

Bu gün Sakit Okeanda, Hind Okeanında və Karib dənizində yerləşən 11 ada dövləti və Cənubi Amerikada 1 materik ərazisi (Fransız Qvianası) və Şimali Amerikada yerləşən digər 1 materik ərazisi (Sen-Pyer və Mikelon) Fransa əraziləri hesab olunur. Bu müstəmləkə ərazilərində 3 milyona yaxın insan yaşayır və şəxsiyyət vəsiqələrində onların milliyyəti məcburi şəkildə “fransız” olaraq qeyd olunur. Fransa idarəçilərinə məsləhət görürük ki, Azərbaycana Dağlıq Qarabağla bağlı məsləhətlər verib uca bəyanatlar səsləndirməkdənsə, bu xalqların, o cümlədən 300 ildir işğal etdiyi Elzas və Korsika əhalisinin öz müqəddəratını müəyyən etmək prinsipinə necə yanaşırsa, Dağlıq Qarabağ mövzusuna da eyni münasibət göstərsin.

Belə ikili standartlara əlavə olaraq Fransa siyasi elitasının son zamanlar etnik və iqtisadi lobbilər tərəfindən ələ alınmasına dair Fransa mediası yüzlərlə yazılar dərc etməkdədir. 1980-ci illərdən üzü bəri Fransanın demək olar bütün aparıcı siyasətçiləri barədə bu məzmunda ittihamlar səsləndirilmişdir.

Azərbaycan ictimaiyyətinə Emmanuel Makronun da etnik lobbilər, konkret olaraq erməni lobbisi tərəfindən ələ alınması, öz fəaliyyətini erməni lobbisinin maraqları ilə uzlaşdırması haqqında məlumatlar bəllidir. Makronun Qarabağdakı “erməni dini və tarixi-mədəni abidələrinin” qorunması vacibliyindən danışdığı halda, İkinci Qarabağ müharibəsi zamanı ermənilərin hərbi cinayətləri nəticəsində 94 günahsız mülki şəxsin həlak olması barədə susması onun riyakarlığını bir daha göstərir. Emmanuel Makronun ermənilərə münasibətdə göstərdiyi canfəşanlığın arxasında duran əsl səbəbləri tarix göstərəcəkdir.

Biz siyasi partiyalar olaraq bəyan edirik ki, indi daha konkret addımlar atmaq zamanı yetişmişdir. Fransa Senatının Dağlıq Qarabağla bağlı qətnaməsi qəbul olunacağı təqdirdə, açıq-aşkar işğalçını dəstəkləyən ölkə bundan sonra ATƏT-in Minsk qrupunun həmsədrliyindən uzaqlaşdırılmalı, Fransa ilə bütün siyasi-iqtisadi münasibətlərə yenidən baxılmalı, bütün mədəni layihələr dayandırılmalıdır.

***Yeni Azərbaycan Partiyası - Əli Əhmədov***
***Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı***
***Ana Vətən Partiyası - Fəzail Ağamalı***
***Böyük Quruluş Partiyası - Fazil Mustafa***
***Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - Qüdrət Həsənquliyev***
***Demokratik İslahatlar Partiyası - Asim Mollazadə***
***Vəhdət Partiyası - Tahir Kərimli***
***Vətəndaş Birliyi Partiyası - Sabir Hacıyev***
***Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev***
***Milli Cəbhə Partiyası - Razi Nurullayev***
***ReAL Partiyası - İlqar Məmmədov***
***Azərbaycan Ümid Partiyası - İqbal Ağazadə***
***Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev***
***Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu***
***Ədalət Partiyası - İlyas İsmayılov***
***Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev***
***Azad Demokratlar Partiyası - Sülhəddin Əkbər***
***Azərbaycan Liberal Partiyası - Əvəz Temirxan***
***Azərbaycan Milli İstiqlal Partiyası - Arzuxan Əlizadə***
***Aydınlar Partiyası - Qulamhüseyn Əlibəyli***
***Azərbaycan Respublikaçılar Partiyası - Sübut Əsədov***
***Azərbaycan Sosial Demokrat Partiyası - Araz Əlizadə***
***Azərbaycan Sosial Rifah Partiyası - Əsli Kazımova***
***Böyük Azərbaycan Partiyası - Elşad Musayev***
***Milli Vəhdət Partiyası - Yunus Oğuz***
***AĞ Partiya - Tural Abbaslı***
***Müasir Müsavat Partiyası - Hafiz Hacıyev***
***Azərbaycan Liberal Demokrat Partiyası - Fuad Əliyev***
***Azərbaycan Yurddaş Partiyası - Mais Səfərli***
***Azadlıq Partiyası - Əhməd Orucov***
***Azərbaycan Naminə Alyans Partiyası - Abutalıb Səmədov***
***Azərbaycan Azad Respublikaçılar Partiyası - Kamil Seyidov***
***Cümhuriyyət Xalq Partiyası - Bədrəddin Quliyev***
***Milli Həmrəylik Partiyası - Əlisahib Hüseynov***
***Yeni Zaman Partiyası - Musa Ağayev***
***Vətəndaş və İnkişaf Partiyası - Əli Əliyev***
***Azərbaycan Xalq Demokratik Partiyası - Rafiq Turabxan***
***Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev və Rauf Qurbanov***
***Milli Konqres Partiyası - İxtiyar Şirinov***
***Müstəqil Xalq Partiyası - Əflan İbrahimov***
***Vahid Azərbaycan Milli Birlik Partiyası - Hacıbaba Əzimov***
***Azərbaycan Milli Demokrat Partiyası - Tufan Kərimov***
***Azərbaycan Təkamül Partiyası - Teyyub Əliyev***
***Birlik Partiyası - Xudadat Xudiyev***
***Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu***
***Azərbaycan Milli Hərəkat Partiyası - Samir Cəfərov***
***Azərbaycan Mübarizləri Partiyası - Ağadur Müslümov***
***Qorqud Partiyası - Firudin Kərimov***
***Milli Demokrat İdrak Partiyası - Osman Əfəndiyev***

# Fransanın "Le Point" jurnalı Azərbaycanın xarici işlər nazirinin müsahibəsini yayıb

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Fransanın "Le Point" jurnalına müsahibə verib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, müsahibədə nazir Ceyhun Bayramov üçtərəfli bəyanat, Rusiya sülhməramlılarının bölgədə yerləşdirilməsi, Fransanın mövqeyi, bölgədəki xristian abidələrinin taleyi, müharibədə Türkiyənin rolu, Dağlıq Qarabağda birgəyaşayışa zəmanət və digər sualları cavablandırıb. AZƏRTAC müsahibəni təqdim edir:

**- Atəşkəsdən sonra Ermənistan tərəfi ilə sülh müqaviləsini bağlayacaqsınız?**

- BMT Təhlükəsizlik Şurasının qərarlarına əsaslanan 10 noyabr tarixli üçtərəfli bəyanatın icrası üçün vaxt lazım olacaq. Bəyanatda yalnız atəşkəs deyil, sülhə aparan bir sıra mühüm addımların da təmin edilməsi nəzərdə tutulur. Bəyanatın əsas elementi Ermənistan silahlı qüvvələrinin işğal etdikləri üç rayonu dekabrın 1-dək təhvil verməsidir. Bu tələbin icrası Ermənistanın sülh prosesinə sadiqliyinin dəyərləndirilməsinə imkan yaradacaq. Onilliklər boyu davam edən müharibə vəziyyəti nəticəsində yaranmış yaraların sağalması asan olmayacaq və vaxt aparacaq. Əsas odur ki, bütün hərbi əməliyyatlar dayandırılsın və bölgədə sülhün bərqərar olması üçün tədbirlər görülsün. Biz bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Yalnız Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycan ərazilərinin işğalına son qoymaqla və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə qayıtmasını təmin etməklə bölgədə davamlı sülh və təhlükəsizlik bərqərar ola bilər.

**Atəşkəsin ən yaxşı təminatçısı rus hərbçiləridir?**

- Sentyabrın 27-də Azərbaycanın əks-hücum əməliyyatlarına başlamasından etibarən Ermənistanla Azərbaycan arasında üç dəfə atəşkəs razılaşdırıldı və hər dəfə bu atəşkəs Ermənistan tərəfindən pozuldu. Buna görə də atəşkəsə əməl edilməsi üçün hərbi qüvvələrə ehtiyac olduğu aydınlaşdı. Rusiyanın sülhməramlı kontingenti suveren Azərbaycan ərazisinə Azərbaycanın dəvəti və üçtərəfli bəyanatın müddəalarına əsasən gətirildi. Rusiya Minsk qrupunun Cənubi Qafqazla sərhədi olan yeganə həmsədr ölkəsidir, bu səbəbdən bölgədə sülh və sabitlikdə birbaşa maraqlıdır. Həm Ermənistan, həm də Azərbaycan ilə münasibətləri baxımından, şübhəsiz ki, bu ölkə həmçinin Rusiya Prezidenti tərəfindən imzalanan razılaşmanın həyata keçirilməsində həlledici rol oynaya bilər.

**- Qərb ölkəsi olan iki həmsədr - Fransa və ABŞ atəşkəs razılaşması ilə əlaqəli olmadığı halda Minsk qrupu faydasız oldu?**

- Minsk qrupunun artıq faydalı olmadığını deməzdim. Fikrimizcə, effektiv olmayan məsələ tarazlı kimi nəzərdə tutulan bir yanaşma adı altında Ermənistana və Azərbaycana eyni mesajlar verməkdir. Təcavüzkar ilə təcavüzün qurbanı arasında, işğalçı dövlət ilə əraziləri işğal edilmiş ölkə arasında, qaçqın və onu öz evindən qovan işğalçı arasında tarazlıq saxlamaq mümkün olmayan bir məsələdir. Beynəlxalq vasitəçilərin münaqişəyə diplomatik həll yolu tapmaq səylərinə hörmətlə yanaşırıq. Ancaq təcrübə onu göstərir ki, Azərbaycan işğal olunmuş ərazilərindən silahlı qüvvələrini çıxarmaq üçün Ermənistana təzyiq olmadığı təqdirdə, bu ölkə beynəlxalq ictimaiyyətin tələblərini yerinə yetirməyə hazır olmayacaqdır.

**- Sizin fikrinizcə, münaqişə zamanı Fransa bitərəf qaldı?**

- Vasitəçi olmaq üçün fundamental şərt neytrallıqdır. Təəssüf ki, Fransanın rəsmi qurumlarının son açıqlamaları birtərəfli və qərəzli idi. Fransada erməni diasporunun mövcudluğunun nəzərə alınacaq vacib bir amil olduğunu anlaya bilərik, amma bir dövlətin rəsmi mövqeyinin müəyyən edilməsi məsələsinə gəldikdə, bu mövqe beynəlxalq hüququn norma və prinsipləri, habelə dövlət məsuliyyətindən irəli gələn prinsiplərə əsaslanmalıdır. Xüsusən də sözügedən dövlət vasitəçi mandatına sahibdirsə.

**- Fransa sülh müqaviləsini təşviq etmək üçün nə edə bilər?**

- Fransanın beynəlxalq hüquqa ciddi riayət etməsindən başqa bir şey gözləmirik. Bunun üçün 1993-cü ildə Fransanın səs verdiyi BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrası, beynəlxalq səviyyədə tanınmış dövlət sərhədlərinin toxunulmazlığının təminatı və məcburi köçkünlərin fundamental hüquqlarının bərpası tələb olunur.

**- Bu müharibədə Türkiyənin Azərbaycana pilotsuz təyyarələr və suriyalı muzdlular daxil olmaqla, köməyi böyük rol oynadı. Münaqişənin beynəlmiləlləşdirilməsi davamlı həllin axtarışını çətinləşdirmir?**

Azərbaycan Ordusunu gücləndirən amillər Silahlı Qüvvələrimizin mobilliyi, dron texnologiyası və tətbiq etdiyimiz müasir yanaşmadır. Ölkəmiz Türkiyə daxil olmaqla bir sıra ölkələrlə müdafiə sahəsində uğurlu əməkdaşlıq edir. Türkiyə həmişə haqlı mövqeyimizi dəstəkləyib. Azərbaycan münaqişənin beynəlmiləlləşdirilməsi və Ermənistanın üçüncü ölkələri cəlb etmək cəhdlərinə qarşı çıxış edib. Suriyalı muzdlular barədə hekayəyə gəldikdə isə, biz bir neçə dəfə təkrarladıq və Prezident İlham Əliyev bunun müəyyən ölkələr tərəfindən yayılan açıq-aşkar dezinformasiya olduğunu təsdiqlədi. Bu şayiələri yayanlar tərəfindən heç bir dəlil verilməyib. Silahlı qüvvələrin komplektləşdirilməsini çətinləşdirən ciddi demoqrafik böhranla illərboyu üzləşən Ermənistandan fərqli olaraq, Azərbaycan yaxşı təchiz olunmuş, peşəkar və güclü orduya sahibdir. Ərazimizin bütövlüyünü qorumaq üçün kənar silahlı qüvvələrə və nizamsız qruplaşmalara ehtiyacımız yoxdur.

**- Hazırda sizin nəzarətinizdə olan xristian abidələri, xüsusən də Dədəvəng monastırı ilə bağlı vəziyyət necə olacaq?**

- Azad edilmiş ərazilərdəki bütün dini-tarixi abidələr dövlət tərəfindən qorunacaq. Azərbaycan müxtəlif mədəniyyətlərə və dinlərə hörmət və tolerantlıq ənənəsinə sahib olan çoxmillətli ölkədir. Ölkəmizdəki böyük xristian icması cəmiyyətimizin ayrılmaz hissəsidir. Həmin icma ölkə həyatında fəal rol oynayır. Onun kilsələri, ibadət yerləri və abidələri Azərbaycan dövləti tərəfindən tam şəkildə qorunur. Təsadüfi deyil ki, Papa Fransisk 2016-cı ildə Bakıya səfəri zamanı ölkəmizi dini tolerantlıq nümunəsi kimi göstərdi. Azərbaycan xristian irsini yalnız öz sərhədləri çərçivəsində deyil, həm də xaricdə qoruyur. Məsələn, Heydər Əliyev Fondu Fransanın Orn departamentində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım edib.

**- Son bir neçə həftə ərzində aparılmış müharibədə xristianlarla müsəlmanlar arasında dini qarşıdurma epizodu olubmu?**

- Ermənistan ilə Azərbaycan arasındakı münaqişə dini münaqişə deyil və heç vaxt belə olmayıb. Bu, ərazilərimizə qarşı erməni iddiaları ilə başlayan dövlətlərarası münaqişədir. Bunu dini münaqişə kimi qələmə vermək cəhdləri uğursuzluğa məhkumdur, çünki Azərbaycan müxtəlif dinlərin davamçılarının əsrlərboyu sülh şəraitində yaşadığı ölkədir.

**- Nə üçün Azərbaycanın Silahlı Qüvvələri Şuşadakı kimi, kilsələr də daxil olmaqla, mülki binaları və məktəbləri bombaladı?**

Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatları beynəlxalq humanitar hüquqa uyğun olaraq həyata keçirilib. Əhali, məktəb və ya xəstəxana kimi mülki infrastruktur hədəfə alınmadı. Azərbaycan Ordusunun əməliyyatları legitim hərbi hədəflərə cavab verməklə məhdudlaşdı. Problem ondadır ki, erməni tərəfi mülki binalardan qalxan kimi istifadə edirdi. Xankəndidəki uşaq bağçasında məsləhətləşən erməni zabitlərinin fotosu sosial şəbəkələrdə çox müzakirə olundu. Bəhs etdiyiniz kilsə ilə bağlı demək istərdim ki, Azərbaycan Prezidenti bunun səhv və ya qəsdən həyata keçirilmiş erməni təxribatı olduğunu söylədi. Faktla bağlı araşdırma aparılır. Lakin vurğulamaq istərdim ki, məqsədimiz kilsələri dağıtmaq olsaydı, Bakının mərkəzində minlərlə erməni kitabının saxlanıldığı erməni kilsəsini bərpa etməzdik.

**- Azərbaycan gələcəkdə tarixən ermənilərin məskunlaşdığı bir bölgə olan Dağlıq Qarabağ üzərində Ermənistan suverenliyini tanımağa hazırdırmı?**

- Dağlıq Qarabağ Azərbaycanın tarixi bir hissəsidir. Ermənilər 1813-cü ildə Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələrindən sonra bu ərazilərdə yerləşdirilib. Sovet dövründə ermənilərin orada çoxluq təşkil etdiyi faktdır. Amma xatırlayaq ki, orada yaşayan azərbaycanlılar və bölgəni əhatə edən 7 Azərbaycan rayonunda yaşayanlar 1990-cı illərin əvvəllərində işğal zamanı Ermənistanın həyata keçirdiyi etnik təmizləmənin qurbanı olublar. On illərdir ki, bu insanların hüquqları kobud şəkildə pozulub. Ermənistanın suverenliyi Azərbaycan torpağında deyil, Ermənistan Respublikasının ərazisində həyata keçirilə bilər. Dağlıq Qarabağın statusu məsələsi 10 noyabr tarixli üçtərəfli bəyanatda qeyd olunmayıb. Azərbaycan dəfələrlə bəyan edib ki, Dağlıq Qarabağın hər iki icması Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh və təhlükəsizlik şəraitində birgə yaşaya bilər.

**- Azərbaycan hökuməti Dağlıq Qarabağ erməniləri üçün bu cür dinc birgəyaşayışa necə zəmanət verə bilər?**

- Azərbaycan Konstitusiyası etnik mənsubiyyətindən, dinindən və siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşı bərabər hüquqlarla təmin edir və onların azadlıqlarını qoruyur. Azərbaycan beynəlxalq birliyin məsuliyyətli üzvüdür, bir çox beynəlxalq qurumların üzvüdür, əsas hüquqları, azadlıqları, mədəni və dini irsi qoruyan müqavilə və konvensiyalara riayət edir. Dağlıq Qarabağın gələcəyi onun iqtisadi, mədəni və insan resurslarının inkişafı ilə müəyyənləşdiriləcək. Azərbaycan Prezidenti artıq işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması üçün proqramın hazırlanacağını açıqladı. Azərbaycan sülh, təhlükəsizlik və qarşılıqlı hörmət şəraitində Dağlıq Qarabağdakı azərbaycanlı və erməni icmalarının birgəyaşayışını təmin etməyə hazırdır.

**- Atəşkəs elan edildikdən sonra Prezident İlham Əliyev niyə ermənilərin "itlər kimi" qovulması ilə bağlı şərhlər verdi?**

- Bu açıqlama erməni xalqına qarşı yönəlməyib. Prezident İlham Əliyev Ermənistanın siyasi-hərbi rəhbərliyindən, ərazilərimizi qanunsuz olaraq işğal edib mülki şəxslərə qarşı hərbi cinayətlər törədənlərdən, Gəncə, Bərdə və Azərbaycanın digər yaşayış yerlərindəki günahsız mülki şəxslərə qarşı hücum əmri verənlərdən danışdığını açıq şəkildə bildirdi. Şübhəsiz ki, müharibə cinayətləri törətmiş şəxslər əməllərinə görə cavab verməlidirlər.

# Azərbaycan Ordusu düşməni BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin icrasına məcbur etdi

*Müharibədə məğlubiyyətə uğrayan Ermənistan uzun illər ödəməli olacağı borca düşməklə yanaşı, işğalçılıq siyasətinin dayandırılması ilə əlaqədar üzərinə götürdüyü kapitulyasiyanın tələblərinin ödənilməsi barədə razılığa gəldi. Kapitulyasiyanın şərtlərinə uyğun olaraq, əvvəlcə, Ağdam şəhərini və rayonun işğal altında qalan kəndlərini qeyd-şərtsiz azad etdi. Növbəti mərhələdə ölkəmizin əzəli və əbədi torpağı olan Kəlbəcər rayonu rəşadətli Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Kəlbəcər rayonunun işğaldan azad edilməsi ilə Azərbaycan xalqının 27 illik həsrətinə son qoyuldu. Bir məqamı vurğulamaq lazımdır ki, Ağdam şəhəri və rayonun işğal altında olan kəndləri, habelə Kəlbəcər rayonunu düşmən döyüşsüz təhvil vermək məcburiyyətində qaldı.*



Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev deyib.

Adil Əliyev bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev dediyi kimi, biz bu əraziləri bir mərmi belə atmadan geri qaytardıq. Təbii ki, bu gün Ermənistanın Ağdam və Kəlbəcər rayonlarını geri qaytarması düşmənin öz istəyi ilə baş vermədi. Belə ki, Ermənistanın işğalçılıq siyasətini tanıyan Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi mövcuddur. Ermənistan həmin qətnamələrin tələblərinə dərhal əməl etməli və işğala birdəfəlik son qoymalı, işğal altındakı ərazilərimizi qeyd-şərtsiz boşaltmalı idi. Lakin Ermənistan bütün tələblərə zidd olaraq heç bir öhdəliyini yerinə yetirmədi. Əksinə, Ermənistanın baş naziri özünü "fövqəlgüc" hesab edərək, Azərbaycana qarşı 7 şərt irəli sürməkdən çəkinmədi. Ermənistan tərəfinin həyata keçirdiyi təxribatlar, hücumlar təcavüzkara əsl dərs verilməsinin zamanının gəldiyini aşkar şəkildə dünyaya göstərdi.

Təxribatların qarşısını almaq, eyni zamanda Ermənistanın işğalçılıq siyasətinə birdəfəlik son qoymaq məqsədilə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən başladığı əməliyyatlar zamanı işğalçıya sarsıdıcı zərbələr vurdu və düşməni tam məğlubiyyətə uğratdı.

Təbii ki, güclü ordumuzun döyüş meydanında qazandığı zəfər diplomatik səviyyədə mövqeyimizi daha da gücləndirdi. Ermənistanın xarici dövlətlərdən imdad diləməsi heç bir nəticə vermədi. Siyasi təzyiqlərə tabe olmayan qətiyyətli və müdrik Prezident İlham Əliyevin uğurlu diplomatik mövqeyi sayəsində bütün çətinliklər dəf edildi, siyasi üstünlüyümüz daha da möhkəmləndi. Düşmənin imzaladığı kapitulyasiya aktı Ağdam, Kəlbəcər və Laçın rayonlarının döyüşsüz təhvil almağımızı şərtləndirdi.

"Bu gün yalnız əbədi və əzəli torpaqlarımızın geri qaytarılmasından söhbət getmir. Xüsusilə vurğulamaq lazımdır ki, Kəlbəcər rayonunun Azərbaycana təhvil verilməsi Birləşmiş Millətlər Təşkilatının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi 822 nömrəli qətnaməsinin icrası idi. Belə ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü il aprelin 30-da qəbul etdiyi 822 nömrəli qətnaməyə əsasən, işğal olunmuş digər rayonlarımız kimi, Kəlbəcər də qeyd-şərtsiz azad edilməli idi. Lakin Ermənistan Dağlıq Qarabağla bağlı qəbul olunmuş digər 3 qətnamə kimi, həmin sənədin tələblərini də yerinə yetirməkdən imtina etdi. Beləliklə, bizim dədə-baba torpaqlarımızda erməniləşdirmə siyasəti və qanunsuz məskunlaşdırma prosesi davam etdirildi", - deyə Milli Məclis sədrinin müavini bildirib.

Adil Əliyev diqqətə çatdırıb ki, qətnamələrin icrasına məsul beynəlxalq qurumlar isə sanki bunu görməzdən gəlirdi. Nəticədə Azərbaycan Prezidenti BMT Baş Assambleyasının 75-ci sessiyasının iclasında bildirdi ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməkdən imtina edir və bununla yanaşı, beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq ərazimizə ayrı-ayrı ölkələrin vətəndaşlarını, o cümlədən muzdlu döyüşçüləri yerləşdirir. Lakin təəssüf ki, bu gün Ermənistana yardım göstərən və BMT Təhlükəsizlik Şurasının üzvü olan Fransa başda olmaqla, digər ölkələr də bu təcavüzün qarşısının alınması, işğalçılıq siyasətinə son qoyulması üçün heç bir səy göstərmədi.

"Göründüyü kimi, BMT özünün qəbul etdiyi qətnamələrin icrasına nail ola bilmədi. Bunu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu ən yüksək, mükəmməl səviyyədə bacardı. Kəlbəcər rayonu uğrunda döyüş əməliyyatları aparılmadan Ermənistan ordusu həmin ərazini birdəfəlik tərk etdi. Deməli, vaxtında kifayət qədər təzyiqlər olsaydı, Ermənistan bu ərazini illər əvvəl tərk edərdi", - söyləyən A.Əliyev vurğulayıb ki, bu gün məğlub olmuş düşmən, nəhayət, anladı ki, Azərbaycan Respublikasının Prezidenti həm də dünyanın ən öndə gedən liderlərindən biridir. Dövlət başçısı istər döyüş meydanında, istərsə də diplomatik müstəvidə Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsini qarşısına əsas hədəf olaraq qoymuşdu və hazırda bunu çox böyük müdriklik və qətiyyətlə reallaşdırır.

Eşq olsun Müzəffər Ali Baş Komandana! Yaşasın Azərbaycan Ordusu!

# Qafqaz Müsəlmanları İdarəsinin sədri KAICIID-in Direktorlar Şurasının onlayn iclasında iştirak edib

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə noyabrın 25-də Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Direktorlar Şurasının (KAICIID) 24-cü sessiyasının videokonfrans formatında keçirilən iclasında iştirak edib.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dünyanın ən nüfuzlu beynəlxalq hökumətlərarası təşkilatlarından olan KAICIID-in 9 nəfərlik Direktorlar Şurasında yer alan yeganə müsəlman dini lider Şeyxülislam Allahşükür Paşazadə videoiclasda çıxış edib, Azərbaycan, Qafqaz müsəlmanlarının səmimi salamlarını iştirakçıların diqqətinə çatdırıb.

KAICIID Təşkilatının Baş katibi Feysal bin Müəmmar videokonfransın gedişində pandemiyaya baxmayaraq, əvvəlcədən nəzərdə tutulan proqram üzrə layihə və təşəbbüslərin həyata keçirilməsi istiqamətində səylərin davam etdirildiyini vurğulayıb, BMT-nin Sivilizasiyalar Alyansı ilə imzaladıqları memorandum haqqında, habelə mərkəz adından iştirak etdiyi virtual tədbirlər barədə məlumat verib.

Tədbir zamanı bir sıra önəmli məsələlər, o cümlədən mərkəzin idarəetmə sistemi, KAICIID-in inkişaf strategiyası ilə bağlı müzakirələr aparılıb. Toplantının proqramına dinlərarası dialoqa dair beynəlxalq dövlətlərarası koordinasiya məsələləri, həmçinin təşkilatın inkişaf perspektivləri, genişlənmə prosesi çərçivəsində yeni üzv dövlətlərin qəbulu, təşkilat məsələləri - yeni sədr müavininin seçilməsi kimi əhəmiyyətli məsələlər daxil idi.

Sonra sentyabrın 14-də keçirilmiş 23-cü sessiyanın qərarlarının yerinə yetirilməsi üzrə hesabat dinlənilib, Məşvərət Şurası və kommunikasiyalar üzrə yeniliklər barədə məlumat verilib. Məruzələrdə son dövrlərdə Vyanada, Nitsada baş verən terror hadisələrinin dinlə heç bir əlaqəsinin olmadığı, Qərb və İslam dünyaları arasında qarşıdurma yaratmaq istəyənlərin təxribatçı fikirlərinin qarşısının alınması üçün Beynəlxalq Mərkəz daxil olmaqla, bütün dinlərin nümayəndələrinin birgə hərəkət etmələrinin vacibliyi vurğulanıb.

Şeyxülislam A.Paşazadə ilə yanaşı, Direktorlar Şurasında təmsil olunan Konstantinopol Ekumenik Patriarxatının Ekzarxı Mitropolit Emmanuel, Livan Milli Xristian-Müsəlman Dialoq Komitəsinin Baş katibi Məhəmməd Sammak, Yaponiya Rizxo Kosey-Kay Buddist Təşkilatının prezidenti Koşo Nivano, Beynəlxalq Mərkəzin Baş katibinin müavini Alvaro Albasete, İmam Məhəmməd bin Saud Universitetinin təmsilçisi Hamad əl-Məcid, Amerika Yəhudi Komitəsinin Dinlərarası məsələlər üzrə beynəlxalq direktoru Baş ravvin David Rosen, Shanti Ashram təşkilatının direktoru Kezevino Aram və başqaları videokonfransda iştirak ediblər.

Sessiya iştirakçıları tərəfindən Azərbaycan dövlətinin dünyada dinlərarası dialoq və əməkdaşlığa verdiyi töhfələr məmnunluqla vurğulanıb.

Onlayn sessiya məhsuldar keçib.

# Milli Məclisin deputatları QDİƏT PM-in 56-cı plenar iclasında iştirak ediblər

Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatı Parlament Məclisinin videokonfrans formatında 56-cı plenar iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Milli Məclisin deputatı, QDİƏT PM-də Azərbaycan nümayəndə heyətinin rəhbəri və bu qurumun sədr müavini Eldar Quliyev, nümayəndə heyətinin üzvləri - deputatlar Musa Quliyev, Ramin Məmmədov və Elşad Mirbəşiroğlu iştirak ediblər.

İclası açan QDİƏT Parlament Məclisinin sədri, Yunanıstan parlamentinin spikeri Konstantin Tassulas görüləcək işlərdən danışıb, təşkilatın fəaliyyətinə uğurlar arzulayıb.

Əvvəlcə iclasın gündəliyi və Parlament Məclisinin 55-ci plenar iclasının protokolu təsdiqlənib, qurumun fəaliyyətinə dair hesabat dinlənilib, bir sıra təşkilati məsələlərə baxılıb.

Sonra İqtisadi, ticarət, texnologiya və ekologiya məsələləri, Hüquqi və siyasi məsələlər və Mədəniyyət, təhsil və sosial məsələlər komitələrinin iclasları keçirilib. Hər üç komitədə "Pandemiya ilə mübarizədə parlamentlərin rolu" mövzusunda müzakirələr aparılıb.

QDİƏT PM-də Azərbaycan nümayəndə heyətinin rəhbəri və bu qurumun sədr müavini Eldar Quliyevin sədrliyi ilə keçirilən Hüquqi və siyasi məsələlər komitəsinin iclasında pandemiya ilə mübarizədə parlamentlərin rolunun hüquqi və siyasi aspektləri müzakirə olunub. Məruzə layihəsi səsə qoyularaq qəbul edilib.

Mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin iclasında isə məruzə ilə çıxış edən QDİƏT PA-da Azərbaycan nümayəndə heyətinin üzvü Musa Quliyev pandemiya ilə mübarizədə parlamentlərin rolunun sosial aspektləri barədə danışıb. Bildirib ki, COVID-19-la bağlı Qara Dəniz İqtisadi Əməkdaşlığı regionu ölkələrinin göstəriciləri dünyadakı vəziyyətin fonunda ümid verir ki, hazırda region ölkələri tərəfindən pandemiyaya operativ reaksiya verilməsi nəticəsində pis vəziyyətlə üzləşməkdən qaçmaq mümkün olub. Amma ehtiyatı əldən vermək olmaz və daim sanitar-epidemioloji davranış mədəniyyətini yüksəltmək lazımdır.

Musa Quliyev diqqətə çatdırıb ki, COVID-19-un səhiyyə və sosial müdafiə sahəsində yaratdığı böhranın və onun nəticələrinin öhdəsindən gəlmək və bərpa prosesi üçün pandemiya başa çatdıqdan sonra region ölkələri üçün yeni səhifə açıla bilər. Pandemiya bir daha göstərdi ki, müasir dünyada qlobal fəlakət qarşısında heç kəs tək davam gətirə bilməz. Dünya ictimaiyyətinin pandemiyaya qarşı mübarizədə öz səylərini birləşdirməsi və onun nəticələrini aradan qaldırması üçün kifayət qədər resursu var. Yalnız dünya ictimaiyyətinin vahid gücü ilə gələcəkdə qarşıya çıxacaq təhlükələrə qalib gəlmək mümkündür.

Sonra məruzə layihəsi ətrafında müzakirələr aparılıb, qeyd və təkliflər səsləndirilib. Layihə səsə qoyularaq təsdiqlənib.

İclasda bir sıra maliyyə məsələlərinə də baxılıb, rotasiya qaydasında təşkilata sədrlik Moldovaya təhvil verilib.

Bununla da QDİƏT PM-in 56-cı plenar sessiyası başa çatıb.

# Türk Ticarət və Sənaye Palatasının 2-ci Baş Assambleyasının iclası keçirildi

Noyabrın 24-də Türk Ticarət və Sənaye Palatasının (TCCI) 2-ci Baş Assambleyasının onlayn formatda görüşü keçirilib. Görüşdə gündəlikdə duran on iki məsələ, o cümlədən Türk Ticarət Evlərinin yaradılması, biznes-forumlar, B2B görüşlərin keçirilməsi, ötən müddətdə qurumun təşkilatlanması və sair məsələlər müzakirə edilib.



Açılış sessiyasında çıxış edən Türkiyə Odalar və Borsalar Birliyinin, Türk Ticarət və Sənaye Palatasının prezidenti M.Rifat Hisarcıklıoğlu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Şanlı Ordumuzun qələbə qazanması münasibətilə Azərbaycan xalqını və bütün türk dünyasını təbrik edib. Palata rəhbərlərinin noyabrın 2-də Bakıda keçirilən görüşü haqqında yüksək fikirlər səsləndirən R.Hısarcıklıoğlu Azərbaycanda alınan qərarların icrasına başlanıldığını vurğulayıb. "Layihələrinizi gözləyirəm, tarixi İpək Yolunun hamımız tən ortasındayıq və bu koridoru fəal şəkildə istifadə etməliyik. Bildirim ki, ilk Türk Ticarət Evinin Azərbaycanda açılmasına qərar verdik", - deyə M.Rifat Hisarcıklıoğlu qeyd edib.

Türk Şurasının Baş katibi cənab Bağdad Amreyev Azərbaycanı böyük qələbə münasibətilə təbrik edərək noyabrın 2-də Bakıda keçirilən görüş əsnasında nümayəndə heyətinin Prezident İlham Əliyev tərəfindən qəbul edilməsini böyük məmnuniyyətlə xatırladıb. O, üzv təşkilatlara təklif edib ki, öz ölkələrinin iqtisadi imkanları, potensialları barədə məlumatları ümumi platformada bölüşsünlər. Baş katib müxtəlif istiqamətlərdə təşkilatın fəaliyyətini aktivləşdirməyi, qadın və gənc sahibkarların dəstəklənməsi ilə bağlı təkliflərlə çıxış edib.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev Bakı görüşü ilə bağlı dəyərli fikirlərə görə iştirakçılara təşəkkürünü bildirib. "Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrünə qədəm qoyduq. İlk Türk Ticarət Evinin Azərbaycanda yaradılması ilə bağlı qərarınızı yüksək qiymətləndiririk", - deyə qeyd edib.

İclasda TCCI üzvləri arasında Əmtəə Birjalarının qurulması, Qadın və Gənc Sahibkarlar Komitələrinin yaradılması üçün Türk Modelləri, "Onlayn təlim: KOBİ-lər və Elektron Ticarət üçün Rəqəmsal Transformasiya" mövzularında təqdimatlar edilib. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan Sahibkarlar Konfederasiyası TOBB-un təcrübəsi əsasında Goranboy rayonunda pilot əmtəə birjasının yaradılması barədə razılıq əldə edib.

Sonra iclasda Macarıstan Ticarət və Sənaye Palatasının prezidenti Laszlo Parragh, Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyev, Özbəkistan Ticarət və Sənaye Palatası sədrinin birinci müavini İslam Jasimov, Qazaxıstan Sahibkarların Milli Palatasının Qazaxıstan Beynəlxalq Ticarət Palatasının rəhbəri Ayan Yerenov və digərləri çıxış ediblər. Laszlo Parragh Azərbaycan ilə Macarıstan arasında iqtisadi əməkdaşlığın genişləndiyini vurğulayaraq, ölkəmizə iqtisadi uğurlar arzulayıb.

Qazaxıstan, Özbəkistan və Qırğızıstanın palata rəhbərləri Azərbaycanı ərazi bütövlüyünü bərpa etməsi münasibətilə təbrik edərək, Bakı görüşündə yüksək səviyyədə qəbul olunduqları üçün möhtərəm Prezident İlham Əliyevə dərin təşəkkürlərini bildiriblər.

Sonda assambleya gələn il Qırğızıstanın təşkilatçılığı ilə 3-cü Türk Biznes Forumunun, Macarıstanın təşkilatçılığı ilə Türk-Macar Biznes Forumu və B2B görüşlərinin keçirilməsi barədə qərarını elan edib.

# Zəfərin mübarək, AZƏRBAYCAN!

## Böyük Qələbəmiz Müzəffər Ali Baş Komandanımızın yenilməz iradəsinin, şanlı Ordumuzun qəhrəmanlığının nəticəsidir

Uzun illər yurd həsrəti ilə yaşayan, doğulub boya-başa çatdığı torpaqları azad görmək istəyən həmvətənlərimizdən biri də Kəlbəcər rayonundan olan, Nazirlər Kabineti Aparatının əməkdaşı, Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə 2-ci dərəcəli dövlət müşaviri rütbəsi almış, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmiş Qurban Sadıqovdur.



Bu günlər bütün Azərbaycan xalqı, bütün kəlbəcərlilər kimi Qurban Sadıqovun da sevincinin hədd-hüdudu yoxdur. Q.Sadıqov torpaqlarımızın mənfur düşməndən azad olunması, ərazi bütövlüyümüzün bərpa edilməsi, İkinci Qarabağ müharibəsində şanlı Qələbəmizin sevincini və Azərbaycanın dilbər guşələrindən biri olan Kəlbəcərlə bağlı təəssüratlarını AZƏRTAC-la bölüşərək deyib:

- Doğma Kəlbəcərim işğal altına düşəndə mənim 31 yaşım var idi. Düz 27 il idi ki, doğma Kəlbəcərin həsrəti ilə yaşayırdım. Bu 27 ildə anadan olduğum Nadirxanlı, müəllim işlədiyim Sarıdaş kəndi, Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsində, Rayon İcra Hakimiyyətində məsul vəzifələrdə çalışdığım Kəlbəcər şəhəri ilə bağlı xatirələrimi ürəyimdə gəzdirmişəm. Tale elə gətirib ki, 1993-2018-ci illər ərzində Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının qaçqınların və məcburi köçkünlərin problemləri üzrə şöbədə müxtəlif vəzifələrdə, o cümlədən şöbə müdiri vəzifəsində çalışmışam. Bunları deməkdə məqsədim odur ki, Ermənistanın hərbi təcavüzü nəticəsində öz doğma yurd-yuvasından didərgin düşmüş insanların taleyi mənə çox yaxın və doğma olub. Özümü çox xoşbəxt hiss edirəm ki, məhz bu sahədə Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin, Nazirlər Kabinetinin bütün göstəriş və tapşırıqları əsasında üzərimə düşən işin öhdəsindən layiqincə gəlməyə çalışmışam. Bir komanda olaraq çalışmışıq ki, yurd-yuvasından didərgin salınmış soydaşlarımızın mənzil-məişət, sosial problemləri yüksək səviyyədə həll edilsin. Həmçinin onların problemlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması sahəsində də əməli fəaliyyət göstərmişik. Yurd həsrətini, nisgilini həmin insanlarla bir yerdə yaşamış, bir yerdə kədərlənmiş, bir yerdə sevinmişik.

Artıq nisgilimiz, həsrətimiz, ağrı-acılarımız arxada qalıb. Biz sentyabrın 27-dən başlayaraq demək olar ki, hər gün qələbə sevinci yaşamışıq. Müzəffər Ali Baş Komandanımızın qələbə müjdələri hər bir azərbaycanlıya, hər bir məcburi köçkünə yerə-göyə sığmayan sevinc, dədə-baba torpaqlarına böyük qayıdışın çox yaxında olduğu günlərin unudulmaz duyğularını yaşadıb. Rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 gün ərzində tariximizə Böyük Qələbə zəfərini yazıb. Bu şanlı Zəfərin, bu Böyük Qələbənin təməli məhz Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyəti illərində qoyulub. Xalqın təkidi ilə 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev iqtisadi və siyasi cəhətdən çətin günlər yaşayan Azərbaycanı inkişaf yoluna çıxardı. Dahi siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanı iqtisadi cəhətdən möhkəmləndirən "Əsrin müqaviləsi" imzalandı. Ulu Öndər bilirdi ki, müharibə aparan ölkə hərtərəfli güclü olmalıdır, həm iqtisadi, həm siyasi, həm də hərbi və diplomatiyada. Bu yerdə Lissabon sammitini xatırlamamaq mümkün deyil. Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasının baza formulu məhz 1996-cı ilin dekabrında keçirilən bu sammitdə müəyyən edildi. Ulu Öndər çevik və dəqiq diplomatik addımları ilə Azərbaycanın dünya birliyi tərəfindən müdafiə edilməsinə nail oldu. Bu sammitdə 53 dövlətin səsini qazanmaq o dövr üçün çox böyük uğur idi. Bu uğuru dövlətimizin başçısı son 17 ildə öz müdrik daxili və xarici siyasəti ilə daha da möhkəmləndirdi, dünyaya Azərbaycanın inkişaf modelini təqdim etdi, məcburi köçkünlərimizin doğma torpaqlarına qayıdacaqlarına olan inamını daha da artırdı. Bu böyük qayıdışa Ulu Öndərimiz də şəksiz inanırdı. Yaxşı yadımdadır, Ulu Öndər 2002-ci il sentyabrın 13-də Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində qaçqın və məcburi köçkünlərlə görüşdə demişdi: "Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram və bu inamla da sizin qarşınızda nitq söyləyirəm".

Ulu Öndərin bu inamını Müzəffər Ali Baş Komandanımız, qəhrəman Prezidentimiz artıq reallığa çevirdi. Düşməni döyüş meydanında diz çökdürən, onu ağ bayraq qaldırmağa məcbur edən Ali Baş Komandanımız Qarabağın tacı olan Şuşanın işğaldan azad olunduğu gün - noyabrın 8-də Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət etdi. Həmin ziyarət zamanı çıxışında dövlət başçısı Ulu Öndərin vəsiyyətini yerinə yetirdiyini bəyan etdi. Dedi ki, beynəlxalq təşkilatların kağız üzərində qalan qərar və qətnamələrini Azərbaycan döyüş meydanında icra etdi. Bu vəzifənin öhdəsindən şərəflə gələn Azərbaycan hüquqlarını bərpa etdi və ərazi bütövlüyünü təmin etdi. Bütün dünya Ali Baş Komandanımızın güclü siyasi iradəsini və rəşadətli Azərbaycan Ordusunun gücünü gördü.

Şəhərləri, qəsəbələri, kəndləri işğaldan azad olunan bütün soydaşlarımız kimi mən də doğma Kəlbəcərimin azadlığa qovuşması gününü səbirsizliklə gözləyirdim. Dövlət başçısının da qeyd etdiyi kimi, işğaldan azad edilmiş bütün torpaqlarımızda həyat yenidən öz axarına düşəcək və erməni vandalları tərəfindən viran qoyulan ərazilərimizdə bütün yaşayış məntəqələri və infrastruktur yenidən qurulacaq, inkişaf edəcək. Ən böyük arzum işğaldan azad olunmuş torpaqlarımızı həmin inkişafdan sonra qarış-qarış, kəndbəkənd gəzməkdir. İnşallah, bu, mənə də, bütün soydaşlarıma da nəsib olacaq.

Həqiqətən, 27 ilin həsrətindən sonra insanların üzündə sevinci görmək, xoşbəxtliyi hiss etmək çox gözəldir. Yaşasın, var olsun Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan! Yaşasın Azərbaycan xalqı, Azərbaycan dövləti və rəşadətli Azərbaycan Ordusu! Biz çox xoşbəxt xalqıq və daha da xoşbəxt və firavan yaşamağa layiqik. Biz bu xoşbəxt həyatı yaşayacağıq.

Mən bu qeydlərimi möhtərəm Prezidentimizin artıq dillər əzbərinə çevrilən bir kəlamı ilə bitirirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## Qələbə ilə açılan səhərlərdən biri...

### 27 ildən sonra kəlbəcərlilər qalibiyyətlə öz doğma yurdlarına qayıdırlar

Süsənli-sünbüllü, lalalı dağlar 27 il idi ki, kəlbəcərlilərin gözlərində dumana-çənə bürünürdü. Çünki bu illərdə Kəlbəcərə yaz gəlmədi. Sazın-sözün beşiyi olan bu yurdda yağı dilində danışırdılar. Çal-çağırlı günlərini də itirmişdi...



Bəli, hər şeyin vaxta, zamana ehtiyacı var, deyirlər. Sentyabrın 27-dən başlayan Vətən müharibəsinin də vaxta, zamana ehtiyacı olduğunu çoxlarımız bilirdik. Müzəffər Ordumuz Ali Baş Komandanımızın bircə əmrinə bənd idi. Nəhayət, vaxt gəldi, əmr verildi, 44 gün ərzində 30 illik həsrətə Qələbəmizlə son qoyuldu! Mədəniyyətimizin, mənəviyyatımızın tacı olan Şuşada dalğalandı üçrəngli bayrağımız. Bu gün-sabah Şuşaya çəkilən yeni yolla şuşalılarımız doğma yurdlarına qovuşacaqlar, Murovdağdan ağlaya-ağlaya aşan kəlbəcərlilər, laçınlılar da dönəcəklər cənnətməkanlarına...

Düşmən tapdağında qalan bütün torpaqlarımız dekabrın 1-dək Ermənistan silahlılarından azad ediləcək. Kəlbəcəri noyabrın 15-dən boşaltmağa başlayan erməni vandalları onlara doğma olmayan ev-eşiyimizi, ormanlarımızı belə odlara qalamaqdan çəkinmədilər. Bu barbarlığa dünya xalqları nifrətlə baxdı ekranlardan.

Biz Kəlbəcərimizə qayıdırıq! Gözlərin aydın olsun, məzarı Ağdabanda 28 ildir ki, qalan, ziyarətinə gedə bilmədiyimiz Dədə Şəmşir! Ruhun duydu, ziyarətinə gəlir ellərin, şeirdillilərin...

Kəlbəcərin 1993-cü ildə işğalı Dədə Şəmşirin yurd saldığı Ağdaban kəndinin yağılar, daşnaklar tərəfindən odlara qalanmasından, yer üzündən silinməsindən başlamışdı.

Ağdabanın 8 aprel 1992-ci il tarixli səhəri heç vaxt yaddan çıxmaz. Ağdabanın tarixinə həmin gün qara hərflərlə yazılıb. Əslində, qan qırmızı rənglə - şəhid qanıyla yazılıb o gün.

Ağdabana aprelin 8-də səhər tezdən çatmışdıq. Yağılar kəndi tar-mar edib, dağıtdığından baxmaq olmurdu bu yerlərə. Od vurulmuş evlərdən hələ də burum-burum qara tüstü qalxırdı. Çapar tərəfdən atılan toplar bizdən o yana düşüb "salamat qalmış" bir neçə evi də dağıtdı. Kəndin köməyinə gəlmiş müdafiəçilər düşməni susdurmağa çalışsalar da, bunun heç bir əhəmiyyəti yox idi. Ağdaban qan içində boğulur, "tüstüsü başından çıxırdı"...

Kəlbəcərin Yolaşan adlanan yerində Şəhidlər xiyabanı salınırdı. Bu xiyabana ilk şəhid karvanı yolu başlamışdı. Bu qara karvan ağdabanlıların idi...

1989-cu il iyulun 11-də tütün sahəsində çalışan ağdabanlı qadınlar 7 erməni silahlı quldurunu tutmuşdular. Rayon prokurorluğu istintaqa başlamışdı. Respublika Prokurorluğu isə işin DQMV hərbi komendantının sərəncamına göndərilməsinə göstəriş vermişdi. İyulun 14-də həmin erməni quldurlarını Xankəndiyə, guya, istintaqa aparmaq üçün rus hərbçilərinin müşayiəti ilə Kəlbəcərə 2 hərbi helikopter gəldi. Nədənsə, onlar nəzərdə tutulmuş meydançaya deyil, şəhər stadionuna endilər. Erməni quldurlarını götürüb qalxarkən vertolyotlardan birinin pərləri elektrik dirəyinə toxundu. Helikopter "müvazinətini itirərək" stadionun yanındakı divarın dibinə düşdü. Bu zaman onun "dəmir qanadları" burada futbol oynayan məktəbyaşlı uşaqları biçib-tökdü. O gün Kəlbəcər 8 azyaşlı məktəblinin qanında boğuldu. Kim idi onlar: ermənilərə güllə atanmı?! Bəs nə idi onların günahsız axan qanına bais?!

Aprelin 7-dən 8-nə keçən gecə ermənilər gecə ikən hücum edərək Ağdabanı ikinci Xocalıya çevirdilər. Hücumdan xəbərsiz kənd əhalisi başıaçıq-ayaqyalın qarlı meşələrə, dağlara dağıldılar. Kəndi müdafiə edən kiçik dəstə ermənilər tərəfindən məhv edildiyindən əhali müdafiəsiz qalmışdı. Bu qanlı faciə zamanı 32 nəfər dinc əhali - qoca, qadın, uşaq həlak oldu, iki nəfər evdə diri-diri yandırıldı, 7 nəfər girov götürüldü. Kənd bütünlüklə demək olar ki, odlara qalandı. Səhər tezdən köməyə gələn yerli özünümüdafiə batalyonunun 6 döyüşçüsü həlak oldu. Kəndə yardıma gedən hərbçilər və mülki adamlar yollarda güllə-barana tutuldular.

Ağdaban faciəsi ermənilərin Kəlbəcərə qarşı başladığı böyük müharibənin siqnalı idi. Ağdabanın ermənilərin əlində olması digər kəndlərin işğalını asanlaşdırar, Murov yolunun quldurlar tərəfindən tutulmasına və beləliklə də 52 min nəfərlik əhalinin tamamilə məhvinə gətirib çıxarardı.

Ağdaban iki dəfə erməni quldurları tərəfindən darmadağın edildi. 8 aprel 1992-ci il Ağdabanın faciəsi kimi yaddaşlara yazıldı. Ermənilər Ağdabanı təkcə strateji məkan olduğu üçün deyil, Kəlbəcər ədəbi mühitinin beşiyi kimi də çoxdan hədəfə almışdılar. Məhz ona görə də hələ 1990-cı il iyul ayının 11-də Ağdərənin Otaqqaya ərazisində Tərtər-Kəlbəcər marşrutu ilə gedən (150-yə yaxın maşından ibarət) karvanın qarşısını kəsərək Çimnaz Şəmşir qızını, milis mayoru, Zərdab rayon milis rəisinin müavini Şahlar Şükürovu (Azərbaycanın Milli Qəhrəmanı), Aslan Xıdırovu, ittifaq miqyaslı "İstisu" sanatoriyasında müalicəyə gedən yüzlərlə dinc sakini (əksəriyyəti xəstə və qocalardan ibarət) terror nəticəsində qətlə yetirmişdilər.

Ağdabanın ikinci faciəsi 26 mart 1993-cü ildə yazıldı. Həm Ağdərə, həm də Ermənistanın Basarkeçər rayonu istiqamətindən hücuma məruz qalan, müdafiə olunmayan kənd əhalisi qarlı-çovğunlu günlərdə dədə-baba yurdlarından ayaqyalın-başıaçıq, bütün əmlakını ataraq dəniz səviyyəsindən 3400 metr yüksəklikdə olan Murovdağ aşırımından qaçmağa məcbur edildi. Siyasi oyunların, daxili çəkişmələrin nəticəsində və satqın hərbçilərin xəyanətindən 52 min nəfər kəlbəcərli doğma yurdundan qovuldu.

Ağdabanın 26 mart 1993-cü ildə ikinci dəfə işğalı Kəlbəcərin tamamilə Ermənistan tərəfindən zəbt olunması demək idi. Bundan sonra Kəlbəcər hər tərəfdən mühasirəyə alınaraq 1993-cü il martın 31-dən aprelin 2-dək Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə işğal edildi.

Bu yurdun işğalı nəticəsində 53340 nəfər didərgin düşüb, 55 hərbçi, 511 sakin öldürülüb, 321 nəfər əsir götürülüb və itkin düşüb, minlərlə sakin yaralanıb. Rayonun 3 Milli Qəhrəmanı var. Bu işğaldan sonra BMT Təhlükəsizlik Şurası 822 saylı qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunan rayonlarından dərhal çıxarılması tələb olunub. Lakin Ermənistan həmin qətnamədən irəli gələn öhdəlikləri yerinə yetirməyib. Hazırda Kəlbəcər əhalisi məcburi köçkün kimi Azərbaycanın 60-a yaxın rayonunun 700-dən artıq yaşayış məntəqəsində müvəqqəti məskundur.

Hər gecənin bir işıqlı səhəri var. İşğal altında inləyən yurdlarımızın, eləcə də Kəlbəcərin, Ağdabanın üstünə artıq gün doğub. Səmamız da məqsədimiz, məramımız və amalımız kimi aydındır, işıqlıdır, nurludur. Kəlbəcərə gedən yol Ağdabandan başlayır.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

## Bakı sakinləri Kəlbəcərin işğaldan azad olunmasını avtoyürüşlə qeyd ediblər













Noyabrın 25-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad olunması müjdəsini verdikdən sonra Bakı şəhərində avtomobil yürüşü keçirilib. Heydər Əliyev Mərkəzindən start götürən yürüş iştirakçıları paytaxtın küçə və prospektlərindən keçərək Şəhidlər xiyabanına doğru hərəkət ediblər.

Əllərində Azərbaycan, Türkiyə və Rusiya bayraqları tutan insanlar "Kəlbəcər azaddır!", "Yaşasın Ali Baş Komandan, Yaşasın Azərbaycan Ordusu!", "Qarabağ Azərbaycandır!" şüarları səsləndirib, müzəffər Ali Baş Komandanın portretini başları üzərinə qaldırıblar.

AZƏRTAC xəbər verir ki, daha bir yürüş Yasamal rayonundakı 20 nömrəli məktəb-liseyin qarşısından başlayaraq Şəhidlər xiyabanına, oradan da "Azneft" meydanına istiqamət götürüb. Şəhidlər xiyabanını ziyarət edən paytaxt sakinləri və kəlbəcərlilər Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıblar.

Yürüş iştirakçılarından bir neçəsi sevinc hisslərini AZƏRTAC-la bölüşüb.

Paytaxt sakini Reyman Ağrılı deyib: "Bu gün Azərbaycanımızın qələbəsini qeyd edirik. Azərbaycanın dilbər guşələrindən biri olan Kəlbəcər artıq azaddır. Müzəffər Ali Baş Komandanın böyük sərkərdəlik məharəti, güclü iradəsi, qətiyyəti və rəşadətli Ordumuzun şücaəti, xalqın öz lideri ətrafında yumruq kimi birləşməsi Qələbəmizi təmin etdi. Ordumuz qısa müddətdə mənfur düşməni diz çökdürdü. Dünya Azərbaycan Ordusunun gücünü bir daha gördü".

Digər müsahibimiz Kənan Əsgərov qüdrətli Azərbaycan dövləti və ordusu ilə fəxr etdiyini bildirib. O, işğal altındakı ərazilərimizin azad edilməsinin tarixi hadisə olduğunu vurğulayaraq deyib: "Prezidentimiz və Ordumuz müasir Azərbaycan tarixinin ən şanlı səhifələrindən birini yazdılar. Əsgər və zabitlərimiz yeni qəhrəmanlıq dastanına imza atdılar. Bu gün hər kəs dövlətimiz və ordumuzla qürur duyur. Yaşasın Azərbaycan!"

Yürüş iştirakçılarından Elvin Buruzov və Şikar Əzimov deyiblər ki, Kəlbəcərin işğaldan azad olunmasını görmək böyük xoşbəxtlikdir.

"Bu gün çox sevincliyik. Hər dəfə torpaqlarımız işğaldan azad olunanda hədsiz sevinc və qürur duyuram. Xalqımıza qələbə yaraşır. Qoy bu sevincli günlərimiz daha da çox olsun", - deyə avtoyürüşdə iştirak edən Ramilə Vəliyeva bildirib.

Digər həmsöhbətlərimiz də Kəlbəcərin azad olunmasını daha bir şanlı zəfər kimi qiymətləndirib, Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, nəhayət, Azərbaycanın dilbər guşələrindən biri olan Kəlbəcərdə üçrəngli bayrağımızın dalğalanmasından keçirdikləri qürur hisslərini dilə gətiriblər.

# Ağdamın xilaskarı

## İLHAM ƏLİYEVin qalib kimi gəldiyi Ağdamda ucaltdığı bayrağın kölgəsi indi Xankəndiyə və Xocalıya da düşür



*Əvvəli 1-ci səh.*

İlham Əliyev axı hansı dediyini yerinə yetirməyib ki?!

Və budur: 2020-ci ilin 23 noyabrı...

Prezident yenə də Mehriban xanım Əliyevanın müşayiəti ilə Ağdamdadır və düşmənə meydan oxuyur: "Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş qorxaq damğası ilə yaşayacaqsınız".

### İlham Əliyev Ağdamı yenidən düşmənə gözdağı edəcək

Tarixboyu Qarabağda ermənilərin gözünün odunu alan, onların ən çox qorxduğu Ağdamda 27 il sonra İlham Əliyevin bu KİŞİLİK dərsini, QƏLƏBƏ mesajını verməsinin həm də psixoloji təsiri var.

Prezident ermənilərə, Ermənistana Ağdamı və Ağdamın timsalında külli-Qarabağı yenidən onlara gözdağı kimi yaradıb-quracağının xəbərdarlığını edirdi!

Ali Baş Komandanın Ağdam məscidinin qarşısından verdiyi bəyanat xalqa zəfərin hesabatı, həm də 44 günlük savaşın ən həssas məqamlarının açıqlaması idi. Prezident Azərbaycanın məhz XXI əsrin müharibəsini apardığını, Qələbənin də dəmir yumruq hesabına, birlik, əzm, iradə və güc hesabına əldə edildiyini, tarixi missiyanın şərəflə yerinə yetirilərək, işğal olunmuş torpaqların düşməndən azad olunduğunu söylədi.

Şuşanın işğaldan azad edilməsi əməliyyatının tarixdə əbədi qalacağını deyən Prezidentin "yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik" - fikirləri isə Silahlı Qüvvələrimizin rəşadət təntənəsi idi.

İlham Əliyevin ağdamlılara müraciətində bir məqam da xüsusi önəm daşıyırdı. Prezident əgər düşmən təslimçilik aktını imzalamasaydı, son döyüşün, işğalçıya sarsıdıcı zərbənin məhz Ağdamda vurulacağını bəyan etdi. Ağdam şəhərinin və rayonun işğal altında olmuş torpaqlarının bir güllə atılmadan azad edilməsi də elə düşmənin burada onu tam məhvə sürükləyən tale gözlədiyini bilməsindən irəli gəlirdi.

İlham Əliyev Ağdamda tək erməni ordusunu yox, bütünlüklə Ermənistan dövlətçiliyini məhvə sürükləməyə hazır idi!

Prezident Ağdamla bağlı bir duyğusal hissini, öz təbirincə desək, ağrısını da dilə gətirdi. İndi üstündə qalib kimi dayandığı torpaqlara əvvəllər dəfələrlə səngərdən binoklla baxarkən keçirdiyi təəssüratları sözlə ifadə etməyin çətinliyini, mümkün olmadığını söylədi: "Öz torpağımızda öz şəhərimizi, bax, o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik..."

Və "Bu gün mən buradayam, Ağdam şəhərindəyəm..."

### İlham Əliyev "Ruhlar şəhəri"ni Zəfər qalasına çevirir

Dağıdılmış, viran qoyulmuş Ağdama "Ruhlar şəhəri" adını biz yox, hələ illər öncə xarici jurnalistlər verib. Ağdamda gördükləri rəzilliyi, əmlaka və təbiətə qarşı terroru Xirosimanın nüvə silahı ilə bombalanmasına, faşizmin Avropada törətdiyi vəhşiliyə bərabər tutan bu xristian mənşəli yazarların çəkdikləri fotolar isə tək ağdamlıların deyil, bütün azərbaycanlıların ürəyinə çalın-çarpaz dağ çəkmişdi...

Ağdamlıların harayını onların vəkili Bəxtiyar Sadıqov "Ruhlar şəhərinin sakinləri" rekviyemində (sonradan ona film də çəkildi) yaramızın qaysağını qopardan sözlərlə dilə gətirirdi: *"Bu şəhər o şəhərlərdən deyil! Həm də o şəhərlərə bənzəyir. Küçələri və səkiləri... Evləri, meydanları, parkları... Bazar və mağazaları... Məktəbləri, uşaq bağçaları... Qəbiristanlığı... Hər şey var! Amma küçələr dağılıb, səkiləri ot basıb... Evləri və meydanları boşdur, parklarındakı ağaclar çoxdan quruyub, həyətlərdə adam boyundan uca qanqal, alaq otları bitib. Bazarda, meydan və mağazalarda ins-cins gözə dəymir, mal alıb, mal satan görünmür. Məktəbləri və bağçaları uşaq səsinə həsrət qalıb... Daha qəbiristanlıqlarda "Yasin" oxunmur! Bura Ağdamdır!.. Bura ruhlar şəhəridir!.. Ruhlar ağrıyırlar! Onların gözəl və abad şəhərləri, topdağıtmaz evləri xaraba və kimsəsiz qalıb. Yadlar gəlib evləri talan edib daşıyır, dəmirini, daşını, taxtasını dinini və Allahını unudanlara satırlar! Məscidlər dağıdılır, tarixi abidələr məhv edilir! Burada torpaqlar əkilmir, bağlar becərilmir..."*

Ağdam şəhəri kimi Gülablıdan Şotlanlıya, Sırxavənddən Mərziliyə, Əfətlidən Papravəndə, Əliağalıdan Şelliyə qədər yüzdən artıq kənd yerləyeksan edilmişdi...

Qarşımızda iki Ağdam vardı...

Erməni terrorunun dağıtdığı, daşı daş üstündə qalmayan Ağdam...

Və İlham Əliyevin gülüstana çevirdiyi, abadlaşdırdığı, rifah gətirdiyi Ağdam...

Düşmən Ağdamın 77,4 faizini nəinki insanın, heç itin-pişiyin də yaşamadığı xarabalığa çevirmişdi...

İlham Əliyevsə Ağdamın digər qismində - işğal altında olmayan 44 yaşayış məntəqəsində geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri gördü, Olimpiya İdman Kompleksi, Muğam Mərkəzi, Mərkəzi Rayon Xəstəxanası və digər sosialyönümlü obyektlər tikdi, xalçaçılıq müəssisəsi yaratdı, 6600-dən çox məcburi köçkün ailəsi üçün salınmış 18 qəsəbədə 18 ümumtəhsil və 3 musiqi məktəbi, 12 tibb və 10 məktəbəqədər təhsil müəssisəsi inşa etdi, qaz, elektrik, içməli su xətləri çəkdi, yeni yol-nəqliyyat infrastrukturu saldı, vəsaiti on milyonlarla ölçülən mühüm layihələr həyata keçirtdi... Nələr-nələr etdi...

Düşmənin Ağdamdan pərən-pərən saldığı, yalnız əynindəki paltarı və evinin açarlarını götürüb 62 rayon və şəhərə köçkün kimi səpələnən insanları İlham Əliyev yenidən Ağdama, yeni qəsəbələrə qaytardı...

Düşmən ağdamlılara nə qədər kədər, nifrət gətirdisə, İlham Əliyev bir o qədər qələbəyə inam, dövlətə güvən aşıladı...

Qalib kimi qədəm qoyduğu Ağdam torpağındakı məğrurluğu ilə yanaşı kövrəkliyini də, qəzəblə bərabər sevincini də, nifrətlə bahəm sevgisini də gördük Böyük Dayağımızın!..

Ayağı ruzilidir, əməlisalehdir, niyyəti pakdır, amalı qurub-yaratmaqdır Böyük Himayədarımızın!..

Elə ilk sözləri də Yeni Ağdamdan, sıfırdan ərsəyə gətirəcəyi, şəxsən özünün quracağı Ağdamdan idi...

Müjdəni dərhal verdi: *"Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik..."*

Ardınca da ilk sərəncamını verdi: Bərdədən Ağdama yeni dəmir yolu xətti çəkiləcək...

Ağdam yalnız 1867-ci ildə inşa edilmiş və işğala qədər Qafqazın ən böyük ticarət mərkəzlərindən sayılan bazarı, bənzərsiz təbiəti, işgüzar insanları, böyük iqtisadi, sənaye potensialı ilə tanınmırdı. Burada hətta aerokosmik cihazlar zavodu vardı!..

Dəzgah avadanlıqları, metis-furnitur, traktor və avtomobil təmiri, asfalt, konserv, yağ-pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları, tikinti materialları və ət kombinatları, iki dəmiryol vağzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları, məişət xidməti kombinatı, elektrik şəbəkəsi, kənd təsərrüfatı, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi stansiyaları, 24 tikinti-quraşdırma idarəsi, 12 sənaye müəssisəsi, 74 məktəb, 105 səhiyyə müəssisəsi, 271 mədəniyyət evi, 67 idarə, 99 klub da işğaldan azad edildi...

Amma onlar indi mövcud deyillər...

Amma onların daha yaxşısını, daha mükəmməlini, daha faydalısını İlham Əliyev tikəcək...

Və Ağdamı Azərbaycanın Zəfər Qalası kimi quracaq, yaradacaq!..

Yeni Ağdam İlham Əliyevin şah əsərləri içində həmişə fərqlənəcək!..

### İlham Əliyevin ağdamlılara bəxş etdiyi müqəddəs gün

İlham Əliyev Ağdama, ağdamlılara daim böyük dəyər verib və son açıqlamasında da Ağdam sevgisini çoxsaylı faktların timsalında bəyan etdi.

İndi növbə ağdamlılarındır...

İlham Əliyev ağdamlıların, Qarabağlıların taleyində elə bir tarixi dönüş yaradıb ki, onun vəsfinə və ona minnətdarlığa ən ecazkar söz, ən ülvi ifadə də yetməz!

Artıq yuxularımızda da əlimizin yetmədiyi yurdlarımızı bizə bir anın içində qaytaran İgidə sevgi və ehtiram nəsildən-nəslə keçərək yüz il sonra belə hər bir ağdamlının vəfa borcu olacaq!

Məkkədə - müqəddəs Kəbə Evində səcdəyə gedib Ağdamın azadlığı üçün dua edən və bu diləyini Tanrının yardımı, özünün dəyanəti ilə həyata keçirən İnsana məhəbbət və bağlılıq da artıq ən böyük iman, ən səmimi inamdır!

Ağdamda rəsmən qeydiyyatda olan 205 min sakindən əlavə, məmləkətimizin və dünyanın dörd bir yanında yaşayan 100 mindən artıq insan da əslən Ağdamdandır.

300 min insan üçün 20 noyabr taleyin ən müqəddəs günüdür!

Bu müqəddəs günü taleyimizə yazan İlham Əliyev isə artıq həyatımızın ən önəmli şəxsiyyəti, daim borclu olduğumuz Kişidir!

İlham Əliyev mümkünsüzü mümkün edib, bir güllə atılmadan ağdamlıları yurdlarına döndərən qəhrəmandır!

İlham Əliyev ağdamlıların 27 ildə çəkdikləri vətəndə vətənsizlik zillətini, zülmünü 20 noyabrda bir sözlə - "Ağdam bizimdir!" ifadəsi ilə unutduran liderdir!

İlham Əliyev bütün qələbələrimizin, eləcə də Ağdamın azadlığının yeganə səbəbkarının Azərbaycan əsgəri, zabiti olduğunu daim söyləyir. Bu, təvazökarlıqdır!

Əsgəri, zabiti Qələbəyə ruhlandıran, inandıran, ona cəsarət verən, ən nəhayət, "Qarabağa doğru irəli!" əmrini verib onun zəfərini təmin edən cahangir məhz İlham Əliyevdir!

Qarabağa, Şuşaya, Füzuliyə, Cəbrayıla, Zəngilana, Qubadlıya, Ağdama, Kəlbəcərə azadlıq bəxş edən, Laçını Azərbaycana qaytaracaq ən böyük güc - yeganə güc İlham Əliyevdir!

İlham Əliyevin Ağdam məscidinə Məkkədən gətirdiyi "Qurani-kərim"i bağışladığı an 6 mindən artıq ağdamlı şəhidin əziz ruhu ilə yanaşı, Heydər Əliyevin də müqəddəs ruhu böyük rahatlıq tapdı!

İlham Əliyev Ağdama azadlıq bəxş etməklə 6 mindən artıq şəhidimizə olan borcumuzu hamımızın əvəzindən ödədi!

İlham Əliyev Ağdamı düşmən tapdağından təmizləməklə daim ağdamlıların böyük himayədarı olmuş Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi!

Bu gün ağdamlılar hər səhər-axşam İlham Əliyevə nə qədər dua edirlərsə, bir o qədər də Heydər Əliyevin, Zərifə xanımın əziz xatirələrinə rəhmət diləyirlər!

"Yasin" surəsi indi Ağdamsızlıq iztirabı ilə bu dünyadan nakam köçən on minlərlə əzizlərimizlə yanaşı, bu iki dəyərli ATA-ANA üçün də oxunur!

### İlham Əliyev bütün Azərbaycanı Ağdamda bir daha birləşdirdi

İlham Əliyevə həm də ona görə borclu və minnətdarıq ki, körpələrimiz artıq Ağdamda dünyaya gələcəklər, Ağdamda iməkləyib, ilk addımlarını atacaqlar - bundan böyük xoşbəxtlik varmı?!

Dünyadan köçənlərimizi artıq köçkün qəbiristanlıqlarında deyil, dədə-baba yurdlarımızın məzarlıqlarında dəfn edəcəyik - ölülərimizin də artıq pərən-pərən düşməməyindən böyük təskinlik varmı?!

İlham Əliyevin "Ağdam bizimdir!" sədası əsrlərboyu Ağdamın himninə, marşına çevriləcək, yüzminlərlə ağdamlının əbədi şükranlıq duası olacaq!

Hər bir ağdamlı ailəsində "İlham Əliyev" adı indi ən müqəddəs ad kimi səslənir, qəbul edilir.

İlham Əliyev heç vaxt Ağdamda qonaq sayılmayacaq, onun Ağdam boyda nəhəng, əziz, səmimi bir evi olacaq!

İlham Əliyev hər bir ağdamlı ailənin fəxri başçısı, ən dəyərli üzvü olacaq, süfrəmizin başında həmişə Liderimizin əziz yeri saxlanacaq!

İşğaldan azad olan kəndlərimizdə "Heydər", "İlham", "Mehriban" adı ilə körpələr doğulacaq və Ağdam elinin bu şəxsiyyətlərə əbədi məhəbbətinin, sədaqətinin rəmzinə çevriləcəklər.

Ən böyük həqiqət isə odur ki, İlham Əliyev Ağdam camaatı üçün indi prezidentlik statusundan qat-qat artıq yüksəklikdə dayanır, sevilir.

Belə bir deyim var, Azərbaycanda ağdamlı dostu olmayan bir nəfər də yoxdur. Ancaq bu həqiqətdən böyük bir həqiqət də var. Azərbaycanın istisnasız olaraq bütün bölgələri bu 27 ildə ağdamlıların əsl səmimi dostları, köçkünlük dövründə yardımçıları, dayaqları oldu. Ağdamlılar bütün soydaşlarımıza bu 27 ilin şəfqət və dostluğuna görə minnətdarlığını sözlə yox, əməllə bildirəcək!

Ağdam bütün Azərbaycanın, bütün azərbaycanlıların evi olacaq!

Kim deyə bilər ki, İlham Əliyevin "Ağdam Azərbaycandır!" - bəyanatına naxçıvanlı, qərbi azərbaycanlı, bakılı, qubalı, lənkəranlı, kürdəmirli... ağdamlı qədər sevinmədi?! Eyni həyəcanı, eyni sevinci, eyni qüruru yaşadı bu millət...

İlham Əliyev bütün Azərbaycanı Ağdamda bir daha birləşdirdi!..

Nə qədər ki Ağdam var, ağdamlılar yaşayır, xilaskarlarımıza - Heydər Əliyev irsinə, İlham Əliyev şəxsiyyətinə bu yurdun sədaqəti, vəfası, bağlılığı var olacaq!

İlham Əliyevin Ağdamı bir güllə atmadan azad etməsi böyük şücaətdir. Fəqət bir məqamı da unutmayaq. Ağdamın təcavüzünə düşmənin tərk etməsi ilə son qoyulmadı.

*İlham Əliyev Ağdamın bir parçasını Suqovuşanda, Hadrutda, bir qismini Cəbrayılda, Qubadlıda, böyük hissəsini isə Şuşada azad etdi!*

*Və İlham Əliyevin Ağdamda ucaltdığı bayrağın kölgəsi indi Xankəndiyə, Xocalıya da düşür!..*

*İlham Əliyev 5 minillik Ağdamın elə 5 minillik qəhrəmanıdır!*

*İlham Əliyev adı Azərbaycan tarixində bundan sonra Ağdam, Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın qədər - Qarabağ qədər əbədi olacaq, zirvədə olacaq, möhtəşəm olacaq!..*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

# 28 ilin həsrətinə son qoyuldu

## Bundan böyük xoşbəxtlik olarmı?

Bu gün özümü dünyanın xoşbəxti hesab edirəm. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciət edərək "Şuşa şəhəri işğaldan azad edildi, Şuşa bizimdir! Qarabağ Azərbaycandır!" deyəndə sevincdən gözlərim yaşardı, ürəyim qürurla doldu.

Dövlət başçısının dilindən eşitdiyim bu şad xəbər bir anın içində 28 ilin donub buza dönmüş nisgilini əritdi, ürəyimin illərdən bəri qaysaq bağlamayan yaralarını sağaltdı. Quş qanadlı xəyalım Şuşalı çağlarıma, işğaldan sonra doğma şəhərimizdən, isti yuvamızdan, rahat ev-eşiyimizdən, qayğısız həyatımızdan ayrı düşdüyüm, rahatlıq tapmaq, ailəmi sıxıntısız yaşatmaq üçün ölkəmizi dərviş kimi dolandığım ağrılı-acılı, üzüntülü günlərə, illərə qanadlandı.

1955-ci ildə Şuşada anadan olmuşam. 1 nömrəli Şuşa şəhər tam orta məktəbini yüksək qiymətlərlə bitirmişəm. Şuşanın hər küçəsində, hər döngəsində ayaq izlərim var. Dərsdən sonrakı boş vaxtlarda uşaqlarla Cıdır düzündə futbol oynamaqdan heç vaxt doymazdıq. Valideynlərim ali təhsil almaq üçün uzağa (o vaxt Bakı bizim üçün uzaq sayılırdı) getməyimi məsləhət görmədilər. Xankəndidə Azərbaycanın 60 illiyi adına Pedaqoji İnstitutun Fizika-riyaziyyat fakültəsinə daxil oldum. Tələbəlik illəri, hərbi xidmət dövrü gəlib keçdi. Hər zaman ictimai işlərdə fəal idim. Elə bu yol məni Şuşa Şəhər Komsomol Komitəsində şöbə müdiri vəzifəsinə gətirdi. İctimai-siyasi işlərə artan marağımın arxasınca düşüb Zaqafqaziya Ali Komsomol Məktəbini, sonra isə Bakı Ali Partiya Məktəbini bitirdim. Şuşa Rayon Partiya Komitəsində təşkilat şöbəsinin müdiri vəzifəsində çalışdım. Müstəqillikdən sonra Şuşa Şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifəsinə irəli çəkildim. AXC hakimiyyətə gələndə isə meyarların dəyişdiyini, işləmək üçün biliyin, bacarığın, təcrübənin tələb olunmadığını görüncə, vəzifəmdən istefa verdim.

Atrıq Şuşa siyasi oyunların qurbanı olaraq itirilmiş, Ermənistan silahlı qüvvələri doğma şəhərimi işğal etmişdi. Şuşalılar isə ev-eşiyindən didərgin salınıb öz vətənində məcburi köçkünə çevrilmiş, ağır məhrumiyyətlərə, əzab-əziyyətlərə düçar edilmişdilər. Belə bir zamanda bir müddət Bakıda müxtəlif şirkətlərdə, idarə və müəssisələrdə çalışıb ailəmi çətinlik çəkməyə qoymadım. Amma Bakıda özümü Şuşadan uzaqda hiss edirdim. Elə bu hiss - Şuşa cazibəsi məni 1998-ci ildə Bərdəyə gətirdi, doğma yurda yaxınlaşdırdı. Uzun illər Bərdədə müxtəlif məktəblərdə müəllimlik etdim. Hazırda pensiyaçıyam. Minnətdarlıqla deməliyəm ki, Bərdə camaatı çox istiqanlı, mehriban və qonaqpərvərdir.

Ailəm haqqında onu deyə bilərəm ki, 4 övlad - 2 oğul, 2 qız atasıyam. Uşaqlar da, həyat yoldaşım da ali təhsillidir. Oğlum Toğrul Türkiyədə Tibb Universitetini bitirib. Hazırda Konya şəhərində cərrahdır. Həyat yoldaşı türk qızıdır. Digər oğlum Ramin də Türkiyədə ali təhsil alıb, iqtisadçıdır. Qızlarım Günel və Günay isə müəllimdirlər. Günelin həyat yoldaşı zabitdir, hərbi aviasiyada xidmət edir.

Şuşaya qayıdacağımız günü səbirsizliklə gözləyirik. Öyrənmişəm ki, işğalçılar Şuşadakı evimizi yandırıblar. Evim də, varım da, canım da Vətənə, Şuşaya qurban! Əsas odur ki, doğma Şuşam düşmən caynağından, erməni əsarətindən xilas edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev, qəhrəman Azərbaycan əsgəri şanlı bir tarix yazdı. İgid oğullarımızın Şuşa uğrundakı döyüşlərdə göstərdiyi şücaət və fədakarlıq bütün dünyanı heyran qoydu.

Bir daha əvvəldə söylədiyim fikrə qayıdaraq demək istəyirəm ki, biz bu gün, sözün bütün mənalarında, xoşbəxtik ki, belə qətiyyətli Prezidentimiz, cəmi 44 gün ərzində düşməni darmadağın edib diz çökdürən şanlı və qüdrətli Ordumuz var. Xoşbəxtik ki, bu gün xalq-dövlət birliyi sarsılmaz və yenilməzdir. Xoşbəxtik ki, Qarabağın Azərbaycan olduğunu uca səslə dünyaya bəyan etdik və bunu döyüş meydanında canımız, qanımız bahasına sübuta yetirdik.

***Yusif İSMAYILOV,***
***Şuşa şəhər sakini***

# BERNAMA agentliyi Azərbaycanın azad edilən ərazilərində məsələlərin həlli üçün Əlaqələndirmə Qərargahının yaradılmasından yazıb




Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması barədə AZƏRTAC-ın materialını yayıb.

Yazıda bildirilir ki, 30 üzvdən ibarət Qərargahın nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi və zəruri analitik-təşkilati dəstək göstərilməsi məqsədilə İdarələrarası Mərkəz yaradılacaq.

Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, 1991-1994-cü illərdə baş verən müharibə nəticəsində ərazilərimizin işğalı barədə də məlumat verilib.

Həmçinin qeyd edilib ki, sentyabrın 27-dən etibarən Ermənistan ordusunun növbəti hərbi təxribatları, dinc sakinlərə hücumu Azərbaycan Silahlı Qüvvələrinin əks-hücuma keçməsinə səbəb olub. 44 gün davam edən müharibə nəticəsində Azərbaycan Ordusu bir neçə şəhəri və 300-dək yaşayış məntəqəsini işğaldan azad edib.

# Sosial Xidmətlər Agentliyi postmüharibə dövrü üçün psixoloji dəstək tədbirlərinə başlayıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi postmüharibə dövrü üçün psixoloji dəstək tədbirlərinə başlayıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, 44 günlük müharibə dövründə agentlik erməni təxribat və terrorundan zərər çəkən şəxslərlə, ailələrlə görüşərək, onlara ehtiyac duyduqları psixoloji xidmətləri göstərib. Terror qurbanı olmuş şəxslərin ailələrinin sosial vəziyyətlərinin qiymətləndirilməsi, onlara göstəriləcək sosial dəstək tədbirlərinin müəyyənləşdirilməsi işləri də aparılıb.

Postmüharibə dövrü üçün psixoloji dəstək tədbirləri çərçivəsində həmin işlər davam etdirilməklə, eyni zamanda şəhid ailələrinin üzvləri, hərbi xidmət zamanı yaralanaraq evinə qayıdan şəxslər psixoloji dəstəklə əhatə edilir. Qurumda yaradılmış peşəkar psixoloq və psixiatrlardan ibarət qrup ilk mərhələdə Bakı, Sumqayıt, Yevlax, Gəncə, Bərdə, Tərtər, Şirvan, Ağcabədi, Ağdam şəhər və rayonlarında həmin kateqoriyadan olan şəxslərə xidmətlərə başlayıb.

Bu xidmətlərə onlar üçün psixo-maarifləndirmə işlərinin aparılması, terapiyaların, fərdi və qrup şəklində konsultasiyaların keçirilməsi və s. daxildir. Psixoloji yardıma ehtiyacı olanlar aşkarlanaraq qeydiyyata alınır, məskunlaşdıqları ərazilər üzrə psixoloqlara müvafiq bildiriş və tövsiyələr də verilir.

Son günlərdə isə agentlikdə yeni bir xidmət - müharibədən zərərçəkənlər üçün onlayn "Psixoloji dəstək xətti" (050 406 75 85) fəaliyyətə başlayıb.

# "Bakıdan birdəfəlik Ağdama köçəcəyəm"

## Aqil Abbasın Ağdam nisgili, Qarabağ sevgisi, illər sonra gerçəkləşdirəcəyi arzusu



◆ Qarabağ söhbətləri

**Gecə yarıdan xeyli keçmişdi... Payıza xas olmayan bürküyə adət eləməmiş şəhər bərk tıncıxırdı. Bir yarpaq belə qımıldamırdı. Qəflətən bu buludsuz, bu aydın, bürküdən ulduzları da yorulub day sayrışmayan göylər sevincdən necə şaqqıldadı və qələbə müjdəsi necə səsləndisə, şəhər dik atıldı... Və dik atılan şəhər özünü atdı bayıra... 30 ilə yaxındır gözlədikləri Şanlı Zəfər gününü zurna-qavallı bir toy-bayram kimi qeyd etməyə...**

**Bu gün səhər qələbə sevinci ilə açılmışdı. O da divanda əyləşib televizorda şəhərin təntənəsini izləyir, qələbə qoxusunu ciyərlərinə çəkib xoşallanır, buludların arasından süzülən Tanrı işığına tamaşa eləyə-eləyə bu xoşbəxtliyin damları, torpağı, ağacları, pəncərələri döyəcləməsindən yaranan, Tanrıdan başqa heç bir bəstəkarın bəstələyə bilmədiyi qeyri-adi bir musiqiyə qulaq kəsilirdi...**

**Qəfildən oğlu arxadan kürəyini qucaqladı. Atasının yaşarmış gözlərinə baxıb dedi:**

**- Məşhur yazıçı oldun, xoşbəxtlikdi, millət vəkili oldun, xoşbəxtlikdi, film çəkdin, xoşbəxtlikdi, fəxri ad aldın, xoşbəxtlikdi... - hər uğurunda səninlə fəxr etdik, sevindik. Amma nə qədər nailiyyət qazansan da, heç zaman səni xoşbəxt görmədim, gözündə həmişə bir kədər vardı. Bu gün isə ilk dəfədir səni xoşbəxt görürəm...**




*Onu çoxları şən, deyib-gülən, zarafatcıl, bir az da söyüşcül biri kimi tanıyır. Elə mən də kənardan eşitdiklərimə istinadən o cür müsahiblə söhbət edəcəyimi düşünürdüm. Əslində, söhbətə başlamazdan öncə bir lətifə danışması xarakteri haqqında deyilənlərin doğruluğuna işarəydi. Amma bu gerçəklə bərabər bəlkə çoxlarının bilmədiyi bir həqiqət də varmış. Demə, bu dəli-dolu görüntünün altında kövrək, həssas, hətta bəzən ağlamağa bəhanə gəzən bir ürək döyünürmüş... Demə, bu 67 yaşlı ağsaçlı kişinin içində kövrək, gözüyaşlı bir uşaq yatırmış. Sanki anasından, vətənindən, ağ damlı evindən uzaq düşdüyü üçün özünü kimsəsiz sayan, yalnızlığını üzə vurmamaq üçün gülüşü özünə sipər seçsə də, heç nəylə yarasını sağalda bilməyən, illərlə içindən ağlayan nisgilli uşaq... Və düz 28 illik həsrətdən sonra bu "uşaq" yenidən doğma elinə, obasına, vətəninə, ağ damlı evinə qovuşub. İndi daha göz yaşlarını gizlin-gizlin içinə axıtmağa gərək yoxdu... İndi artıq sevincdən, vüsaldan ağlamağın vaxtıdı... Bəli, indi onun həyatının ən xoşbəxt çağıdı... Qarabağın azadlığına, öz balalarına qovuşduğu andır...*

*"Qarabağ söhbətləri"ndə bu dəfə tanınmış yazıçı, Əməkdar jurnalist, millət vəkili, "Şöhrət" ordenli Aqil Abbasla hər dəfə adını çəkəndə gözlərindən, ürəyindən güldüyü, kədərli xatirələri xatırladıqca kövrəldiyi Ağdamdan, Qarabağdan danışırıq.*

### Sinifdə mənə "kənddən gəlmiş" deyirdilər

- Mən həmişə özümə ağdamlı deyirəm. Çox adam da məni ağdamlı kimi tanıyır. Bunun da səbəbi var. Harda yaşayırsansa, dostların hardadırsa, səni qız üstündə harda döyüblərsə, ora sənə daha doğmadır. Bir də həmişə deyirdim, nə qədər ki, Ağdam işğaldadır özümü ağdamlı biləcəm, Ağdam azad olunandan, camaat qayıdandan sonra deyəcəm ağcabədiliyəm. Bu gün isə tək mən yox, hamımız ağdamlıyıq, şuşalıyıq, qarabağlıyıq.

Ağcabədinin Bayat kəndinin Kolanlı obasında dünyaya gəlmişəm. Babamın və babamın atasının məzarı ordadır. Amma əslimiz Kəlbəcərə gedib çıxır. Yeddi babamın üçünün məzarı Kəlbəcərdədir, gedib axtarıb tapmışdım orda.



Ola bilsin, atamda o nostalji vardı deyə bizi tez-tez Kəlbəcərə aparırdı. 8 uşaqlı ailənin ən böyüyü olmuşam. 10 yaşıma qədər Bayatda yaşamışıq. Bizim kəndlə Ağdamın arası 18, Ağcabədinin arası isə 32 kilometr idi. Ona görə də atam uşaqların məktəb məsələsinə görə Ağcabədiyə nisbətən daha çox inkişaf eləmiş Ağdama köçməyə qərar verdi. Ağdam böyük mədəniyyət mərkəzi idi. Orda 10 məktəb, 3 kinoteatr, 2 muğam evi, dövlət teatrı, 4 texnikum vardı. Ağdam texnikumunun fortepiano şöbəsində tək azərbaycanlılar yox, Leninqraddan, Moskvadan, Kiyevdən gəlib təhsil alanlar da vardı.

Çox səliqəli şəhər idi. Odur ki, biz Ağcabədidən Ağdama köçdük. 2 nömrəli məktəbə getdim. Ora beynəlmiləl məktəb idi. Özü də əvvəl məni sinifdə bəyənmirdilər, "kənddən gəlmiş" deyirdilər. Ancaq 4-cü sinifdə dərsləri məndən köçürməyə başladılar, ondan sonra dostlaşdıq. Həm də gördülər qəşəng dalaşıram. Sinfimizdə təxminən 25 oğlan vardı. Sinif yoldaşlarının 5-6-sından başqa hamısı Ağdam uğrunda gedən döyüşlərdə şəhid oldu. Mənim Ağdama bu qədər bağlı olmağımın bir səbəbi də məhz budur...

### Dağın başına ağ daşlarla "AQİL" yazdım

- Uşaqlıqdan gəzməyi sevirəm. Azərbaycanı kənd-kənd gəzmişəm. Elə bir yer yoxdur ki, orda olmayım. Tək Ağdamı yox, bütün Qarabağı ayaqyalın gəzmişəm. Qarabağın elə bir kəndi, dağı, bulağı yoxdur ki, ora ayaq basmayım. Dünyanın da, demək olar, hər yerində olmuşam. Amma Kəlbəcər gözəllikdə cənnətməkan heç bir ölkədə yoxdur. Hara getmişəm, hətta İsveçrədə həmişə demişəm ki, bura Kəlbəcərin yanında heç nədir. Yayda biz ən çox Kəlbəcərə gedirdik. 5 dəfə Kəlbəcərə gedəndə bir dəfə Turşsuya gedərdik.



Kəlbəcərin yaylaqlarını bittə-bittə tanıyırdım... İstisuda "Keti-Meti" dağı var. Ora çıxmaq çox çətindi. 9-cu sinifdə oxuyanda 15 oğlan yığışdıq ki, qalxaq o dağa. Təxminən 5 nəfər axıra qədər gedə bildi. Qalanları yarı yolda geri qayıtdı. Çıxdım dağın başına və ağ daşlarla 10 metr uzunluqda, yarım metr enində "AQİL" sözü yazdım. İçini də daşla doldurdum ki, ot bitməsin. O ad bir kilometr uzaqlıqdan baxanda görünürdü. Yəqin hələ də dağın başında qalır. Kəlbəcərdən Ağdərəyə qədər 10-15 bulağın başında ağacların da üstünə adımı yazmışdım. Eləcə də Şuşada, Turşsuda. O vaxt bu dəb idi... Qarabağda elə bulaqlar var ki, adamın əlini buz kimi kəsir. Biz həmişə mərcə girirdik görək kim bulağın içindən 5 daş götürə biləcək. Çox adam götürə bilmirdi. 5-ci daşı götürmək istəyəndə əli soyuqdan keyiyirdi, bütün daşlar tökülürdü suya. Qeyri-qarabağlılar bilməz, köklü qarabağlılar, özlərini xan-bəy nəvəsi sayanlar İsa bulağının suyunu bəyənməzdilər ki, adamı köpdürür. Zarıslı bulağını xoşlayırdılar. Doğrudan, bu suyun dünyada əvəzi yox idi. Nə qədər yeyirsən-ye, üstündən bircə stəkan o sudan içəndən sonra elə acırdın ki...

Ümumiyyətlə, Ağdamda yayda heç kim soyuducudan su içmirdi. Həyətdəki kranı açırdın, 2-3 dəqiqə axandan sonra suya əlini tuturdun buz kəsirdi. Yəni sözüm odur ki, mən Qarabağı beş barmağım kimi tanıyıram. Hətta hər hansı videoya o dəqiqə deyirəm bura filan yerdir və məlum olur ki, düz tapmışam.

### "Qrad" Seyid Lazım ağanın 10 metrliyində torpağa girdi, partlamadı

- Ağdam mənim üçün bir başqa aləmdir. Ağdam general Murtuz Quliyevdir, Xudu Məmmədovdur, Rafiq Əliyevdir, Famil Mehdidir, Adilə Namazovadır. Ağdam Qədir Rüstəmovdur, Arif Babayevdir, Səxavət Məmmədovdur, Rəmişdir.



Ağdam Allahverdi Bağırovdur, Fred Asifdir... Ağdam dünyanın ən gözəl, ən varlı şəhəriydi. Mən Nyu Yorkda körpünün altında yatan bomjlar görmüşəm. Ağdamda belə şey olmayıb. Şəhərdə imkansız adam yox idi. Məhlədə 8 ev idik, amma 13 maşın vardı. Ağdam böyük ticarət mərkəzi idi. Qarabağ xanı Pənah xanın çox fərmanları olub, "Batmanqılınc"ı da onun haqqında yazmışam. Pənah xan Şuşanı paytaxt seçəndən sonra Ağdamı da Qarabağın mərkəzi şəhəri elan etdi. İndiki dillə desəm, tapşırdı ki, kim Ağdama investisiya qoysa, ondan vergi alınmayacaq. İmkanlı adamlar Qarabağın ətrafından gəlib orda dükanlar açdılar. Fikir verin, Ağdamdan Bərdəyə, Ağcabədiyə, Füzuliyə 48, Şuşaya 37, Laçına və Yevlaxa 73, Ağdərəyə 37 km, Kəlbəcərə 80, Xankəndiyə 27 kilometrdir. Düz mərkəzdədir. Ona görə oranı seçmişdi Pənah xan. Ağdam da bu səbəbdən inkişaf etdi. Qarabağın hər bölgəsindən şənbə-bazar günləri Ağdam bazarına gəlirdilər. Özü də bazar olduqca səliqə-sahmanlı idi. Ət, toyuq, meyvə-tərəvəz, yağ-pendir satılan yerlər ayrı idi. 200 dəmirçi sexi vardı. Sadıq Murtuzayev sonradan bazara bitişik ticarət mərkəzi tikdirdi, geyim dükanlarını ora köçürdü. Özü də Ağdama atılan ilk "qrad" oranı yandırdı. Çox qəribə hadisə olmuşdu o vaxt. Ağdamda məşhur Seyid Lazım ağa vardı. Ağdamlıların inam yeriydi. Hamının cibində, maşınlarında onun şəkli olardı. Bazarda Seyid Lazım ağanın bir yeri vardı, kreslo qoyurdular otururdu. Nəzir vermək istəyənlər ora gəlirdi. Məsələn, kiminsə balası instituta girəndə gəlirdi onun yanına, Seyid də o uşağın cibinə pul qoyurdu. Bir dəfə bir "qrad" Seyidin 10 metrliyində torpağa girdi, partlamadı. Partlasaydı, azı 300 adam ölərdi. Hamı deyirdi Seyidin cəddi qoymadı "qrad" partlasın. Seyid Lazım ağa müharibədən sonra öldü. Ağdamın Çəmənli kəndində dəfn olundu. Arzu adlı bir yəhudi onun məqbərəsini tikdirdi, o ərazini abadlaşdırdı, ehsan yeri tikdi. İndi ora ziyarətgahdır.

Ağdam torpağının özü də bərəkətli, zəngin torpaq idi. Kəndləri də varlı idi, çünki əkib-becərirdilər. Ağdam ildə 200 min ton üzüm istehsal edirdi. Bu da 160 min ton çaxır demək idi. Ağdamda 13 çaxır zavodu vardı. 70 min ton pambıq verirdi. Əgər müharibə olmasaydı, Qarabağ işğal edilməsəydi, bizim dövlət büdcəmiz 80 milyard dollar olardı. Xankəndinin sənaye, Ağdamın sənaye və kənd təsərrüfatı obyektləri, Füzuli böyük sənaye və kənd təsərrüfatı rayonu olaraq dövlətə nə qədər xeyir verəcəkdi. O da qeyd olunmalıdır ki, dövlət qaçqın və məcburi köçkünlərə nə qədər qayğı göstərdi. Maaşları saxlanıldı, kommunal xərclərdən azad olundular, hər ailə üzvü çörəkpulu aldı. Nə qədər qəsəbələr tikildi, yeni binalar inşa olundu. Bunlar hamısı xərcdi. Yoxsa indi hamı bəy kimi dolanardı...

Ağdamın quruculuğunda xüsusi xidmətləri olan, canla-başla işləyən 3 katibin adını çəkmək istəyirəm. Nadir Abbasov şəhəri səliqəyə salıb. Ağdamın içində qobu vardı, kanalizasiya ora axırdı. Şəhərin başından çıxacağına qədər uzanırdı. Nadir Abbasov suyu borulara aldı, qobunun üstünü örtdü. Ağdam Rayon Partiya Komitəsi, univermaq onun üstündə tikilmişdi, park da salmışdı. Heç kim inanmırdı ki, orda üfunət iyi verən qobu vardı. Oranı cənnətə çevirdi. İkinci, Telman Orucov Ağdamın kənd təsərrüfatını, iqtisadiyyatını yüksəltdi, zavod, fabriklər tikdirdi. Sadıq Murtuzayev də heyvandarlığı yüksəltdi, şəhəri abadlaşdırdı, Əmək sarayı, Mədəniyyət evi və başqa binalar, böyük heyvandarlıq kompleksi tikdirdi. 3 yerdə - Şelli, Abdal Gülablı və Şahbulaqda istirahət zonası yaratdı. Yerli camaat orda pulsuz istirahət edirdi. Lap əvvəl isə Ağdamda



Kommunal təsərrüfat idarəsinin rəisi Məşədi Abbas olub. O da Ağdamda böyük abadlıq işləri görüb. Muxtar Əliyev isə Qaraağacı qəbiristanlığını düzəltmişdi. O cür qəbiristanlıq Avropada var. Gecə hər yanda işıqlar yanırdı. 3 km uzunluğunda, 2 km enində 2-3 min yaşı olan qədim qəbiristanlıq idi. Qacar nəslinin məzarları da orda idi. 1965-ci ildə İran şahı şah nəslinin nəşini köçürdü ordan. Camaat o məzarların üstündə məqbərə tikmişdi.

"İmarət" qəbiristanlığı isə ağdamlıların Fəxri xiyabanı sayılırdı. Qarabağ xanlarının məzarları o qəbiristanlıqda idi. Pənah xan, İbrahim xan orda dəfn olunublar. Murtuzayev o məzarların üstündə məqbərə tikdirdi. Natəvanın qəbrinin üstündə isə büstünü qoydurdu. Yəqin ermənilər oranın hamısını dağıdıblar. Amma eybi yox, ondan da gözəlini tikəcəyik.

### Atama tapança vermişdim ki, əsir düşsən, özünü vurarsan

- Ağdamdakı evimizdə işğaldan 3-4 gün qabaq olmuşdum. Qardaşımın ailəsini çıxarmışdıq. Amma atam işində-gücündə idi. Şıxbabalıda sovxozda baş mühasib işləyirdi. İyulun 23-ü atam işdə olub. Fred Asifin əsgərləri həmin ərazidə döyüşürdülər. Ermənilər üç tərəfdən şəhərə daxil olmuşdular. Əsgərlər gəlib demişdi ki, "dayı, Ağdam yoxdu ey, götürülüb", nə gəzirsən burda və sağ-salamat Qarqardan keçirmişdilər.

O vaxt atama bir tapança vermişdim. Demişdim, bu tapançanı ermənilərə atmaq üçün vermirəm ha. Qəfil şəhərə girərlər, əsir düşərsən, bilə-bilə sənə nə işgəncə verirlər hamımız diri ölərik. Səni and verirəm inandıqlarına, əsir düşsən, özünü vurarsan... Əsir sahibi olmaq ağır şeydir. Mən görmüşəm o əzabı. Bacımın əri Ağdam polis şöbəsində işləyirdi, sahə müvəkkili, kapitan idi. Ermənilər yalandan demişdi sağdır, 6 aydan sonra bildik şəhid olub. O 6 ayda bacımın, ailəmizin nələr çəkdiklərini görmüşəm. Sonra meyitini verdilər, Ağcabədinin



Avşar kəndində dəfn etdik, "Azərbaycan bayrağı" ordeni ilə təltif edildi. Dəfn edəndən sonra hamı rahatlaşdı elə bil. Mən çox əsirlər görmüşəm. Bizdə də erməni əsirləri vardı, amma gündə 3 dəfə yemək, siqaret verirdik. Bizim əsirlərə isə ermənilər dəhşətli işgəncələr verirdilər, ac-susuz qoyurdular...

Şükür, atam əsir düşmədi. Fred Asifin əsgərləri onu Qarqar çayından sağ-salamat keçirib Ağcabədiyə yola salmışdılar. Atam uzun müddət Bayat kəndində qardaşıoğlugildə qaldı. Sonra Bakıya gətirdik. Amma bizimlə yaşamadı, dedi bina evində qala bilmərəm. Montində ona balaca bir həyəti olan ev aldım. Qarşısında xudmani bağ da vardı, atam orda nərd oynayırdı. Yoldaşı şəhid olan bacımla qızı da atamla o evdə yaşayırdı. Atam Ağdamın yoxluğuna 5 il dözdü. 1998-ci ildə 71 yaşında rəhmətə getdi. Heç xəstələnməmişdi də. Almanı sevirdi. Hər gün 2 kilo alma yeyirdi. Şərqşünaslıq məzunuydu, Nizaminin "Xəmsə"sini farsca əzbərdən bilirdi. Uzun illər Şərabçılıq sovxozunun direktoru olsa da, ömrü boyu dilinə içki dəyməmişdi. Qatı dindar da deyildi atam. Sadəcə içkini sevməzdi. Şərab içən adam gözünün düşməni idi. Nə Ağcabədi, nə də Ağdamda evimizdə məclislərdə içki verilməyib. Mən də ilk dəfə 35 yaşımda dilimə içki vurmuşam. Ölənə kimi atam bilmədi içdiyimi, siqaret çəkdiyimi. Özü də bircə vəsiyyəti oldu mənə. Bizim nəslin qəbiristanlığı Kolanıdadı. Amma bir qardaşım 1981-ci ildə 25 yaşında qəzaya düşdü. Atam onu Ağdamda Qaraağacı qəbiristanlığında dəfn etdi. Dedi, mənim ürəyim oğlumu ziyarət etmək istəyəndə Ağcabədiyə getməyəcəm ki. Elə burdan-bura gedib ziyarət edərəm. Anam da qardaşımın yoxluğuna dözmədi, 3-4 il sonra rəhmətə getdi. Onu da elə qardaşımın yanında dəfn etdik. Atamı isə Ağcabədidə öz kəndimizdə torpağa tapşırdıq. Atamın son nəfəsində istəyi o oldu ki, Ağdam işğaldan azad olunandan sonra ananla qardaşını mənim yanıma köçürmə. Qəbirlərini təzədən düzəltdirərsən, ermənilər dağıdıblar. Başqa vəsiyyəti olmadı... Çox şükür 22 ildən sonra atamın vəsiyyətini yerinə yetirə biləcəm...

### Qarabağ savaşı dünya hərb tarixinə düşəcək

- Bilirsiz, o vaxt heç kim inanmazdı ki, ermənilər Ağdama girə bilər. Könüllü batalyonları ləğv etmişdilər. Rayonun müdafiəsini də vermişdilər Surətin 709 saylı hərbi hissəsinə. Onlar da erməni güllə atan kimi çıxdılar Ağdamdan. Bircə Fred Asiflə Allahverdi Bağırovun dəstəsi axıra kimi qalıb döyüşdü. Azərbaycanın hər yerindən ora köməyə gəlmişdilər. Kim Ağdamda yaralanıbsa, şəhid olubsa, o, ağdamlıdır. Ağdam 6



mindən çox şəhid verdi. Ağdamın 3 şəhidlik qəbiristanlığı vardı. Sonuncusu Uzundərədə idi. Ağdamdakı, daha dəqiqi, Quzanlıdakı Şəhidlər xiyabanı isə tam fərqlidir. Bu fərqlilik də şəxsən mənim ideyamdır. Orda həm 16 Milli Qəhrəmanımız uyuyur, həm də Ağdamda şəhid olan insanların adları yazılıb. Nizami Sadıqov icra başçısı olanda bu xiyaban salınan zaman məsələ qaldırdım ki, abidədə təkcə ağdamlı şəhidlərin deyil, Azərbaycanın müxtəlif bölgələrindən gəlib Ağdamda şəhid olanların da adları yazılmalıdır, çünki onların hamısı ağdamlıdır. Belə də etdik. Bütün rayonların icra hakimiyyətlərinə məktubla müraciət etdik ki, Ağdamda ölən şəhidlərin ad, soyadlarını göndərin. Təəssüf ki, müraciətimizə laqeyd yanaşdılar. Çoxu göndərmədi. Bir yas yerində icra başçılarından birini gördüm. Dedim, sizə bu məsələ ilə bağlı məktub göndərmişdik, cavab vermədiniz. Təəccübləndi ki, mən elə bir məktub almamışam. Müavininə zəng elədi, danladı ki, niyə yazıb göndərməmisən siyahını. Sözüm ondadır ki, o məktubların əksəriyyətini dərkənar yazıb atıblar qırağa. Şəhidlərin adlarının çoxunu özümüz tapmışıq. Məsələn, Səttar Möhbalıyevin qardaşı Əhməd Möhbalıyev zabit idi. Naxçıvandan Ağdama könüllü gəlib, bir komandir kimi orda şəhid olub. Onun da adını yazdıq. Hələ də bu iş davam edir. Həmin ərazini abadlaşdırmışıq, namaz qılmağa yer var, çayxanada isə çay pulsuzdur, ehsandır...

Biz o vaxt da qeyrətlə vuruşduq, bu gün də. Bu gün niyə qalib gəldik? O vaxt komandanlıq, nizam-intizam, ordu yox idi. İndi möhtəşəm ordu, ali baş komandanlıq, nizam-intizam var. Planla, sxemlə işləyirlər. Qarabağ savaşı dünya hərb tarixinə düşəcək. Belə savaş indiyə kimi görünməyib. Təsəvvür edin ki, Şuşanın 3 tərəfi sıldırımdır. Oranı alpinistlər çıxa bilməz. Bizim xüsusi təyinatlılarımız o sıldırımı çıxır, yaralı yoldaşını da qoymur orda, çiyninə alır qalxır yuxarı. Görün nə oğullar var. Şuşanın azadlığı uğrunda 400 xüsusi təyinatlımız 650 erməni xüsusi təyinatlısı, 2 mindən çox əsgərilə döyüşüb, erməninin 400 xüsusi təyinatlısının, 1500-dən çox əsgərini məhv edib. Rus jurnalisti yazırdı ki, Şuşadan gələn erməni hərbçilərin çoxu tapança və bıçaq yaraları alıblar. Bu o deməkdir ki, Şuşa əlbəyaxa dava ilə işğaldan azad olunub. Bu, qəhrəmanlıq deyil, bəs nədir?!

### Evlərimizin qumuna, sementinə, əhənginə həm də sevinc göz yaşlarımızı qatacağıq

- Mən həmişə demişəm, mənim üçün Ağdam yox, Şuşa önəmlidir. Şuşasız Ağdamı istəmirəm. Deyirdim, kim Şuşanın azad olunacağına, ora gedəcəyimizə inanmırsa, 2 metr kəndir alıb özünü assın. İnsan inamsız yaşamaz. Hər zaman Qarabağı azad edəcəyimizə inanmışam. Həm də mən çox şey bilirdim. Ordudan xəbərim vardı. Milli Məclisin Müdafiə komitəsinin üzvü olaraq hərbi hissələrdə çox olurdum. Üstəlik, Prezidentimizin apardığı siyasətə hər zaman inanmışam. Bilirdim ki, torpaqlarımızı erməni işğalından azad edəcəyik. Elə də oldu. Qarabağı azad etdik. Ermənistanı təslimçilik bəyanatına imza atdırdıq. Sülh müqaviləsi bağlananda xalq görəcək nələri əldə etmişik. Hərdən sosial şəbəkələrdə ağız büzənləri görəndə hirslənirəm. İsti yerlərində oturub yekə-yekə danışmaq asandır. Mən bilirəm bu savaşda nə qədər şəhid vermişik. Təkcə Ağdamı, Kəlbəcəri və Laçını azad edəndə bir o qədər şəhid verəcəkdik. Kəlbəcər alınmaz yerdi, orda mindən çox kaha var. Oranı təmizləmək dəhşətli şeydir. Bu torpaqları qansız, şəhid vermədən, Prezidentin müdrik siyasəti nəticəsində aldıq.

Təəssüf ki, Ermənistan bizim şəhər və kəndlərimizi "şumlayıb". Özü də faşistlərdən betər "şumlayıb". Təbii ki, bu, bizi ağrıdır. Amma əsas torpaqlarımızın azad olunmasıdır, qalanı təfərrüatdır.

Cocuq Mərcanlını 4-5 ayın içində bərpa edib, güllü-çiçəkliyə çevirən dövlət dağıdılmış şəhər və kəndlərimizin yenidən bərpası üçün yəqin ki, çoxdan plan tutub. Qarabağı bir neçə ilə tikəcəyik. Şükür, pulumuz, varımız da var. Nə lazımdırsa, dövlət hər şeyi edəcək. Bəlkə də şəhər və kəndlərimiz azad olunub minalardan təmizləndikdən sonra icazə veriləcək ki, hər kəs öz kəndkəsəyinə gedə bilsin. İnsanların əksəriyyəti gedib öz həyətlərində çadır qurub yaşayacaq və dağıdılmış ocaqlarını özləri tikəcək. Daş tapan daşla, daş tapmayan da lap çiy kərpiclə yuvasını quracaq. 27 ildir hamı o torpağa qayıtmaq istəyi ilə yaşayır. Hamı o günü səbirsizliklə gözləyir. Bakıdakı cah-cəlaldansa, Ağdamdakı koma mənə daha maraqlıdı, daha gözəldi, daha müqəddəsdi... Tezliklə Qarabağa böyük köç başlayacaq. Mən burdan ağdamlılara müraciət edirəm. Ağdamlılar bu gün də imkansız adamlar deyillər, daşdan pul çıxara bilirlər. Qoy imkanı olan öz evini özü tiksin, dövlətə çox yük düşməsin. Gücü çatan əlini qonşuya da uzatsın ki, o da evini tikə bilsin. Bilirəm, ağdamlılar bunu edəcək. Biri elə mən. Bir-birimizə və dövlətə əl tutaq ki, daha tez tikib qurtaraq. Üstəlik, daş da əlimizin altında. Ağdamda iki daş karxanası vardı, böyüyü də Şahbulaq. Bütün Qarabağ həmin Şahbulağın daşıyla tikilmişdi. Hər dəfə yolum Şahbulağa düşəndə heyrətlənirdim ki, burdan hər gün nə qədər daş daşınır, amma dağ yerindədir. Elə bil Xəzər dənizindən dolçayla su götürmüsən. Və onu da deyim ki, Şahbulaq daşı Bakı karxanalarındakı daşdan həm möhkəmliyinə, həm də ağırlığına görə fərqlənir. İndi Şahbulaq yerində durur, Qarabağı yenidən tikmək üçün on dəfələrlə artıq daş ehtiyatı var.



Gənclərimiz hərb meydanlarında göstərdikləri şücaəti indi də tikinti meydanlarında göstərəcəklər. Dəfələrlə demişəm və yenə deyirəm, dağılmış evlərimizi və yurdlarımızı daha gözəl və daha yaraşıqlı tikəcəyik. Bilirsiniz niyə? Çünki onun qumuna, sementinə, əhənginə həm də sevinc göz yaşlarımızı qatacağıq.

### Çadırda yaşaya-yaşaya atamın evini təzədən tikdirəcəyəm

- Qarabağın işğaldan azad ediləcəyinə olan inam əsərlərimdə də var. Bütün əsərlərimi inam üzərində qurmuşam. "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" əsərimdə bir müəllim obrazı var. Malıbəyliyə, ordan da Xankəndinə gedir ki, evini yandıran Aşotu öldürsün. Hər zaman inanırdım ki, biz də nə vaxtsa gedəcəyik.

Mən Qarabağ müharibəsinin şahidi yox, iştirakçısıyam. Özüm orada doğulduğuma, yaşadığıma görə yox, sadəcə müharibə başlayan gündən ön cəbhədə səngərdə olmuşam. Orada gördüyüm hadisələr, insanlarımızın başına gətirilən faciələr "Dolu"nu doğurdu. "Dolu" romanında mən təkcə Qarabağ müharibəsini deyil, ümumiyyətlə, müharibənin dəhşətlərini, bu dəhşətlərin nəticələrini təsvir etmək istəmişəm. Göstərmək istəmişəm ki, hər bir müharibə ədalətsiz bir ideyanın nəticəsi, buna səbəb olan ölkə isə ədalətsizliyin tüğyan etdiyi bir məkandır. "Dolu" uzun illər yazmaq istədiyim bir əsər idi. Hər dəfə yazmağa başlayırdım, amma başqa bir əsər ortaya çıxırdı. Nəhayət, günlərin bir günü - 2008-ci ildə Qarabağ müharibəsinin yazıçı ürəyinə yağan "Dolu"su yarandı. Əsərin sonunda döyüşdə şəhid olmuş insanların ruhlarının yenidən komandirin ardınca işğal olunmuş torpaqlarımıza doğru irəliləməsi əsərin bədii ideyasının əsasını təşkil edir. Romanın əsas məqsədi insanlarda bu ideyaya inam yaratmaqdır ki, zaman gələcək Azərbaycan əsgəri əsərdə təsvir edilmiş qondarma sərhədi aşacaq. "Dolu" filmində də müqəddəs ruhlar bu sərhədi Ağdamın cəbhə xəttindəki qadağa nöqtəsini keçib gedir və Azərbaycan insanında haçansa bu sərhədi mütləq keçəcəyi inamını yaradır...

Zaman göstərdi ki, bu inam, bu ümid boş deyilmiş... Biz artıq bütün sərhədləri keçdik. İndi Qarabağın hansısa bölgəsinə getmək üçün sərhəd aşmağa gərək yoxdur. İndi öz torpağına uzaqdan həsrətlə, nisgillə baxmaq geridə qaldı. İndi ürəyimiz istəyəndə evimizə, yurdumuza gedəcəyik...

Mən indyə kimi deputat səlahiyyətimdən istifadə etməmişəm. Amma bu dəfə edəcəm. Yəqin Ağdama hamıdan tez gedəcəm. Birinci Pənah xanın qəbrini ziyarət edəcəm. Atamın anası o nəsildəndir. Ondan sonra anamla qardaşımın məzarını tapacam... Daha sonra evimizə gedəcəm. Həyətimizdə çadır quracam. O çadırda yaşaya-yaşaya atamın evini təzədən tikdirəcəm. Özü də əvvəl necə idisə o cür... Və Bakıdan birdəfəlik Ağdama köçəcəm. Oğlum da orda yaşamaq arzusundadır.

Bir istəyim də var. O vaxt Ağdamda 10 mindən çox qədim, müxtəlif növ kitabla zəngin böyük kitabxanam vardı. O kitabxanamın da 30-35 üzvü vardı. Oxuduqları kitabı qaytarıb, təzəsini götürürdülər. Mən Ağdama düşən kimi o üzvlər hamıdan qabaq gəlirdilər ki, təzə kitab gətirmisən? Ağdamda üç şəxsin böyük kitabxanası vardı. Jurnalist Surxay Əlibəylinin, Sadıq Murtuzayevin və mənim. Surxayın kitabxanasının yarısını nərddə mən udurdum. Uduzanda bir maşın kitabını yığıb gətirirdim evə... Evdə kitab saxlamaq çətindir deyə Ağdamın çıxacağında Şuşa yolunun üstündə həyət yeri götürmüşdüm, hasarını da yarımçıq da olsa çəkmişdim. Arzum o idi ki, orda bir ev-kitabxana tikim, hamının üzünə açıq olsun. Heyif ki, tək evim yox, o kitabların da hamısı yandı. Amma bu dəfə o arzumu yerinə yetirəcəyəm. Ölməyə də hələ hazırlaşmıram...

*Əvvəl-əvvəl ağzını kəhrizin gözünə dayayıb neçə il həsrətini çəkdiyi, az qala dadını unutmaqda olduğu bal kimi sudan içəcək. Sonra əl-üzünü möhkəm-möhkəm yuyacaq, amma bu o qədər də ləzzət eləməyəcək. Soyunub girəcək kəhrizin göz yaşı kimi təmiz, bumbuz suyuna. Gözlərini yumacaq və xoşbəxt uşaqlığını xatırlayacaq...*

*...Tez-tez qaçıb gəlirdilər bura. Bu göz yaşı kimi təmiz, bu bumbuz suda çimişməkdən doymazdılar. Onda onların özləri də göz yaşı kimiydilər, amma bumbuz deyildilər, od-alovluydular, təzə-təzə qızların ürəklərini yandırıb-yaxan vaxtlarıydı. Ən çox sevdikləri isə kəhrizdəki balaca balıqları tutmaq idi. Bəzən bu balıqları tutmaq üçün saatlarla yarışırdılar. Amma heç biri bu yarışda qalib gələ bilmirdi...*

*Gözlərini yumacaq, onunla bu kəhrizdə çimə-çimə böyüyən dostlarını xatırlayacaq. Çoxu müharibədə şəhid olmuşdu...*

*Uşaqlıqda olduğu kimi, əlini atıb balaca balıqlardan birini də tutacaq,*



*üz-gözündə sevinc açacaq. Neçə iliydi bu xatirələrin, bu şirinliyin, bu duruluğun həsrətini çəkmişdi.*

*Uzaqdan, lap uzaqdan, eyy lap uzaqdan Qədir Rüstəmovun səsi gələcək:*

*- Bu dərənin uzunu, Tanrı qaytardı quzunu...*

*... Qəflətən minlərlə at ağız-ağıza verib necə kişnəyib, göylər necə şaqqıldayacaqsa, çöllər diksinəcək, ağaclar diksinəcək, çaylar diksinəcək, dağlar diksinəcək. Şimşəklər göy üzünü parça-parça eləyəcək. Və göy üzündən də yuxarıdan necə bir Dolu başlayacaqsa, camaat dik atılacaq və sevinclə özünü atacaq bayıra...*

***Xəyalə MURADLI, "Azərbaycan"***

"Arxa cəbhə"nin qəhrəmanları

# Yaşam savaşçısı

## Vüqar Qurbanovun Vətən müharibəsi gündəliyi



...Yaralı əsgəri götürüb gecənin qaranlığında Cəbrayıldan yola çıxan təcili yardım maşını zülməti yararaq çala-çuxur yollarla birtəhər irəliləməyə çalışırdı. Gecikmək olmazdı, hər ötən an xəstəni həyatdan bir az da qoparırdı. Maşında olan tibbi heyət elə buradaca yaralı əsgərə ilk yardım göstərir, ölüm təhlükəsini ondan uzaqlaşdırmağa çalışırdı. Lakin ağıllarına belə gətirmirdilər ki, elə bu dəqiqələrdə onlar özləri də ölümlə rəqs edirlər...

Bu tükürpərdici gerçəkliyi isə həmin zülmət gecədə, maşının ətrafında partlayan mərmilərin səsini eşidəndə anlamışdılar. İlk dəfə idi ki, ölüm bu qədər yaxından öz soyuq üzünü göstərmişdi onlara... O da müharibənin əsl dəhşətini, ağrı-acısını çox yaxından hiss etmiş, bir andaca doğmalarının gülümsəyən çöhrələri kino lenti kimi gözlərinin önündən keçmişdi. Çox həyəcanlanmışdı, elə bu an, bu dəqiqə hər şeyin bitəcəyini, bu dünyadakı yaşamının sonlanacağını düşünmüşdü...

### O da yaşatmaq üçün savaşdı

Amma ömür dəftərinə hələ çox əsgərlərimizi ölümün pəncəsindən almaq, onları həyata döndərmək kimi xoşbəxt tale yazılmışdı Vüqar həkimin.

Onun da xalqımızın tarixin qızıl səhifələrinə həkk etdiyi 44 günlük qəhrəmanlıq salnaməsində payı oldu. O da sentyabrın 27-dən etibarən Vətənin harayına hay verənlərdən oldu. Könüllü olaraq cəbhəyə yollanıb, əsgər oldu. Amma əlinə silah almadı, torpaqlarımız uğrunda döyüşüb sinəsini gülləyə sipər edən igid oğullarımızı yaşatmaq üçün savaşdı. Vətən fədailərini həyata qaytarmaq uğrunda gecə-gündüz demədən çarpışdı.

Qurtara bildiyi canlar üçün özünü dünyanın bəxtəvəri saydı, İlahiyə sonsuz şükürlər etdi, bəzən isə insan övladının həkim qismində ölüm qarşısında aciz qaldığı, çarəsi tükəndiyi anlarda göz yaşlarına boğuldu, çox üzüldü, çox əzab çəkdi: "Bu nə kino idi, nə də televiziyada seyr etdiyimiz döyüş səhnələri. Normal şəraitdə çənə-üz travmaları ilə çox rastlaşmışdım, amma güllə, qəlpə yarası ilə yox. Buna görə də ilk anlarda istər-istəməz həyəcanlanırdım, çünki müharibə görməmişdim. Orada gördüyümüz yaralılar, sülh şəraitindəki yaralılardan çox fərqli idi. Bilisinizmi, o 44 gündə biz necə qorxmaz əsgərlərlə qarşılaşdıq, onların qəhrəmanlıqları ilə qürur duyduq?! Bilirsinizmi, həkimlərimiz həmin cəsur oğlanlarımızı sağaltmaq, ağrı-acılarını bir az da olsa azaltmaq üçün necə mübarizə apardılar?! Əslində, o 44 gündə yaşadıqlarımızı sözlə ifadə etmək çox çətindir, gərək ona canlı şahidlik edəsən..."

Tibb üzrə fəlsəfə elmləri doktoru, üz-çənə cərrahı, implantoloq Vüqar Qurbanov "Arxa cəbhənin qəhrəmanları"nda həkim kimi keçdiyi 44 günlük müharibə gündəliyini vərəqləyir...



### Həkimliyə sevgi ona ailəsindən irsən ötürülüb

1986-cı ildə Gəncədə ziyalı ailəsində dünyaya gələn Vüqar Qurbanova həkimliyə sevgi də ailəsindən irsən ötürülüb. Babası tanınmış əməkdar həkim Qurban Qurbanov Azərbaycan səhiyyəsində 40 ilə yaxın baş həkim kimi fəaliyyət göstərib.

Ondan sonra isə sənətini oğlu, yəni Vüqarın atası Asif Qurbanov hərbi həkim kimi davam etdirib. Azərbaycan hərb sahəsində xüsusi yeri və rolu olan Əməkdar həkim hazırda hərbi tibb sahəsindən təqaüdə ayrılıb. Elə Vüqarın anası da həkimdir və hərbi hospitalda fəaliyyətini davam etdirir, yaralı əsgərlərə baxır.

Babasının, valideynlərinin yolu ilə gedən Vüqar da həkimlik ixtisasına yönələrək, 2004-cü ildə yüksək balla Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinə qəbul olur. ATU-nu fərqlənmə diplomu ilə bitirərək bu universitetin doktoranturasına daxil olur. O, tibb üzrə fəlsəfə doktoru elmi adını aldıqdan sonra dövlət proqramı çərçivəsində Türkiyənin Samsun 19 mayıs Universitetinin Ağız və Üz-Çənə Cərrahiyyəsi kafedrasında asistent doktor olaraq fəaliyyət göstərir. Və PHD, yəni tibb üzrə fəlsəfə doktoru təhsilini ikinci dəfə orada tamamlayıb, 2018-ci ildə vətənə dönərək özəl bir klinikada üz-çənə cərrahı implantoloq olaraq fəaliyyət göstərməyə başlayır.

- Hərbçi, hərbi həkim ailəsində böyümək çox çətin idi. Açıq desəm, ümumiyyətlə, gənclik dövrüm, orta təhsil, tələbəlik illərim çətinliklərlə keçib. Atam Birinci Qarabağ savaşında hərbi həkim kimi aktiv iştirak edib. Müharibənin çox şiddətli dövrlərində, bəzən elə olurdu ki, aylarla atamın üzünü görə bilmirdik. O zamanlar evdə bütün yük anamın üzərinə düşürdü. Xatırlayıram, Türkiyəyə getdiyim zaman orada da böyük çətinliklərim oldu. İkinci dəfə təhsil alanda yaşım 30-un üzərində idi. Təbii ki, yaşın öz sözü var idi, ailə problemləri var idi. Amma bütün bu çətinliklər hər zaman mənə əlavə stimul verirdi və onları aşmağı bacarırdım. Bəlkə də o dövrlərdə yaşadığım çətinliklərin mənə aşıladığı hisslər idi ki, 44 günlük müharibə başlayanda yenidən o hissləri özümdə duyaraq cəbhəyə yollandım.



### Vətən məni çağırdı

*2020-ci ilin başlanğıcı bütün dünya, o cümlədən də Azərbaycan üçün ağır bir il oldu. Bəşəriyyət COVİD-19 adlı bir bəla ilə üz-üzə qaldı və bu təhlükəli virusa yoluxan insanların həyatını xilas etmək kimi müqəddəs missiya da həkimlərimizin öhdəsinə düşdü. Vüqar həkim də həmin həkimlərin sırasına qoşulub COVİD-ə qarşı ilk sırada savaşmaq istəyirdi, amma qismətində 2020-ci ilin sonlarını daha müqəddəs bir cəbhədə mübarizə aparmaq var imiş...*

- 27 sentyabrdan əvvəl bəzən fikirləşirdim ki, həkimlərimizin hamısı ön cəbhədədir. Yəni bu günün bəlası COVID-lə mübarizə aparırdılar və fikirləşirdim ki, nə gözəl ixtisasları var ki, onlar insanlara yardım edirlər, amma mənim üz-çənə cərrahı olaraq heç kimə faydam dəymir. Lakin fürsət elə gətirdi ki, 2020-ci ilin sonlarına doğru, sentyabr ayında Vətən məni də çağırdı. İxtisasım da o qədər lazımlı oldu ki, elə ilk gündən, yəni sentyabrın 28-dən bu proseslərə könüllü qoşuldum və demək olar ki, bitən günə qədər müxtəlif bölgələrdə qürurla və fəxrlə fəaliyyət göstərdim.

Əvvəlcə Gəncə Beynəlxalq Xəstəxanasında və Abbas Səhhət adına şəhər xəstəxanasında, daha sonra isə Füzulidə Diqnostika Mərkəzində fəaliyyət göstərdim. Qeyd edim ki, həmin zaman tanıdığım 100-ə yaxın həkim könüllü olaraq bu prosesə qoşuldu. Bəzən deyirlər, cərrahlar hərbidə formalaşır, onlar hərbi şəraitdə özlərini sübut edirlər. Amma könüllü olaraq bu prosesə qoşulan həkimlərimizin fikri bu deyildi. Biz çalışdığımız qədər minimum zərər verməklə, əsgərlər üzərində ən müasir avadanlıqlardan, texnologiyalardan istifadə etməklə uğurlu nəticələr almaq, bütün yaralıları sağaltmaq idi.

Həm də biz həkimlər onlara həkimlikdən əlavə mənəvi dayaq da dururduq. Çünki biz o yaralı əsgərləri qarşılayan ilk insanlar idik. Onlara verdiyimiz ilk sual susuzluqla, aclıqla, telefonla əlaqəli idi. Çalışırdıq mümkün qədər onları ailələri ilə danışdıraq. Bəzən heç ailələri ilə danışmaq istəmirdilər, deyirdilər ki, "həkim, evdəkilər yaralı olduğumu bilməsinlər".

Biz bu 44 gün ərzində çox cəsarətli, çox qorxmaz insanlar gördük. Onların içərisində eləsi var idi ki, günlərlə döyüşdə idilər, yaralı idilər, amma "susuzsanmı", "acsanmı" sualına, "həkim, yemək varsa yeyərəm", "su varsa içərəm" cavabı verirdilər. "Yemək, su verin" sözünü bir dəfə də olsun onların dilindən eşitmədik...

### Göydə Allah həmin yaralını saxladısa, yerdə də biz həkimlər onun həyatını xilas etdik

*Amma Vüqar həkim bu 44 gün ərzində təkcə müharibə yaralılarının deyil, cəbhədən kilometrlərlə uzaqda yerləşən doğma Gəncəsinin mənfur ermənilər tərəfindən artileriya atəşinə tutulması nəticəsində dağıntılar altında qalan mülki vətəndaşların da imdadına yetməli olmuşdu...*

- Gəncədə 4 dəfə böyük partlayış oldu. Hətta iki mərmi xəstəxanamızın çox yaxınlığına düşdü. Bomba düşdükdən 10 dəqiqə sonra mən artıq hadisə yerində idim. Orada dağıntıların altından uşaqları çıxarırdıq, dəqiqələr ərzində 20-25 yaralını xəstəxanaya təxliyə edə bildik.

Bir müddət sonra Füzulidə olan dostum Fəxrəddin həkim zəng etdi ki, "Vüqar, sən burada lazımsan". Dərhal Füzuliyə yollandım. Müharibənin ən gərgin getdiyi günlər idi və ora tamam fərqli idi.

Öncə orada formalaşmış bir kollektiv yaratdıq. Bu kollektivin yaradılmasında üz-çənə cərrahı, biz ona "052 komutanı" deyirdik, Oqtay Mehdiyevin və Elgün Səmədovun böyük əməyi oldu.

İstər Gəncədə, istərsə də Füzulidə olanda hər zaman şükür edirdim ki, nə yaxşı ki buradayam. Bunu ona görə deyirdim ki, xeyli xəstəni həyata qaytara bilirdik. Şəki şəhərindən olan İlkin adlı yaralını isə heç zaman unutmaram. Deməliyəm ki, əgər göydə Allah həmin yaralını saxladısa, yerdə də biz həkimlər onun həyatını xilas etdik. Düz 8 saat onu əməliyyat etdim, çox böyük travma almışdı. Üzün göz nahiyəsindən boyuna doğru böyük bir ağac parçası batmışdı və möcüzə nəticəsində gözü zədələnmişdi. Mən isə onu elə səliqəli şəkildə əməliyyat etməli idim ki, gözü sağ qalsın və həyati orqanları, damarları zədələnməsin. Əslində, həmin xəstə Gəncəyə gəldikdə heç kim inanmırdı ki, biz ona kömək edə bilərik. Çox düşündük ki, bəlkə xəstəni Bakıya göndərək, amma vaxt itirmək olmazdı, xəstənin tənəffüsündə ciddi narahatlıq var idi. Bəlkə də cavanlığımdan, çılğınlığımdan irəli gəldi ki, anidən qərar verdim və 5 saatlıq əməliyyatdan çıxmağıma baxmayaraq, xəstəni əməliyyata hazırlamalarını söylədim. Əməliyyat ciddi bir briqada tərəfindən həyata keçirildi. Çox şadam ki, bu briqadada aparıcı həkimlərdən biri də mən oldum. Həmin əməliyyatı uğurla bitirdikdən sonra bütün tibbi heyət bir-birini qucaqlayıb təbrik etdi. Daha sonra onu üç gün Gəncədə saxlayıb, Bakıya təxliyə etdik.

Başqa bir xəstəm isə güllə yarası almışdı və çox qan itkisi, qanaxma ilə gəlmişdi. Həmin xəstəni haradasa 7-8 saatlıq bir əməliyyat nəticəsində Bakıya çatdırdıq.

Çox xoşbəxtəm ki, xəstələrim arasında həqiqətən ağırlaşmış və həyatını itirən xəstə olmadı, onların hər birini Bakıda olan xəstəxanalara yönəldə bildim.

### Sülh müqaviləsinə saatlar qalmış çox ağır bir yaralı gəlmişdi

- Amma ümumi profil olaraq, çox ağır xəstələr də gəlirdi və onlardan həyatlarını itirənlər də oldu. Hətta sülh müqaviləsinə saatlar qalmış çox ağır bir yaralı gəlmişdi. Orada həkimlərimiz həmin əsgərin həyatda qalması üçün saatlarla işlədilər. Əlimizdən gələn hər şeyi edirdik ki, təki həmin əsgər sağ qalsın. Hətta son anda İlqar həkim ürək masajı etdi və ürəyinin geri döndüyünü hiss etdik. Bu zaman keçirdiyimiz sevinc hissini sözlə ifadə etmək çox çətindir. Amma tibbin də öz qanunu var, müəyyən bir müddət ürək fəaliyyət göstərsə də, beyin oksigensiz qaldığı üçün biz o xəstəni itirdik.

Və həmin hadisədən saatlar sonra müharibənin başa çatması ilə bağlı müqavilə imzalandı...

Mən cəbhədə olub, həmin hadisələri, oradakı yaralıları gördükdən sonra bu müqavilənin hansı həyati anlama gəldiyini daha aydın təsəvvür etdim.

Çalışdığım hər iki xəstəxananın yaxınlığında tibbi ekspertiza bölməsi var idi, ora şəhid olmuş insanlar gətirilirdi. Ora gətirilən şəhidlərin ata-anasının naləsi hələ də qulaqlarımdan getmir. Onlar deyirdilər "kaş övladımız yaralı gələrdi, gözü, əli, ayağı olmayaydı, amma nəfəsi üstündə olaydı". Bu cür ürək dağlayan ifadələri hər saat eşidirdik. Müharibənin bitməsi bütün bu faciələrin, dəhşətlərin bitməsi demək idi.

Həm də qürurlandırıcı idi ki, biz bu müharibəni qələbə ilə bitirdik. Bu qələbəni bizə Ali Baş Komandan İlham Əliyev ərməğan etdi, bu 44 gün ərzində dövlət başçımızın necə əzmlə mübarizə apardığını gördük. Təsəvvür edin ki, əməliyyatı dayandırmadan televiziyanı qoşub Ali Baş Komandanın çıxışını, tvitlərini gözləyirdik ki, görək bu gün hansı torpağımız azad olunub?

### O həkimlərin adlarını çəkməsəm olmaz...

*Müsahibə boyu Vüqar həkim dönə-dönə qürurla vurğulayırdı ki, bu qələbədə ön cəbhənin hərbçiləri ilə yanaşı, həkimlərin də payı oldu. Və o, söylədi ki, Gəncə və Füzuli qəhrəmanları deyə iki qrupa böldüyü həkimlərimizin, tibb işçilərimizin hamısının mümkün olmasa da, heç olmasa bir qisminin adını qeyd etməsək olmaz...*

- Həqiqətən, müharibə ərzində könüllü həkimlərimizdən ibarət inanılmaz bir kollektiv formalaşmışdı. Gəncədə olan həkimlərimizin aparıcı qüvvəsi Neftçilər Xəstəxanasının həkim heyəti idi. Burada Elmir Əsgərov, Musa həkim, neyrocərrahlarımız Zaur, Elşən, anestezioloqumuz Fuad həkimin adlarını çəkmək istəyirəm. Damar cərrahlarımız Seymur Allahverdiyevin rəhbərliyi altında Gəncə şəhərində çox uğurlu əməliyyatlar icra etdilər. Eyni zamanda da göz cərrahlarımızın fəaliyyətini vurğulamalıyam.

Bir xüsusi nüansı da qeyd edim ki, Gəncədə olanda Türkiyədən gənc könüllülərdən ibarət bir həkim ordusu bizə dəstəyə gəldi, onların çox faydasını gördük. Anestezioloq, reanimotoloq Rəşad, Ərəstun, cərrah Araz həkimin adlarını çəkmək istəyirəm. Füzulidən olan Elnurə həkim çox cəsarətli işlər görürdü, eyni zamanda, orta tibb bacıları Günay, Aynur xanım və daha adını çəkə bilmədiyim yüzlərlə tibb işçisinin hər birinin bu qələbədə haqqı, payı oldu.

Onu da deməliyəm ki, Füzulidə çox öndə olan qorxmaz həkimlərimiz var idi ki, onlar hərbi səhra cərrahiyyəsi sistemində çalışırdılar, orada əməliyyat edirdilər. Həmçinin oradakı tibb personalının əməyini sözlə ifadə etmək çox çətindir.

Yenə də deyirəm, bizim çox cəsarətli həkimlərimiz var. Aralarında kolleqalarım, diş həkimləri, üz-çənə cərrahları da var ki, biz onları şəhid verdik. Bu həkimlərin ailələrinin qarşısında baş əyirəm. Onların canı, qanı bahasına bu qələbəni aldıq. O insanlar çox-çox cəsarətli idilər ki, birbaşa ön bölgədə xidmət göstərirdilər, bizə yuxu kimi gələn müharibənin tam içərisində idilər.

### Yaralı əsgərlərimizə həyat verdi, onlarla birgə yaşadı....

- Biz bu müharibə zamanı şəhidlər verdik, dəyərli insanlarımızı itirdik. Bu insanlar gələcək nəsillərimizin firavanlığı, xoşbəxtliyi üçün canlarından keçdilər. Biz də onların ailələrinə, yaxınlarına, övladlarına baxmaq məcburiyyətindəyik. Bu bir vətəndaşlıq borcu deyil, məcburiyyətimizdir. Bu, artıq hər birimizin ailəsində üç yox, beş övladının olması anlamına gəlməlidir. Vətən uğrunda şəhid olanların övladlarının da haqqıdır ki, bizim övladlarımız kimi təhsil alsınlar, həyat şəraitləri olsun. Təbii ki, dölətimiz onlar üçün hər şey edəcək, amma biz də öz növbəmizdə şəhidlərin bizə əmanətlərindən muğayat olmalıyıq.

Dünən bir yaralı əsgərimizin şəhid olduğunu eşitdim. Hansı ki, onu yaralı olduğu üçün hospitala göndərmişdik ki, müalicə alsın. Amma o, qaçıb yenidən müharibəyə qatılmışdı və növbəti yarasından şəhid oldu. Baxın, biz vətənini canından çox sevən bu cür oğlanlar itirdik. Onların bu fədakarlıqları qarşısında isə nə etsək, dəryada damla misalı qədər azdır...

*"Əsl həkim hər xəstə ilə yaşayıb öləndir", Stefan Zveiqə məxsus bu fikirlər isə elə Vüqar həkimin öz facebook səhifəsindəki paylaşımındandır. Bəli, o da əsl həkim olmağı bacaranlardan oldu. Yaradanın özündən sonra, həkimlərə bəxş etdiyi xilasedici, həyata qaytaran kimi müqəddəs missiyasını yerinə yetirərək, elə müqəddəs Vətən savaşımızda da əsl həkim kimi davranaraq yaralı əsgərlərimizə həyat verdi, onlarla birgə yaşadı...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Böyük Qələbənin sonsuz sevinci

2020-ci ilin 27 sentyabr - 10 noyabr tarixləri 30 ilə yaxın davam edən erməni işğalına son qoyulması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası, milli qürur hisslərimizin yüksəlməsi və uzun illər həsrətində olduğumuz Böyük Qələbənin şanlı tarixidir.

Şuşanın və digər əzəli torpaqlarımızın azad edilməsi ilə nəticələnən zəfər yürüşü xalqımızın son yüzillik ərzində qazandığı ən möhtəşəm tarixi Qələbəyə çevrildi. Azərbaycan bu qələbəni qazanmaqla tarixinin, sözün əsl mənasında, qızıl səhifəsini yazdı. Bu Qələbə Azərbaycan tarixində baş verən elə bir misilsiz hadisədir ki, yüz illər sonra gələn nəsillər də bu hadisəni böyük qürur və iftixar hissi ilə xatırlayacaqlar. Əminliklə söyləmək olar ki, bütöv və qüdrətli Azərbaycanın uzunmüddətli perspektivdə strateji inkişafının təməl daşına çevrilən bu Qələbə xalqımız üçün əsl tarixi həqiqət anı missiyasını daşıyacaqdır.

Yaşadığımız günlər bütün dünyaya Azərbaycanda Dövlət-Xalq-Lider birliyinin sarsılmaz olduğunu nümayiş etdirdi. Beynəlxalq arenada rastlaşdığımız çoxsaylı ədalətsiz yanaşmalar və qarşılaşdığımız ikili standartlar xalqımızın Böyük Qələbəyə olan inamını bir an belə sarsıtmadı, Azərbaycan xalqının, dövlətinin və Azərbaycan Liderinin dəmir iradəsinə təsir göstərmədi.

Möhtəşəm tarixi Qələbənin əldə edilməsi həm də möhkəm ictimai-tarixi və hərbi-siyasi zəminə əsaslanır. Öz doğma torpaqlarının işğalından ötən 30 il ərzində xalqımız təkcə bu möhtəşəm zəfəri səbirlə gözləməmiş, həm də özünün qətiyyətli liderinin, Müzəffər Ali Baş Komandanının, ölkə Prezidentinin rəhbərliyi altında bu tarixi həqiqət anına doğru günbəgün addımlamışdır. Şübhəsiz ki, Azərbaycanın bu tarixi Qələbəsinin bilavasitə müəllifi və memarı ölkə rəhbəri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir. Azərbaycan Respublikasının son 17 illik möhtəşəm inkişafı, tariximizin bu şərəf və şöhrət dolu anları məhz onun adı və titanik fəaliyyəti ilə bağlıdır.

Tarixinin ən çətin məqamlarında Azərbaycan xalqı həmişə öz oğullarının, liderlərinin qeyrətinə sığınmışdır. Tarixin ibrət dərsləri bir daha göstərir ki, böyük tarixi şəxsiyyət zirvəsinə yüksələn əsl lider olmadan xalqın həyatını zənginləşdirən möhtəşəm hadisələri, tarixi qələbələri təsəvvür etmək mümkün deyil. Hər bir xalqın həyatında elə həqiqət anı yetişir ki, məhz həmin anda xalq bütün dünyaya özünün kimliyini tanıdır. Azərbaycanlılar üçün əsl həqiqət anına çevrilən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan Böyük Qələbə bir daha bütün dünyanın gözü qarşısında Azərbaycan xalqını işğala boyun əyməyən, tarixi ədalətsizliklə barışmayan, öz haqları uğrunda mübarizə aparan yenilməz bir xalq kimi nümayiş etdirdi.

2003-cü ildən ölkəyə rəhbərlik edən cənab İlham Əliyevin məqsədyönlü daxili və xarici siyasəti, xalqımızın haqq işini və Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq yolunda sərf etdiyi gərgin əmək, qazanılan diplomatik uğurlar, rasional və balanslaşdırılmış siyasət, xalqın rifahının yüksəlməsini hədəfləyən düzgün sosial-iqtisadi platforma son nəticədə dondurulmuş hesab edilən münaqişənin kökündən həllini, "status-kvo"nun aradan qaldırılmasını, "təmas xətti"nin ləğv edilməsini və nəhayət, Azərbaycanın tarixi Qələbəsini təmin etdi.

Böyük Qələbənin qazanılmasında Müzəffər Azərbaycan Ordusunun, Şanlı Azərbaycan Əsgərinin müstəsna rolu danılmazdır. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və yaradılan, cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin formalaşdırıb gücləndirdiyi Şanlı Azərbaycan Ordusu tarixi Qələbənin qazanılmasında öz sözünü dedi.

Yaxın tariximizə nəzər saldıqda məlum olur ki, Şanlı Azərbaycan Ordusunun Böyük Qələbəyə gedən ən qısa yolu 2016-cı ilin Aprel döyüşlərindən keçir. Xain düşmənin təxribatının qarşısını almaq məqsədilə həyata keçirilən 2016-cı ilin şanlı Aprel döyüşləri, sözün əsl mənasında, Müzəffər Azərbaycan Ordusunun sınaq yürüşü idi. Lələtəpənin, Cocuq Mərcanlının və digər strateji ərazilərin mənfur düşməndən azad edilməsi cənab Prezidentin qeyd etdiyi kimi, "tarixi torpaqlarımıza Böyük Qayıdış"ın başlanğıcını qoydu. Aprel döyüşləri Azərbaycan əsgərinin öz gücünə inamını artırdı, Azərbaycan Ordusunun gücünü düşmənə göstərdi, xalqın öz ordusuna olan etimadını daha da yüksəltdi.

Mənfur xislətindən yaxa qurtara bilməyən və Aprel döyüşlərindən dərs almayan düşmən yenidən öz çirkin niyyətini həyata keçirərək 2020-ci ilin 12 iyul tarixində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində növbəti təxribata əl atdı. 13-14 iyul tarixlərində Müzəffər Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyatlar düşmənə növbəti dəfə sarsıdıcı zərbə endirdi. Düşmənin 100-ə qədər canlı qüvvəsi və çoxlu sayda döyüş texnikası məhv edildi. Lakin mənfur düşmən görünür bu dəfə də düçar olduğu acı məğlubiyyətdən lazımi nəticə çıxara bilmədi.

Azərbaycanın əzəli torpaqları hesabına "ikinci erməni dövləti" yaratmaq xülyasından əl çəkə bilməyən, hər vasitə ilə doğma torpaqlarımızı qəsb etməyə çalışan mənfur düşmən 2020-ci ilin 27 sentyabr tarixində növbəti təxribata əl atdı. Şanlı Azərbaycan Ordusu bu dəfə də Müzəffər Ali Baş Komandanın qətiyyəti və iradəsi sayəsində düşmənə sarsıdıcı zərbələr endirdi. Azərbaycan Ordusunun Tarixi Qələbəyə qədər davam edən budəfəki hərbi əməliyyatları düşmənin minlərlə canlı qüvvəsinin, hərbi və zirehli texnikasının məhv edilməsi, bir-birinin ardınca doğma torpaqlarımızın işğaldan azad olunması ilə nəticələndi.

Möhtərəm Prezidentin qeyd etdiyi kimi, "düşmən bu dəfə başından elə ağır zərbə aldı, bir də çətin ki, özünə gələ bilsin". Lakin döyüş meydanında Müzəffər Azərbaycan Ordusunun zərbələrinə tab gətirə bilməyən və qəhrəman Azərbaycan Əsgərinə cavab vermək iqtidarında olmayan mənfur düşmən öz xain xislətinə sadiq qalaraq Azərbaycanın dinc mülki əhalisini sivil dünyanın gözü qarşısında raket atəşinə tutdu. Belə ki, 2020-ci ilin 4 oktyabr, 11 oktyabr və 17 oktyabr tarixlərində cəbhə bölgəsindən 60 km aralıda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəni, ikinci mühüm sənaye şəhəri Mingəçeviri, 28 oktyabr tarixində isə Bərdə şəhərini raket atəşinə tutan erməni cəlladları bir daha özlərinin əsl mahiyyətini bütün dünyaya nümayiş etdirdilər.

Düşmənin məkrli planlarını düzgün qiymətləndirən Azərbaycan bu dəfə də atdığı addımlarla erməniləri utandırmağı, bütün dünyanı isə heyrətə salmağı bacardı. Həmişə olduğu kimi, bu dəfə də dinc və humanist mövqe sərgiləyən Azərbaycanın Müzəffər Ali Baş Komandanın qeyd etdiyi kimi, "Biz erməni deyilik, biz qisasımızı döyüş meydanında alacağıq" prinsipi ilə hərəkət edərək düşmənə layiq olduğu yerini göstərdi.

Şanlı Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü 30 ilə yaxın müddətdə erməni işğalında olan əzəli torpaqlarımızın azad edilməsi və Böyük Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandanımız və Qəhrəman Azərbaycan Əsgəri 10 noyabrı Azərbaycan tarixinə qızıl hərflərlə yazdı.

Qürurverici haldır ki, bu gün erməni cəlladları məhz Azərbaycan Liderinin diktə etdiyi şərtlər və müəyyənləşən qrafik üzrə Azərbaycanın işğal edilmiş torpaqlarından rədd olurlar. Lakin torpaqlarımızı tərk edən mənfur düşmən burada da özünün erməni xislətinə xas olan nankorluğa əl atır. Tarixi erməni vandalizmi yenə də davam etdirilir. Doğma torpaqlarımızı dinc şəraitdə tərk etməsinə imkan verdiyimiz ermənilər getməzdən öncə tikililəri vəhşicəsinə dağıdır və yandırır, meşələrimizi qırmaqla ekoloji terror törədirlər.

Son iki yüz ildə ermənilərin azərbaycanlı əhaliyə qarşı yeritdiyi etnik təmizləmə və soyqırımı siyasəti, Azərbaycanın əzəli torpaqları hesabına öz ərazilərini genişləndirmək cəhdləri və son günlərdə baş verən erməni vandalizmi bir daha bizim necə məkrli düşmənlə qonşu olduğumuzu göstərdi. Lakin, mənfur düşmənin bütün cəhdlərinə baxmayaraq, tarixi Azərbaycan torpaqları işğaldan tam azad edilir və özünün əsl sahiblərinə qaytarılır.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və ölkəmizin birinci xanımı Mehriban Əliyevanın işğaldan azad olunmuş Füzuli, Cəbrayıl və Ağdam rayonlarına səfər etmələri hər birimizdə böyük fəxarət və qürur hissi yaradıb. Qətiyyətli Liderin bu addımı yaşadığımız sonsuz qələbə sevincini daha da artırmış oldu. Digər tərəfdən də, döyüş meydanında qazandığımız rəşadətli qələbənin və diplomatik masada əldə etdiyimiz qalibiyyətin memarı olan Müzəffər Ali Baş Komandanımız bununla işğaldan azad olunan ərazilərimizdəki erməni vəhşiliyini dünyaya bir daha nümayiş etdirdi.



30 ilə yaxın müddətdə düşmən tapdağında olan ərazilərdə quruculuq işlərinə dərhal start verilib. Dövlət başçısının Ağdam şəhərinə səfəri çərçivəsində dediyi aşağıdakı fikirlər tarixi torpaqlarımızda həyata keçiriləcək genişmiqyaslı işləri aydın şəkildə ifadə edir: "Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik".

Azərbaycan Respublikasının Prezidentinin Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun, eləcə də Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi haqqında müvafiq sərəncamları bu sahədə atılan ilk addımlardır. Fikrimizcə, yaxın tariximizdə bu silsilədən olan çoxsaylı sənədlərin imzalanmasının və müvafiq işlərin həyata keçirilməsinin şahidi olacağıq.

Bu gün, sözün əsl mənasında, hər bir azərbaycanlının və bütöv Azərbaycanın ürəyi Şuşada, Ağdamda və düşmən işğalından azad olunan digər tarixi torpaqlarımızda döyünür. Var olsun Müzəffər Ali Baş Komandanımız! Var olsun Şanlı Azərbaycan Ordusu!

Qarabağ Azərbaycandır!

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru, iqtisad üzrə fəlsəfə doktoru***

***Nizami ZEYNALOV,***
***Mingəçevir Dövlət Universitetinin dekanı, tarix üzrə fəlsəfə doktoru***

## “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1655-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, №2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203; 2020, № 6, maddə 675, № 8, maddə 1017) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.4.1-ci maddəyə “formalaşdırılması” sözündən sonra “(bu Qanunun 8-1.2-ci maddəsi nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

1.2. 8-1-ci maddənin mətni 8-1.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 8-1.2-ci maddə əlavə edilsin:

“8-1.2. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan publik hüquqi şəxsin dövlət qeydiyyatı onun idarəetmə orqanlarının üzvləri tam tərkibdə təyin edilmədiyi halda da həyata keçirilir.”.

**Maddə 2.** “Peşə təhsili haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986, № 11, maddə 1685; 2020, № 5, maddələr 508, 514, № 7, maddələr 831, 851) 16.2-ci maddəsinə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2020-ci il*

## “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 sentyabr tarixli 172-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 12 aprel tarixli 48 nömrəli və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə” 2018-ci il 18 iyun tarixli 140 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 sentyabr tarixli 172-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 8-1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. “Peşə təhsili haqqında” Azərbaycan Respublikası Qanununun 16.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunun 16.2-ci maddəsində “orqan (qurum)” dedikdə tabeliyində dövlət peşə təhsili müəssisəsi olan icra hakimiyyəti orqanları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan digər hüquqi şəxslər nəzərdə tutulur.

2. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; 2018, № 12 (I kitab), maddə 2614; 2019, № 2, maddə 211; 2020, № 8, maddə 1029) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə “5-1.9-cu” sözlərindən sonra “, 8-1.2-ci” sözləri əlavə edilsin;

2.2. 2.9-cu və 2.10-cu bəndlərdə “8-1-si” sözləri “8-1.1-ci” sözləri ilə əvəz edilsin.

3. “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1230; 2019, № 5, maddə 841; 2020, № 7, maddə 893) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə “10.21-ci” sözlərindən sonra “, 16.2-ci” sözləri əlavə edilsin;

3.2. 2.4-cü bənddə “müvafiq icra hakimiyyəti orqanının” sözləri “orqanın (qurumun)” sözləri ilə əvəz edilsin;

3.3. 2.5-ci bənddə “müvafiq icra hakimiyyəti orqanının” sözləri “orqanın (qurumun)” sözləri ilə əvəz olunsun və həmin bəndə “icra hakimiyyəti orqanları” sözlərindən sonra “,dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan digər hüquqi şəxslər” sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 30 sentyabr tarixli 172-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 noyabr 2020-ci il*

## “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 76; 2007, № 10, maddə 933; 2008, № 6, maddələr 464, 475; 2013, № 1, maddə 19, № 6, maddə 618, № 11, maddələr 1240, 1306; 2017, № 7, maddə 1278; 2018, № 3, maddə 400, № 5, maddə 869; 2019, № 3, maddə 380, № 12, maddə 1893; 2020, № 7, maddə 829) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.0.1.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 4.0.1.14-cü maddə əlavə edilsin:

“4.0.1.14. övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə müavinət.”;

1.2. Aşağıdakı məzmunda 5.1-1-ci və 7.0.10-4-cü maddələr əlavə edilsin:

“5.1-1. Bu Qanunun 4.0.1.1 - 4.0.1.3-cü və 4.0.1.5 - 4.0.1.6-cı maddələrində nəzərdə tutulan müavinətlərdən birini almaq hüququ olan şəxslərin bu Qanunun 4.0.1.14-cü maddəsində nəzərdə tutulan müavinəti almaq hüququ yarandıqda, həmin şəxslərə hər iki müavinət təyin edilir.”;

“7.0.10-4. övladlığa götürülən uşağa görə müavinət - valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 3-18 yaş arası uşağı, o cümlədən 0-18 yaş arası sağlamlıq imkanları məhdud uşağı övladlığa götürən şəxsə 2021-ci il yanvarın 1-dən sonra övladlığa götürülən uşaq üçün (uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi təqdim edildikdə).”;

1.3. 9-cu maddə üzrə:

1.3.1. 9.1.2-ci maddəyə “əlilliyə” sözündən əvvəl “18 yaşından yuxarı əlilliyi olan şəxslərə” sözləri əlavə edilsin;

1.3.2. 9.1.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 9.1.11-ci maddə əlavə edilsin:

“9.1.11. övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə müavinət - 2021-ci il yanvarın 1-dən tez olmamaqla uşağın 18 yaşı tamam olan ayın sonunadək təyin edilir.”;

1.3.3. aşağıdakı məzmunda 9.1-2-ci maddə əlavə edilsin:

“9.1-2. Bu Qanuna uyğun olaraq ötən dövr üçün hesablanan müavinətin ümumi məbləği ötən dövrdəki ayların sayına bölünərək aylıq müavinətin üzərinə əlavə edilməklə ödənilir.”;

1.4. 10.2-ci maddəyə “7.0.12-ci” sözlərindən əvvəl “4.0.1.14-cü,” sözləri əlavə edilsin;

1.5. Aşağıdakı məzmunda 10.2-1-ci maddə əlavə edilsin:

“10.2-1. Bu Qanunun 4.0.1.14-cü maddəsində nəzərdə tutulan müavinət uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi əsasında uşağı övladlığa götürən şəxsə və ya onlardan birinə təyin edilir.”;

1.6. 11.1.7-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 11.1.8-ci maddə əlavə edilsin:

“11.1.8. övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə müavinət - övladlığa götürülən uşaq vəfat etdikdə, habelə övladlığa götürülən uşağın ölmüş elan edilməsi və ya itkin düşmüş hesab edilməsi, eləcə də müavinəti alan şəxs tərəfindən uşağı övladlığa götürmənin ləğv olunması haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi olduqda.”.

**Maddə 2.** Bu Qanun 2021-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

## “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, №4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765; 2018, № 5, maddə 872, № 12 (I kitab), maddə 2505; 2019, № 8, maddə 1382, № 12, maddə 1908; 2020, № 5, maddə 507, № 6, maddə 670, № 7, maddə 827) 5-ci maddəsinin ikinci hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar övladlığa götürüldükdə də bu hüququ saxlayırlar.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011; Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 164-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 192.12-ci maddə əlavə edilsin:

“192.12. Qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlanılmasına görə -

vəzifəli şəxslər üç min manat məbləğində cərimə edilir.”.

2. 599-cu maddənin adında və mətnində “Ali” sözü “Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrinin “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”nə, ali” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 186-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 186-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 sentyabr tarixli 1165 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.4-cü bənddə “192 - 194-cü” sözləri “192.1 - 192.11-ci, 193-cü, 194-cü” sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 5.4-1-ci bənd əlavə edilsin:

“5.4-1. həmin Məcəllənin 192.12-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və ya Azərbaycan Respublikasının Təhsil Nazirliyi baxır;”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 186-VIQD nömrəli Qanundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 noyabr 2020-ci il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, №11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, №11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, №11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013) 102-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 102.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

“102.3. I və II dərəcə əlilliyi olan şəxslərin (müharibə ilə əlaqədar əlilliyi olan şəxslər istisna olmaqla), sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların, daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa və ya I dərəcə əlilliyi olan şəxsə baxan və onunla birlikdə yaşayan valideynlərdən (o cümlədən övladlığa götürən şəxslərdən) birinin (özlərinin istəyi ilə), arvadın (ərin), himayəçinin və ya qəyyumun hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.”.

2. 102.4.4-cü maddə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

## “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 181-VIQD nömrəli Qanununun tətbiqi və “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 181-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 916; 2014, № 3, maddə 251; 2016, № 1, maddə 69; 2018, № 7 (I kitab), maddə 1454; 2019, № 4, maddə 640) 1.1.11.2-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.1.12-ci yarımbənd əlavə edilsin:

“1.1.12. övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə müavinət:

1. övladlığa götürülən uşağa (bu yarımbəndin ikinci abzasında qeyd olunan uşaqlar istisna olmaqla) görə - 160 manat;

2. övladlığa götürülən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə - 480 manat.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2021-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 noyabr 2020-ci il*

## “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 203, № 3, maddə 404; 2017, № 7, maddə 1269; 2019; № 8, maddə 1377) 8.2.4-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

“8.2.4. strukturun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiqi;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində Kəlbəcər rayonunun azad olunması barədə məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Müdafiə Nazirliyinin açıqlamasına istinadla Azərbaycan, Rusiya və Ermənistan liderlərinin birgə bəyanatına uyğun olaraq, Azərbaycan Ordusunun bölmələrinin noyabrın 25-də Kəlbəcər rayonuna daxil olduğu bildirilib.

Qeyd edilib ki, bəyanata əsasən, Kəlbəcər noyabrın 15-də təhvil verilməli idi, amma Azərbaycan humanitar səbəblərdən bu tarixi 10 gün təxirə salmışdı.

Məqalədə 1990-cı illərin əvvəllərində baş verən müharibə zamanı azərbaycanlıların digər yaşayış məntəqələri kimi, Kəlbəcəri də tərk etmək məcburiyyətində qaldığı, sonradan burada məskunlaşmış ermənilərin üçtərəfli bəyanata uyğun olaraq, rayonun Azərbaycana təhvil verilməsi ərəfəsində yaşadıqları evləri tərk edərkən aparılması mümkün olmayan əşyaları, binaları yandırdıqları, hətta ağacları kəsib doğradıqları barədə faktlar əksini tapıb.

Bildirilib ki, sentyabrın sonundan başlayan döyüşlərdə Azərbaycan Ordusunun qazandığı qələbələrin nəticəsində əldə olunan razılaşmaya əsasən, Ermənistan artıq Ağdam rayonunu Azərbaycana qaytarıb, Laçın rayonu isə dekabrın 1-dək ölkəmizə təhvil veriləcək.

❖ ❖ ❖




İndoneziyanın "iNews.id" saytı Azərbaycan Ordusunun Kəlbəcər rayonuna daxil olmasından bəhs edən material yayıb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, saytın hazırda Azərbaycanda olan müxbiri Əhməd İslami Camilin müəllifi olduğu "Azərbaycan Ermənistanın tərk etdiyi Kəlbəcər rayonuna daxil olur" adlı yazıda qeyd edilir ki, Kəlbəcər hərbi əməliyyatların dayandırılması barədə imzalanan üçtərəfli sənədə əsasən, Azərbaycana qaytarılan üç rayondan ikincisidir.

Yazıda Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi məlumatından sitat gətirilərək deyilir: "Azərbaycan Ordusunun bölmələri noyabrın 25-də Kəlbəcər rayonuna daxil olub". Qeyd edilir ki, ilkin olaraq bu rayonun Azərbaycana noyabrın 15-də qaytarılması nəzərdə tutulurdu. Lakin müddət Azərbaycan tərəfinin nümayiş etdirdiyi humanizm nəticəsində 10 gün uzadılıb.

Müdafiə Nazirliyinin məlumatından gətirilən növbəti sitatda isə deyilir: "Bu istiqamətdə bölmələrimizin hərəkətinin təmin olunması üçün texniki işlər başa çatdırılıb, qoşunların hərəkət edəcəyi mürəkkəb dağ yolu minalardan təmizlənib və istifadə üçün yararlı vəziyyətə gətirilib".

Bildirilir ki, tərəflər arasında əldə edilən razılaşmaya görə, Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını Azərbaycana döyüşsüz qaytarır. Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə qazandığı böyük uğurlar nəticəsində Ermənistan hərbi əməliyyatların dayandırılması üçün həmin rayonları Azərbaycana qaytarmaq öhdəliyini götürüb.

Ağdamın noyabrın 20-də, Kəlbəcərin 25-də qaytarıldığı, Laçının isə dekabrın 1-də Azərbaycan tərəfinə təhvil veriləcəyi qeyd edilir.

Məqalədə bildirilir ki, 44 gün davam edən müharibə zamanı Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini darmadağın edib.

❖ ❖ ❖




Azərbaycan Respublikası, Rusiya Federasiyası prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli bəyanata əsasən, Azərbaycan Ordusunun bölmələrinin noyabrın 25-də Kəlbəcər rayonuna daxil olması barədə məlumat Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən dünyada baş verən ən mühüm hadisə kimi təqdim olunub.

AZƏRTAC xəbər verir ki, televiziya kanalları və xəbər agentlikləri, o cümlədən qəzetlərin elektron versiyaları Azərbaycanın işğalçı Ermənistan üzərində tarixi hərbi zəfərinin növbəti qələbəsi ilə bağlı anındaca məlumat yaymağa başlayıblar.

Ermənilərin bölgəni tərk etmək üçün verilən vaxtdan əlavə möhlət istəyərək güzəşt edilən on gün ərzində Kəlbəcərdə yaşayış binalarına, tarixi yerlərə və təbiətə qarşı törədilən amansız rəftar barədə süjetləri yayan telekanallar baş verənləri vandalizm aktı kimi dəyərləndirir.

❖ ❖ ❖



Müzəffər Azərbaycan Ordusunun işğaldan azad edilmiş Kəlbəcər rayonuna daxil olması Gürcüstan mətbuatının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, nüfuzlu "report.ge", "24news.ge", "interpressnews.ge", "dalgatv.ge", "aktual.ge", "palitranews.ge", "interpress.ge" və s. informasiya portalları, eləcə də bir sıra televiziyalar rəşadətli Azərbaycan Ordusunun 27 illik işğaldan sonra Kəlbəcərə daxil olması barədə silsilə materiallar yayıblar.

Bundan başqa, bəzi informasiya agentlikləri ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vəhşiliklər, Şuşa şəhərinin görüntüləri və Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi barədə də xəbərlər yayıblar.

Azərbaycan, gürcü, rus və ingilis dillərində yayımlanan informasiyalarda Azərbaycan Ordusunun qələbəsi, Azərbaycan Prezidentinin işğaldan azad olunmuş ərazilərdə görüləcək abadlıq-quruculuq işləri barədə fikirləri yer alıb.

❖ ❖ ❖




Bu yaxınlarda Azərbaycanın Dağlıq Qarabağda erməni işğalçılarına qarşı apardığı müharibə rəsmi Bakının böyük qələbəsi ilə nəticələndi. Bu münasibətlə bir çox sosial şəbəkə istifadəçiləri Azərbaycan və Türkiyə bayraqları ilə yanaşı, İsrail bayrağının da fotoşəklini paylaşıblar.

AZƏRTAC xəbər verir ki, israilli hərbi ekspert Set Fransman bu barədə İsrailin nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetində dərc edilmiş "Müharibədə qələbə ilə əlaqədar Azərbaycanda İsrail bayraqları qaldırılıb. Münasibətlər bundan sonra da inkişaf edəcəkmi?" sərlövhəli məqaləsində yazır.

Türkiyənin Bakının hərbi səylərini dəstəklədiyini bildirən məqalə müəllifi vurğulayır: "Azərbaycan uzun illər ərzində İsraildən pilotsuz uçuş aparatları və müxtəlif növ silah-sursat alıb. Məhz bu nöqteyi-nəzərdən İsrailə Azərbaycanın strateji tərəfdaşı kimi baxılır. Bu, onu göstərir ki, strateji münasibətlər indi inkişaf edə və möhkəmlənə bilər.

Son onilliklər rəsmi Bakı ordunu yaxşılaşdıraraq və möhkəmləndirərək, özünün hərbi və texnoloji imkanlarını artırmağa çalışıb, düşmənin tanklarını və artilleriyasını məhv etməkdən ötrü texnologiyalardan - bir növ ani hərbi-hava qüvvələri qismində müasir dronlardan və pilotsuz uçuş aparatlarından istifadəyə səy göstərib. Bütün bunlar elə baş verdi ki, Bakı uğurla və effektli şəkildə hərəkət edərək Ermənistanın işğalçı qüvvələrinin zirehli tank bölmələrinə sarsılmaz və ağır zərbələr endirdi".

Set Fransman vurğulayır: "1990-cı illərdə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunu işğal edib və bu region özünün qondarma "müstəqilliyini" elan edib və bununla da özünü dünya birliyi tərəfindən qəbul edilməyən kiçik dövlətlərə oxşadıb. Müxtəlif beynəlxalq təşkilatlar bu münaqişəni həll etməyə cəhd göstərsələr də, münaqişə nizamlanmayıb.

Bu dəfə müharibə Ermənistan üçün ciddi məğlubiyyətə çevrildi. Noyabrın ilk həftəsində işğalçı qüvvələr ciddi itkilər verdilər. Müharibə başlandıqdan 44 gün sonra Rusiyanın vasitəçiliyi ilə imzalanan razılaşmaya müvafiq olaraq, Rusiya ordusu regionda özünün sülhməramlı qüvvələrini yerləşdirdi, ermənilər isə Azərbaycanın işğal altında olan ərazisinin böyük hissəsini tərk etdilər".

İndi sual yaranır, rəsmi Bakının İsrail ilə münasibətləri möhkəmlənəcəkmi?

İsrailli hərbi ekspert deyir: "İsrail və Azərbaycan bir neçə ümumi maraqlara sahibdirlər, onlardan biri enerjidaşıyıcılarının ticarəti və müdafiə sənayesidir. İsrailin texnologiya sahəsində əməkdaşlıq baxımından Bakıya təklif edəcəyi çox şey var.

Bakıda İsrail bayraqlarının dalğalanması Azərbaycanın bu ölkəyə açıqlığının təzahürüdür. İsraildə Azərbaycan diasporunun Azərbaycana dəstək mitinqləri də keçirilib. Xarici siyasət strategiyası sübut edib ki, Azərbaycan İsrail üçün strateji cəhətdən mühüm ölkədir".

❖ ❖ ❖




Özbəkistanın "qalampir.uz" portalı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilən, ermənilər tərəfindən yerləyeksan olunan Ağdam şəhərinə səfərləri barədə material yayımlayıb.

Sayt bildirir ki, Azərbaycan Prezidenti Ağdama gedərkən dağıdılmış, viran qoyulmuş kəndləri görüb və bu sözləri deyib: "Bir dənə də salamat bina yoxdur, hamısını dağıdıblar. Evlərimizi, kəndlərimizi dağıdıblar, torpaqlarımızdan istifadə ediblər. Bütün hərbi cinayətlərə görə düşmən cavab verəcək. Biz Ağdam şəhərinə də jurnalistləri, o cümlədən xarici jurnalistləri, diplomatik korpusun nümayəndələrini dəvət edəcəyik. Qoy gəlsinlər, görsünlər".

Portal yazır ki, Prezident İlham Əliyev XIX əsrdə tikilmiş, işğal olunduqdan sonra vəhşicəsinə dağıdılan tarixi məscidin yaxınlığında Azərbaycan bayrağını qaldırıb, sonra dövlətimizin başçısı və birinci xanım məscidin divarlarını öpüb ibadət evinə ayaqyalın giriblər. Azərbaycan Prezidenti və birinci xanım məsciddə dua ediblər. Prezident Məkkədən gətirdiyi "Qurani-kərim"i Ağdam məscidinə bağışlayıb.

Bildirilir ki, sonra dövlətimizin başçısı Ağdam məscidinin qarşısında çıxış edib.

Prezident İlham Əliyev deyib: "Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik. Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin".

❖ ❖ ❖




İspaniyanın EFE İnformasiya Agentliyi, ölkənin qocaman qəzetlərindən biri olan "La Vanguardia", həmçinin Puerto-Rikonun "El Expresso" onlayn nəşri Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri barədə xəbəri dərc ediblər.

AZƏRTAC xəbər verir ki, bu nəşrlər Ağdam rayonunun təxminən 30 il Ermənistanın işğalı altında olmasını vurğulayırlar.

İspaniya mətbuatının yazdığına görə, Azərbaycan Prezidenti İlham Əliyev Ağdama səfəri zamanı diqqətə çatdırıb ki, əgər Dağlıq Qarabağda müharibə başa çatmasaydı, o halda iki həftə bundan əvvəl Ağdamın Azərbaycana qaytarılması üzrə hərbi əməliyyat aparılardı.

Qeyd olunur ki, Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş naziri tərəfindən imzalanan atəşkəs barədə bəyanata müvafiq olaraq, ötən cümə günü - noyabrın 20-də Azərbaycan Ordusu Ağdama daxil olub.

❖ ❖ ❖



Misir mətbuatı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin noyabrın 23-də işğaldan azad edilmiş Ağdamın məscidinin qarşısında çıxışının əsas məqamlarını yayıb.

"Asiaelyoum" İnformasiya Agentliyi, "Aldiplomasy", "Elghad", "Garbnews", "Elwatnalkhabr", "Əlxəbər-Əlmasrı" və "Əl-Vəsilə" portalları ölkəmizin Misirdəki səfirliyinin dəstəyi ilə və AZƏRTAC-a istinadən yaydıqları xəbərlərdə Prezident İlham Əliyevin Məkkədən gətirdiyi "Qurani-kərim"i Ağdam məscidinə bağışladığını qeyd ediblər.

Xəbərlərdə Prezident İlham Əliyevin bu sözləri sitat gətirilib: "Bu gün, müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Həm mənimlə söhbət zamanı, həm rəsmi bəyanatlarda narahatlıq ifadə edirlər. Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar. Hansılar ki, İslam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar. Onların haqqı yoxdur bu barədə danışmağa, bu, birincisi. İkincisi, bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir".

Həmçinin qeyd olunub ki, Azərbaycanın dövlət başçısı bütün tarixi abidələrin dövlət tərəfindən qorunduğunu, onun göstərişi ilə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsinin, habelə müharibə dövründə udi etnik azlığına məxsus kilsənin Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verildiyini vurğulayıb. Prezident İlham Əliyev əlavə edib ki, bunun əksinə olaraq, ermənilər Ağdam və işğal olunmuş digər ərazilərdəki məscidlərdə inək, donuz saxlayıblar.

❖ ❖ ❖




Rusiya mətbuatı Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdəki xristian məbədləri ilə bağlı bəyanatını geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, Rusiyanın aparıcı xəbər resursları Azərbaycanın nəzarətinə keçən ərazilərdə xristian məbədlərinin vəziyyətinə görə narahatlıq ifadə edən Qərb dövlətlərinin liderlərinə dövlətimizin başçısının sərt cavabını vurğulayıblar. Qeyd olunur ki, Azərbaycan lideri ölkədə bütün tarixi abidələrin dövlət tərəfindən qorunduğunu, hazırda iki pravoslav kilsəsinin təmir edildiyini, Qafqaz Albaniyası kilsələrinin respublikanın milli sərvəti olduğunu, gürcü və erməni kilsələrinin qorunub saxlandığını bəyan edib.

Prezident İlham Əliyevin Azərbaycan Ordusunun Ağdamın azad edilməsi ilə bağlı nəzərdə tutulan döyüş əməliyyatları barədə dedikləri də Rusiya KİV-inin marağına səbəb olub.

❖ ❖ ❖




İranın İRNA rəsmi xəbər agentliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunan Ağdam rayonuna səfəri barədə material dərc edib.

AZƏRTAC-a istinadla yayılan məqalədə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam məscidinə getdikləri qeyd edilib. Dövlətimizin başçısının "İslam müqəddəslərini təhqir edənlərə bəraət qazandıranların bizə irad tutmağa haqqı yoxdur" fikri sitat kimi gətirilib. Bildirilib ki, Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərdə məscidlərlə yanaşı, xristian məbədlərinin də bərpa olunacağını bəyan edib.

Diqqətə çatdırılıb ki, Azərbaycanın Ağdam şəhəri 1993-cü ildə Ermənistan tərəfindən işğal edilsə də, bu ilin noyabrında Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib.

❖ ❖ ❖




Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərinə səfəri Türkiyənin kütləvi informasiya vasitələri (KİV) tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin Məkkədən gətirdiyi "Qurani-kərim"i Ağdam məscidinə bağışlaması, dağıdılıb viran qoyulan məscidə müsəlman qaydalarına tam əməl edərək daxil olması, dövlətimizin başçısının üçrəngli bayrağımıza ehtiramı və digər mühüm məqamlar qardaş ölkə KİV-nin diqqətindən yayınmayıb. Bütün bu qürurverici görüntülər video və fotolarla Türkiyə ictimaiyyətinə çatdırılmaqdadır. Prezident İlham Əliyevin dərin məzmunlu nitqindəki xüsusi mesajlar da media tərəfindən diqqətlə izlənilib.

Qeyd edək ki, Türkiyə kütləvi informasiya vasitələri erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılan Ağdam rayonu barədə geniş materiallar yaymaqdadır. Mətbuat haqlı olaraq Ağdamı Xirosima ilə müqayisə edir.

❖ ❖ ❖




Özbəkistanın "interfax.uz" portalında Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Azərbaycandakı diplomatik korpusun nümayəndələri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərlərinin Ermənistanın işğalından azad olunmuş Füzuliyə səfəri barədə məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə bu haqda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin özünün "Twitter" hesabında yazdığı bildirilir.

Prezidentin köməkçisinə istinadla qeyd olunub ki, səfərdə 120-dən çox diplomat iştirak edib.

Bildirilib ki, Füzulinin bütün yaşayış məntəqələri, tarix və mədəniyyət abidələri, qəbiristanlıqlar dağıdılıb.

❖ ❖ ❖




Misirin "Aldiplomasy" informasiya portalı Ermənistan silahlı qüvvələri baş qərargah rəisinin sabiq müavini, Müdafiə Nazirliyinin (MN) Hərbi Nəzarət Xidmətinin sabiq rəisi general-leytenant Movses Akopyanın etirafı barədə xəbər yayıb.

AZƏRTAC xəbər verir ki, Türkiyənin "Anadolu" Agentliyinə istinadla yayılmış xəbərdə erməni generalın 44 günlük müharibədə "İsgəndər" operativ-taktiki raket kompleksindən istifadə edildiyi barədə jurnalistlərə açıqlaması diqqətə çatdırılıb. Qeyd olunub ki, Akopyan raketlərin hansı istiqamətdə istifadə edildiyini deməyib.

Xəbərdə vurğulanıb ki, hərbi əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələri qadağan olunmuş silahlardan istifadə etməklə Azərbaycanın yaşayış məntəqələrinə hücumlar həyata keçirib. Azərbaycanın Baş Prokurorluğu bununla bağlı bildirib ki, işğalçı ölkə "Skad" və "Smerç" raket qurğularından yalnız döyüş meydanında deyil, eləcə də mülki şəxslərə qarşı istifadə edib. Bu faktlar "Human Rights Watch" və "Amnesty International" kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qeydə alınmaqla həmin əməllər "qəddar və ağlasığmaz" kimi qiymətləndirilib. Eyni zamanda Ermənistanın raket hücumları nəticəsində 93 mülki şəxsin həlak olması, 400-dən çox insanın yaralanması ilə bağlı cinayət işi açılıb.

❖ ❖ ❖

Azərbaycan 28 il əvvəl itirdiyi Qarabağı geri qaytarıb Ermənistan üzərində əhəmiyyətli qələbə qazandı.

AZƏRTAC xəbər verir ki, bu fikir "İran diplomatiyası" saytında dərc olunmuş "Dağlıq Qarabağ razılaşması: qələbə və faciə" adlı məqalədə yer alıb. Müəllif Şöhrə Pulab yazır ki, Azərbaycanın iqtisadi gücü və beynəlxalq aləmdəki diplomatik addımları rəsmi Bakının qələbəsini təmin etdi.

Bu qələbə ilə Azərbaycan beynəlxalq nəqliyyat marşrutlarının mərkəzi olmaq iddiasını həyata keçirmək imkanlarını reallığa çevirib. Söhbət Orta Asiya və Yaxın Şərqdən Avropaya uzanan tranzit nəqliyyat yollarından gedir.

Avrasiya tranzit-nəqliyyat yolları Çindən başlayır, Qazaxıstan, Azərbaycan və Gürcüstandan keçərək Türkiyəyə, oradan isə Avropaya uzanır ki, bu, Bakını beynəlxalq kommersiya mərkəzinə də çevirəcək. Azərbaycan Xəzər dənizi vasitəsilə Orta Asiya dövlətlərini Cənubi Qafqaz regionu ilə də birləşdirir. Cənub istiqamətində isə Azərbaycan Hindistan ilə Avropanı birləşdirmək iqtidarına malikdir ("Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə). Qarabağın Ermənistan tərəfindən işğalı Azərbaycanı yuxarıda göstərdiyimiz imkanlardan məhrum etmişdi. Lakin Azərbaycanın qələbəsi bu perspektivləri gündəmə gətirib.

Məqalədə o da qeyd edilir ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsinin birləşdirilməsi üçün yolun çəkilməsi Türkiyəni Orta Asiya və Rusiya ilə nəqliyyat baxımından birləşdirəcək.

Bildirilir ki, 44 günlük müharibədə başda Azərbaycan olmaqla Rusiya, İran və Türkiyənin maraqları da təmin edildi. Yeganə uduzan tərəf Ermənistan oldu ki, bu da onun gələcəyinin qaranlıq olduğunu göstərir.

❖ ❖ ❖




Amerikalı general Ben Hocesin Avropanın "EU Observer" nəşrində dərc olunan "Cənubi Qafqazın daha böyük münaqişələri dayandırmağa qadir olan Qərbə ehtiyacı var" sərlövhəli məqaləsi Rusiya və Türkiyənin vasitəçiliyi ilə, - bu barədə materialın lap əvvəlində söhbət açılır, - Ermənistan və Azərbaycan arasında atəşkəs barədə razılaşmaya həsr edilib. (https://euobserver.com/opinion/150150).

AZƏRTAC xəbər verir ki, müəllifin sözlərinə görə, Qərb regiona lazım olduğunu nümayiş etdirdiyi kimi, region özü də burada öz strateji maraqları olan Qərbə lazım olduğunu göstərməlidir. Qərb gec də olsa etiraf edib ki, bu müharibə qaçılmaz deyildi, lakin həmin imkanlar əldən buraxılıb.

"Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə qəbul edilmiş hissəsidir və o, Rusiyadan və İrandan yan keçməklə, Qara dənizdən Xəzər dənizinədək olan yolun üstündə yerləşir. Region Qərblə Şərq arasında əlaqələrin inkişafında və möhkəmlənməsində mühüm rol oynayır. Bu səbəbdən də biz burada olmalıyıq", - deyən amerikalı general beynəlxalq hüquq normaları əsasında Azərbaycan və Ermənistan arasında möhkəm sülhün bərqərar olmasında onun ölkəsinin iştirakının zəruriliyini vurğulayır. O yazır: "Regionda öz rolumuzu qoruyub saxlamaq üçün biz Türkiyə ilə sıx əlaqəli şəkildə işləməliyik, onunla münasibətlərimizdəki gərginliyi aradan qaldırmalıyıq".

Hoces həmçinin qeyd edir ki, hazırda NATO-nun Türkiyəyə həmişəkindən daha çox ehtiyacı var. Təhlükəsizlik və iqtisadi əməkdaşlıq sistemində Ankaranın rolu əsasdır və bu ölkə NATO üzrə mühüm müttəfiqdir. Əgər Qərb bu regionda iştirak etmək istəyirsə, onun Türkiyə ilə əlaqəsi zəruridir.

Amerikalı general yazır: "Azərbaycan regionda erməni azlığının bütün mülki hüquqlarının təminatını və onun mədəni irsinin qorunub saxlanmasını öz öhdəsinə götürüb. Qərb Bakıya bu işdə kömək etməlidir, xüsusən ona görə ki, beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Bizim nikbinlik üçün əsasımız var, axı 30 min etnik erməni, - hələ işğal edilmiş regionda olanları hesaba almasaq, - artıq Azərbaycanı öz vətənləri sayırlar. Buna görə də regionda sabitliyin əsas şərti Dağlıq Qarabağın suveren Azərbaycanın bir hissəsi olmasıdır".

❖ ❖ ❖

Ermənilər uzun illərdir ki, bu coğrafiyada qanlı terror aktları törədirlər. Osmanlı dövründən başlanan bu cinayətlərə 1918-ci ilin mart qırğınları, Ermənistandakı soydaşlarımızın dədə-baba torpaqlarından qovulması, Azərbaycan ərazisinin 20 faizinin işğalı və yerli azərbaycanlıların öz yurdlarından didərgin salınması kimi faciəvi hadisələr daxildir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan türkiyəli general Yücel Karauz bildirib.

Ermənistanın yürütdüyü işğalçılıq siyasəti və uzun illər davam etdirdiyi hərbi təxribatları, o cümlədən dinc Azərbaycan əhalisinə və mülki infrastruktura qarşı hücumları müharibə cinayəti kimi dəyərləndirən, bütün bunlara görə təcavüzkar tərəfin ədalət məhkəməsinə cəlb olunacağına inandığını ifadə edən general Yücel Karauz Azərbaycan dövlətinin bütün bu təxribatlara qarşı dözümlülük nümayiş etdirdiyini xatırladaraq deyib: "Azərbaycan Ordusu müharibə zamanı Ermənistana aid yalnız hərbi obyektləri hədəf aldı. Mülki əhaliyə zərər dəyməməsi üçün bütün imkanlardan maksimum istifadə etdi. Dünyada belə bir nümunə yoxdur ki, hər hansı bir dövlət müharibə zamanı hərbi və mülki obyektləri bu dərəcədə həssaslıqla bir-birindən ayırsın".

Möhtəşəm Qələbə münasibətilə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev başda olmaqla, qəhrəman Ordumuzu və xalqımızı təbrik edən, ən böyük arzusunun Şuşada namaz qılmaq olduğunu bildirən general deyib: "Texniki hazırlığına, vətənpərvərliyinə və döyük qabiliyyətinə görə Azərbaycana Ordusu ilə fəxr edirəm".

## Biz birlikdə güclüyük!

# Mövsümi xəstəliklər də koronavirusa “can verən”lərdəndir




Bəşəriyyəti ölümlə hədələyən xəstəliklərin sayı son illər artmaqda davam edir. Tibb elminin, eləcə də səhiyyənin inkişaf etdiyi XXI əsrdə bu, əlbəttə, ürəkaçan fakt deyil. Bunun üçün Ümumdünya Səhiyyə Təşkilatı da həyəcan təbili çalmaqdadır. Son bir il ərzində Çindən yayılan COVID-19 koronavirus pandemiyası ilə əlaqədar dünyasını dəyişənlərin sayı da bu həyəcanı artırır. Ötən ilin təxminən bu vaxtlarından başlayaraq epidemiya çərçivəsindən çıxıb pandemiyaya çevrilən, iqtisadi-humanitar böhran yaradan koronavirusla mübarizə ümumxalq hərəkatı olsa belə, dünya xalqları onun qarşısının alınmasında hələ ki aciz qalıblar.

Mütəxəssislərin fikrincə, bu bəladan xilas olmağın yolları o qədər də çətin deyil. Lakin burada bir sıra vacib məqamlar var ki, unudulur. Qrip kimi bizə tanış olan, mövsümi xarakterli, soyuqdəymənin təzahürləri ilə özünü göstərən koronavirus təhlükəli olsa da, ondan qorunmaq bir qədər sadə və asandır.

Azərbaycan Tibb Universitetinin Sitologiya, Embriologiya və Histologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Eldar Qasımovla söhbətimiz də məhz insanların sağlamlığının qeydinə vaxtında qalmamasından, laqeydlikdən müalicəsi belə mürəkkəbləşən, onkologiya, histologiya qədər təhlükəli olan koronavirusa yoluxmalarla bağlı oldu. Professor həyat və elmi təcrübəsinə əsaslanaraq bildirdi ki, insanların koronavirusa yoluxmalarına əsas səbəb ilk növbədə saymamazlıqdan, sanitariya-gigiyena qaydalarına, özünə və ətrafına laqeydlikdən başlayır. Xüsusən, həssas qrup hesab edilən yaşlılar və azyaşlıların qorunması orta nəsilin üzərinə böyük məsuliyyət qoyur: “Pandemiyanın yayıldığı ilk gündən Azərbaycan hökumətinin qabaqlayıcı tədbirləri özünün yüksək nəticələrini göstərdi. Xırdalamaq, sadalamaq istəmirəm, bütün istiqamətlərdə xalqımızla dövlətimizin birliyi bizi ilk mərhələdən sağ-salamat çıxardı. Bu, ÜST-ün də hesabat məlumatlarında yer aldı. Yoluxmalar az, sağalanlar isə kifayət qədər çox oldu...”

Həkim deyir ki, mövsümlə əlaqədar son vaxtlar uşaqlar arasında qripəbənzər xəstəlik də yayılıb: əsasən qızdırma ilə başlayır, sonra isə öskürəyə keçir. Lakin burunaxma, asqırma kimi əlamətlər olmur. İnsanlar da haqlı olaraq narahatlıq keçirir və soruşurlar ki, bu, qrip xəstəliyi hesab olunur, yoxsa koronavirusun əlamətləridir? Suala birmənalı şəkildə belə cavab verilməlidir: “Yuxarı tənəffüs yollarının infeksion xəstəlikləri el arasında həmişə qrip adlandırılıb. Əslində, bu xəstəlikləri müxtəlif viruslar, nadir hallarda isə bakteriyalar törədir. Törədicisindən asılı olaraq xəstəliyin əlamətləri də fərqlidir. Qızdırma infeksion amilə qarşı orqanizmin normal cavab reaksiyasıdır. Burunaxma və asqırma əmələgətirmə tənəffüs yollarının infeksiyasını törədən bütün viruslara mütləq şəkildə xas deyil. Əlbəttə, bu, qrip xəstəliyi deyil. Onu da bilməliyik ki, qrip xəstəliyində də burundan ifrazat olmur”.

Hər bir xəstədə bəlğəmin bakterioloji analizinin aparılmasının mümkün olmadığını deyən professor onu da vurğuladı ki, buna görə törədicini də təyin etmək asan deyil: “Lakin bəlğəmin müayinəsi zamanı daha çox mikoplazma infeksiyasına rast gəlinir. Bu infeksiyanın əsas əlamətlərindən biri tutmaşəkilli boğucu öskürək olduğuna görə çox vaxt xəstəliyi göyöskürəyə bənzədirlər. Yaxud dəqiqləşdirilməmiş hər hansı bir virus da törədici ola bilər. Bəzi hallarda isə virus-bakterial mənşəli, yəni qarışıq törədici xəstəliyə səbəb olur...”

Səhiyyə Nazirliyi, eləcə də TƏBİB koronavirus pandemiyası ilə bağlı ölkə vətəndaşlarının maarifləndirilməsi və məlumatlandırılması istiqamətində sosial məsuliyyət tədbirlərini davam etdirir. Koronavirusla mübarizənin səmərəliliyinin artırılması, əhalinin təlaşa düşməməsi və sadə gigiyena qaydalarına riayət etməsinin təşviqi məqsədilə, nazirliyin Media və Kommunikasiya İdarəsi doğru davranış qaydalarından bəhs edən “Koronavirusdan necə qorunmalıyıq?”, “Koronavirusdan qorunmaq üçün ticarət obyektlərində necə davranmalıyıq?”, “Yaşlıları koronavirusdan qoruyaq!”, “Koronavirusdan qorunmaq üçün əllərimizi necə yumalıyıq?”, “Tibbi maskalardan nə zaman və necə istifadə etməliyik?” və digər başlıqlı sosial çarxlar vasitəsilə təbliğatı gücləndirsə də, bu istiqamətdə istənilən nəticə hələ ki özünü göstərmir.

Mütəxəssislər məsləhət görürlər ki, meyvələr günün birinci yarısında yeyilməlidir. Buterbrodlarda kərə yağı meyvələrlə əvəz olunmalıdır. Avokadonun tərkibində yağlı komponentlər çox olduğuna görə, qaraciyəri problemli insanlar ondan istifadə etməzdən əvvəl həkimlə məsləhətləşməlidirlər.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və Sanitariya-Epidemioloji Nəzarəti şöbəsinin müdiri Nəzifə Mürsəlovanın sözlərinə görə, payız-qış mövsümünün gəlməsi ilə əlaqədar havaların soyuması və immunitetin zəifləməsi təbii prosesdir: “Bu dövrdə orqanizmin immun statusunu yüksək səviyyədə saxlamaq üçün bir sıra sadə üsullar var. Belə ki, qida rasionuna bol vitaminli meyvə-tərəvəzi daxil etmək, açıq havada tez-tez olmaq, qapalı məkanları gün ərzində bir neçə dəfə havalandırmaq kimi adi qaydalara riayət etmək lazımdır. Müxtəlif respirator xəstəliklərdən qorunmaq üçün tibbi maskalar taxmaq, kütləvi tədbirlərdən uzaq durmaq, fiziki məsafəni qorumaq, şəxsi gigiyena qaydalarını unutmamaq və spirt əsaslı dezinfeksiyaedici vasitələrdən istifadə vacibdir”.

Hətta immun sistemi güclü olan insanlar belə ildə ən azı bir dəfə qripə yoluxurlar. Bu xəstəlikdən qorunmaq üçün Azərbaycanda qrip virusuna qarşı peyvəndin tətbiqinə başlanılıb. Qripə qarşı peyvənd olunmaq istəyən hər kəs yaşayış yeri üzrə əhaliyə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət edə bilər. Mövsümi qrip əleyhinə peyvənd edilmək dövlət tibb müəssisələrində tamamilə pulsuzdur.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

## Koronavirusa daha 3469 nəfər yoluxub, 1229 nəfər isə sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 3469 yoluxma faktı qeydə alınıb, 1229 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 30 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 102 min 396 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 66 min 963 nəfər müalicə olunaraq sağalıb, 1224 nəfər vəfat edib. Aktiv xəstə sayı 34209 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 646 min 654 test aparılıb. Dünənki test sayı isə 15057-dir.




## Qax şəhərinin küçələrində təkrar dezinfeksiya işləri aparılıb



Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Qax rayonunda tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər davam etdirilir.

AZƏRTAC xəbər verir ki, noyabrın 25-də Qax şəhərində növbəti kütləvi dezinfeksiyaedici tədbirlər həyata keçirilib. Şəhərin prospekt və küçələri, səkilər, yaşayış məhəllələrinin əraziləri suya xüsusi dezinfeksiyaedici maddələr qatılmaqla yuyulub, çoxmənzilli binaların giriş blokları və pilləkənlər, gündəlik tələbat malları mağazalarının, apteklərin giriş-çıxışları, bankomatların yerləşdiyi ərazilər təkrar dezinfeksiya olunub.

Eyni zamanda rayon icra hakimiyyəti yanında yaradılan qərargahın üzvlərindən və polis əməkdaşlarından ibarət mobil qruplar tərəfindən rayon ərazisində xüsusi karantin rejimi qaydalarının təmin olunması üçün gündəlik olaraq ciddi nəzarət tədbirləri həyata keçirilir.


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Şəmkir rayonunda yerləşən Uşaq Bərpa Mərkəzinə xarici kommunikasiya xətlərinin çəkilməsi işlərinin satın alınması üçün keçirilən açıq tenderdə **“Avalon-12” MMC** qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin Neftçala Sənaye Məhəlləsində yerləşən sutəmizləyici qurğunun bioloji yolla təmizlənməsi üçün dərman vasitələrinin və qurğuda yaranan nasazlıqların təmiri xidmətlərinin satın alınmasına dair keçirdiyi kotirovka proseduru “Dövlət satınalmaları haqqında” 27 dekabr 2001-ci il tarixli 245-IIQ№-li Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən baş tutmamış elan edilir.

***Tender komissiyası***


AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## “AzerGold” QSC-nin fəaliyyəti nəticəsində indiyədək ölkə iqtisadiyyatına 527 milyon manatdan çox vəsait cəlb edilib

Ölkə iqtisadiyyatında dağ-mədən sektorunu uğurla təmsil edən “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) qiymətli, əlvan və qara metal filizi yataqlarının öyrənilməsi, geoloji kəşfiyyat, hasilat, ixrac və digər istiqamətlərdə fəaliyyətini mühüm nailiyyətlərlə davam etdirir. Bu barədə “AzerGold” QSC-nin Mətbuat xidməti məlumat vermişdir.

Məhz bu fəaliyyətin nəticəsidir ki, cəmiyyət tərəfindən dünya bazarlarına ilk ixracın reallaşmasından ötən 3 il ərzində 213,4 min unsiyadan çox qızıl, 372,7 min unsiyadan çox gümüşün satışından ölkə iqtisadiyyatına **527,3 milyon manat vəsait** cəlb edilib. Bu vəsaitin 39,3 milyon manatı vergi və sosial köçürmələr şəklində dövlət büdcəsinə ödənilib (bu məbləğin 33,7 milyon manatı vergi, 5,6 milyon manatını isə Dövlət Sosial Müdafiə Fonduna köçürmələr təşkil edir). Bu illər ərzində səmərəli fəaliyyət nəticəsində 35 milyon manat həcmində bölüşdürülməmiş mənfəət formalaşıb. Bu məbləğin 15 milyon manatı cəmiyyətin nizamnamə kapitalının artırılmasına yönəldilib.




Qeyd edilən iqtisadi göstəricilər yalnız Daşkəsən rayonunda yerləşən “Çovdar” qızıl yatağının istismarı nəticəsində əldə edilib. Hazırda yeni yataqların istismara hazırlanması istiqamətində intensiv işlər davam etdirilir.

Belə ki, yaxın günlərdə Daşkəsən rayonunda yerləşən “Ağyoxuş”, növbəti ildə “Mərəh”, 2022-ci ildə isə “Tülallar” qızıl yatağının və “Çovdar” qızıl yatağının yeraltı (sulfid) fazasının istismara verilməsi nəzərdə tutulur. Avropanın ən iri polimetal yataqlarından biri hesab edilən “Filizçay” layihəsinin icrasının optimallaşdırılması nəticəsində yatağın istismarına əvvəlcə planlaşdırılan müddətdən 2 il daha tez, yəni 2025-ci ildə başlamaq mümkün olacaq. Bununla yanaşı, müvafiq olaraq Şəmkir və Gədəbəy rayonlarının ərazisində yerləşən “Qaradağ”, “Xar-xar” və “Cəyirçay” mis yataqlarının 2026, Balakəndə yerləşən digər polimetal yatağı - “Mazımçay”ın isə 2027-ci ildə istifadəyə verilməsi planlaşdırılır.

Xatırladaq ki, qeyd edilən yataqların istismara verilmə təqvimi ilkin qiymətləndirmənin nəticələrinə əsasən müəyyən edilib. Təhlillərin növbəti mərhələsinin nəticələrinə uyğun olaraq, gələn ilin ortalarında adları çəkilən yataqların cari plandan daha tez istifadəyə verilməsi haqda qərarın qəbul edilməsi istisna olunmur.

Qeyd edək ki, cari ilin 9 ayı ərzində ölkə üzrə ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl ikinci yerdə qərarlaşıb. Sözügedən yeni qızıl, eləcə də digər əlvan metal yataqlarının istismara verilməsi iqtisadi artımda dağ-mədən sahəsinin töhfəsini daha da artıracaq. Bu da, öz növbəsində, qeyri-neft sektorunun tərəqqisində əhəmiyyətli rol oynamaqla yanaşı, milyonlarla manat həcmində vəsaitin ölkə iqtisadiyyatına cəlb edilməsinə, regionların sosial-iqtisadi inkişafına böyük təkan verəcək.

# Paşinyana qarşı etirazlar daha da güclənir

## Baş nazir isə növbədənkənar seçkilərə getməyəcəyini bəyan edir








Ermənistanda getdikcə gərginləşən siyasi vəziyyət hakim koalisiyanın parçalanması ilə müşayiət olunmaqda, iqtidarın istefasını tələb edənlərin sayının daha böyük sürətlə artdığını göstərməkdədir. Ölkə müxalifətinin keçirdiyi etiraz aksiyaları hakimiyyətin dayaqlarının xeyli laxladığını göstərir. Buna paralel olaraq Ermənistanın həyata keçirdiyi xarici siyasətin gətirdiyi uğursuzluqlar bu ölkəyə xaricdən, həmçinin erməni lobbisi tərəfindən edilən təzyiqləri gücləndirir.

### Aksiyalar səngimir

Yerevanda etiraz aksiyaları iki həftədir ki, davam edir. Son aksiyalar zamanı bir qrup vətəndaş Paşinyanın parlamentdəki “Mənim addımım” fraksiyasının deputatlarının yaşadıqları evlərin həyətlərinə gələrək, onları Qarabağı təslim etməkdə və dövləti xəyanətdə iştirakda günahlandırıb. Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik üzrə daimi komissiyasının sədri Andranik Koçaryanın evinin qarşısındakı aksiya zamanı vətəndaşlar “Andranik, xəyanətkar!” şüarı səsləndiriblər. Onlar səsgücləndiricilər vasitəsilə hakimiyyətin son iki ildə vətəndaşları aldatdığını bildiriblər.

Bir qrup etirazçı isə Yerevanda fəaliyyət göstərən diplomatik nümayəndəliklərin qarşısında da aksiya keçirməyə başlayıb. Sosial şəbəkələrdə paylaşılan şəkil və videolardan bəlli olur ki, onlar əsasən Almaniya, Fransa səfirliklərinin qarşısında etirazlarını bildirirlər. Aksiya iştirakçıları deyirlər ki, əhali artıq Paşinyana və komandasına inanmır, çünki onlar Ermənistana xəyanət etdilər, xalqa verdikləri vədi yerinə yetirmədilər. Bu gün Ermənistan tarixinin ən ağır günlərini yaşayır və bu vəziyyətdən xilas üçün üfüqdə ümidverici heç nə görünmür. Həmçinin ölkədə məmur özbaşınalığı, rüşvətxorluq və işsizlik tüğyan edir. Vətəndaşlar məhkəmə sistemindən və polis zorakılığından cana gəliblər. Odur ki, vətəndaşlar Ermənistanda hakimiyyət dəyişikliyini labüd hesab edirlər.

### Hakimiyyət sosial şəbəkələrdə nəzarəti artırır

Siyasi proseslərin fonunda Paşinyanın reytinqinin sürətli şəkildə aşağı düşməsi hakimiyyət daxilində ciddi gərginlik yaradıb. Məsələn, “İrates” qəzeti yazır ki, hakimiyyət orqanları sosial şəbəkədə artan hücumlardan narahatdırlar. Qeyd olunur ki, baş nazirin durmadan enən reytinqi qarşısında hamıya hazır olmaq və sosial meydanda heç kimə aman verməmək tapşırığı verilib. Əks təqdirdə hamını işdən qovulmaq təhlükəsi gözləyir: “Saxta və real istifadəçilər Paşinyanın atdığı addımları tərifləməyə başlamalıdır. Ən əsası mümkün variantlarla opponentləri neytrallaşdırmaq, onları gözdən salmaq, inqilaba qədər kim olduqlarını başa salmaq tələb olunur. Bütün bunlar da hökumət üzvlərini özlərindən çıxarır. Çünki onlardan “feyk fabriklər”i doldurmaq və Paşinyanla müxalifət arasında sipər rolunu oynamaq tələb olunur”.

Ölkənin keçmiş polis rəisi Vladimir Qasparyan deyib ki, Ermənistan dövlətçiliyini itirir, başqa dövlətlərin nümayəndələri ilə söhbət edə biləcək bir kimsə yoxdur: “Ölkə daxilində anarxiya hökm sürür və bizim məsələlərimiz xaricdə bizsiz həll olunur. Əksəriyyət buna laqeyddir. Cəmiyyət ağ-qaralara bölünüb, hər kəs “mənimdir, sənindir” söhbəti ilə məşğuldur. Bunun son olduğunu başa düşmürsüz? Ermənistan tezliklə yox olacaq”.

### Paşinyan müxalifətin çağırışlarını əsassız hesab edir

Baş nazir davam edən etirazlara rəğmən, müxalifət tərəfindən edilən çağırışların Ermənistan cəmiyyətində geniş dəstək almadığını bildirib. O, mövcud vəziyyətdən çoxlarının, hətta özünün də xoşlanmadığını, lakin başqa bir seçimin qalmadığını bildirib: “Düzü, mən də o qədər razı deyiləm, vəziyyətdən hamımız narazıyıq. Ancaq hansı alternativlərimiz olduğunu anlamalıyıq. Vəziyyəti daha da pisləşdirməməyə, sabitləşdirmək və yaxşılaşdırmaq üçün çalışmalıyıq. Erməni cəmiyyəti təslimolma aktının imzalandığı situasiyada bizim üçün daha yaxşı real alternativin olmadığı ilə razılaşır. Fikrimcə, bu, imzalanmış sənədin erməni cəmiyyətində anlayışla qarşılanmasıdır”.

Rəqibləri tərəfindən növbədənkənar parlament seçkilərinin keçirilməsi çağırışlarına gəlincə, Paşinyan ölkənin digər vəzifələrə, ilk növbədə siyasi və iqtisadi sabitliyin və təhlükəsizliyin bərpasına yönəlməsinə ehtiyacın olduğunu vurğulayıb: “İndi Ermənistan hökumətinin və bütün siyasi qüvvələrin əsas vəzifəsi ölkədə tam sabitliyi və təhlükəsizliyi bərpa etmək olmalıdır. Mən yalnız daxili təhlükəsizliyi deyil, həm də xarici tərəfi nəzərdə tuturam. Altıaylıq dövr üçün bir yol xəritəsi dərc etdim və yaxın altı ay ərzində vəziyyəti sabitləşdirmək üçün işləyəcəyik. Bundan sonra növbəti addımlar barədə qərar verəcəyik”.

### Erməni xalqı ağır bir reallıqla qarşılaşacaq

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) keçmiş baş katibi, sabiq baş qərargah rəisi general-polkovnik Yuri Xaçaturovun oğlu İqor Xaçaturov isə N.Paşinyanı yenidən təhqir edib. “4rd.am” saytı yazır ki, son müharibədə iştirak edən İqor Xaçaturov baş naziri uzunqulaq adlandırıb. O, qeyd edib ki, noyabrın 25-də Kəlbəcər Azərbaycana təhvil verilir və bu günü təsadüfən seçmədilər: “25 noyabr Kəlbəcər əməliyyatının liderlərindən biri olan Monte Melkonyanın (erməni terrorçusu-red) doğum günüdür: “İntihar et, Monte səninlə görüşəcək və deyəcək ki, ay eşşək, Ermənistan tarixinin son səhifəsini açan sən idin? Bəlkə də ilk dəfədir ki, söyüş söyürəm. Əslində, hamımızın bu günahda payı var”.

Erməni siyasi ekspert Suren Sarkisyan deyib ki, Ermənistan hakimiyyətinin səhvi nəticəsində tezliklə erməni xalqı ağır bir reallıqla qarşılaşacaq. O, bundan sonrakı mərhələdə Ermənistanın öz müstəqilliyini itirəcəyini söyləyib: “Ermənistan “qismən müstəqil dövlət”ə çevriləcək. Artıq özümüzü Ermənistan dövlətinin təhlükəsizliyini təmin edən və döyüşə hazır orduya sahib bir dövlət kimi göstərə bilmərik. Artıq Ermənistan Qarabağın təhlükəsizliyinin qarantı deyil, bu da bölgədəki kompleks təhlükəsizlik balansında dəyişikliyin olduğunu göstərir”.

Siyasi ekspert bildirib ki, indi Ermənistan heç öz təhlükəsizliyinin qarantı da deyil, ölkənin çoxşaxəli, balanslı və tamamlayıcı xarici siyasəti olmayacaq: “Yeni formalaşmış geosiyasi və regional reallıqlara uyğunlaşacağıq. Bu fəlakətin nəticələrini azaltmaq çətin olacaq”.

### Müxalifət öz namizədini xarici dairələrlə razılaşdırır

“Joxovurd” qəzeti yazır ki, N.Paşinyanın istefasını tələb edən 17 partiyanın nümayəndələri Rusiya elitasının nümayəndələri ilə fəal işləyirlər ki, yeni namizədi müəyyən etsinlər. Bildirilir ki, Ermənistanın 17 partiyası üç namizədi - Vazgen Manukyanı, Artur Vanetsyanı və Qrant Baqratyanı müzakirə edib: “Strateji tərəfdaşımız bu namizədlərdən Vazgen Manukyana üstünlük verib. Manukyan bu yaxınlarda namizədlik məsələsini müzakirə etmək üçün Moskvaya yollanıb. Lakin bu, o demək deyil ki, Manukyan gələcəkdə Ermənistann baş naziri olacaq, o, yalnız müvəqqəti hökumətin başçısı olacaq. Yəni Manukyan qısamüddətli hökumətə rəhbərlik edəcək. Qəribədir, amma eyni zamanda aydın olur ki, vətəndaşlar arasında Nikol Paşinyanın çoxsaylı dəstəkçiləri də var”. Nəşrin müxbiri Vazgen Manukyanla bu mövzu ətrafında söhbət etməyə çalışsa da, o, suallara cavab verməkdən imtina edib.

Göründüyü kimi, Ermənistanda dərin siyasi kataklizm yaşanır. Eyni zamanda Ermənistanda sosial-iqtisadi problemlərin miqyası daha da artır. Bütün bunların fonunda N.Paşinyanın altı ay üçün müəyyən etdiyi prioritetlərin reallaşması tamamilə mümkünsüz görünür.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***




# "Qarabağ - mədəniyyətimizin beşiyi": Şərifan məqbərəsi

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərdə dağıdılan, talan edilən mədəniyyət ocaqları, abidələr, tarixi-memarlıq nümunəsi olan tikililər, Azərbaycan xalqının Qarabağda saxtalaşdırmaya və mənimsənilməyə məruz qalan zəngin mədəni irsi ilə bağlı həqiqətlərin beynəlxalq səviyyədə ictimailəşdirilməsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən "Qarabağ - mədəniyyətimizin beşiyi" adlı layihə davam edir.

AZƏRTAC xəbər verir ki, layihə çərçivəsində növbəti material Şərifan məqbərəsinə həsr edilib.

Tarixi abidə Zəngilan rayonunun Şərifan kəndində, Həkəri çayının sağ sahilində yerləşir. Qədim türbənin ancaq alt hissəsinin - sərdabəsinin qalıqları dövrümüzə qədər gəlib çatıb. Türbənin üst hissəsi dağılıb.




Şərifan sərdabəsi XIII-XIV əsrlərin qovşağında tikilmiş abidə hesab edilir.

# "Oyuq"çu uşaqlar "Can Qarabağ" mahnısına klip çəkdiriblər



Fəaliyyətində, repertuar seçimi və mədəni-sosial aksiyalarında vətənpərvərlik mövzusunu daim diqqət mərkəzində saxlayan, yetişən nəsillərin bu ruhda formalaşmasında öz missiyasını layiqincə davam etdirməyə çalışan Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı növbəti layihəsini də sənətsevərlərin ixtiyarına verib. Teatrın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sənət ocağının nəzdindəki "Oyuq" teatr-studiyası özünün hərbi-vətənpərvərlik ideyalı növbəti klipini ərsəyə gətirib.

"Qarabağ Azərbaycandır!" şüarı ilə bundan öncə də bir neçə klip və videoçarx hazırlayan teatr təmsilçiləri bu dəfə sözləri və musiqisi Bəhram Nəsibova məxsus "Qarabağ" ("Can Qarabağ" adı ilə tanınan) mahnısına klip çəkiblər.

İstedadlı uşaq və yeniyetmələrin toplandığı studiyanın vokalçı yetirmələri dillər əzbərinə çevrilən bu mahnıya yeni nəfəs verməklə zəfər sevinclərini bölüşməyə çalışıblar.

"Qarabağ Azərbaycandır" layihəsinin davamı olan klipin ideya müəllifi Səidə Haqverdiyeva, rejissoru Tofiq Teymuroğlu, operatoru Mərdan Məmmədovdur.

Xatırladaq ki, bu mahnı və ona çəkilən klip teatrın "Uşaq və yeniyetmələrin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi"nə yönələn çoxşaxəli fəaliyyətinin bir istiqamətidir. Mövzu ilə bağlı daha bir klip və videotamaşa da hazırlanacaq.

# OXUCULARIN NƏZƏRİNƏ

## "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası başlayıb!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 212-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Təhsil müəssisələrinə qaz xətlərinin çəkilməsi və sayğacların quraşdırılması üzrə 16 noyabr 2020-ci ildə keçirilmiş elektron açıq tenderdə **"GOLDMOON" MMC** qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankında Ani Ödənişlər Sisteminin təbliğat və təşviqat materiallarının hazırlanması və yayımlanması üzrə xidmətin satın alınması ilə bağlı kotirovka sorğusuna dair Satınalmalar komissiyasının 21 oktyabr 2020-ci il tarixli qərarına əsasən **"Uptime Azərbaycan" MMC** qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 13 noyabr 2020-ci ildə Dövlət Satınalmalarının vahid internet Portal vasitəsilə "Bakı Metropoliteni" QSC-də işıqlandırma sistemi üçün avadanlıq və malların satın alınmasına dair açıq tender (Elektron) üsulu ilə müsabiqə keçirilmiş və **"ERG BAKU" MMC** qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilatla 209 473,25 (iki yüz doqquz min dörd yüz yetmiş üç manat 25 qəpik) manat ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 07 avqust 2020-ci ildə vahid satınalma Portalında elan edilmiş "Elektrik xətt təsərrüfatına tələb olunan elektrik kabelləri, açarları və digər materialların satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi **"Tələt"** firması müəyyən edilmişdir.

**"Aztelekom" MMC ilə "Tələt"** firması arasında 04 noyabr 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Abşeron və Binəqədi DOST Mərkəzi üçün İT infrastrukturunun qurulması üçün lazım olan avadanlıqların, proqram təminatlarının alınması və onların sazlanması işlərinin satın alınması üzrə keçirilən təkliflər sorğusuna dəvət edir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı:** Abşeron DOST Mərkəzi üçün İT infrastrukturunun qurulması üçün lazın olan avadanlıqların, proqram təminatlarının alınması və onların sazlanması işlərinin satın alınması üzrə 100 (bir yüz) manat

Binəqədi DOST Mərkəzi üçün İT infrastrukturunun qurulması üçün lazın olan avadanlıqların, proqram təminatlarının alınması və onların sazlanması işlərinin satın alınması üzrə 100 (bir yüz) manat

Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İstirak haqqı heç bir halda qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 01 dekabr 2020-ci il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 02 dekabr 2020-ci il saat 10:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Baba Rzayev ailəsi ilə birlikdə
**MƏMMƏD ƏHMƏD OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova və Biologiya və Tibb Elmləri Bölməsinin üzvləri tanınmış alim, AMEA-nın müxbir üzvü
**ZAKİR ÖMƏR OĞLU QARAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi YAP İdarə Heyətinin üzvü Hacıbala Abutalıbova qardaşı
**OSMAN ABUTALIBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" QSC-nin İdarə Heyəti və kollektivi Elmar Məmmədova atası, "Aqrarkredit" QSC-nin Müşahidə Şurasının keçmiş sədri
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi
**MƏMMƏD ƏHMƏD OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Riyaziyyat və statistika kafedrasının məsləhətçi professoru, Əməkdar elm xadimi
**MƏMMƏD CÜMŞÜD OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi Bioloji kimya kafedrasının müdiri, professor Gülnarə Əzizovaya oğlu
**İBRAHİM ƏZİZOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aydın Əliyev Əli Həsənova bacısı
**DİLBƏR XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aydın Əliyev Məmmədovlar ailəsinə
**MƏMMƏD MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7466
Sifariş 2650
Qiyməti 40 qəpik